Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

Beşinci sessiya
Payız

43-cü cild

10 oktyabr 2025-ci il

Milli Məclisin nəşri
Bakı – 2025

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# YEDDİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# V SESSİYASI İCLASININ

# PROTOKOLU № 44

*Milli Məclisin iclas salonu.*
*10 oktyabr 2025-ci il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 116 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 111 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Ülvi Mehdiyev**, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri.

**Anar Bağırov**, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri.

**Şahmar Məmmədov**, Azərbaycan Respublikası Vəkillər Kollegiyası sədrinin müavini.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. “Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995–2025)” Azərbaycan Respublikasının yubiley meda-

lının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

2. "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 113-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

3. "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

4. "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

5. Dövlət xidmətləri haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

6. Azərbaycan Respublikasının daxili qoşunları haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

7. "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

8. "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

9. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Proses-

sual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində və "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

10. "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

11. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

12. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

13. Azərbaycan Respublikasının Vergi Məcəlləsində və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Vasif Qafarov, Günay Əfəndiyeva, Hikmət Məmmədov, Elman Nəsirov, Rəşad Mahmudov, Tural Gəncəliyev, Razi Nurullayev, Əli Məsimli, Ceyhun Məmmədov, Zahid Oruc, Səyyad Aran, Ramil Həsən

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.04 dəq.) |
| Lehinə | 115 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 115 |

Nəticə: Qəbul edildi

**1. “Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995–2025)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Sahib Alıyev, Hikmət Məmmədov, Aydın Mirzəzadə, Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

**2. “Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 113-VIIQD nömrəli Qanununun icrası ilə əla-**

**qədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Hicran Hüseynova, Əli Hüseynli, Əhliman Əmiraslanov, Günay Ağamalı

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.07 dəq.) |
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

**3. "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

**4. "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Siyavuş Novruzov, Məlahət İbrahimqızı

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.18 dəq.) |
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**5. Dövlət xidmətləri haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Aydın Mirzəzadə, Nigar Məmmədova, Fazil Mustafa, Ülvi Mehdiyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.38 dəq.) |
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**6. Azərbaycan Respublikasının daxili qoşunları haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev, Siyavuş Novruzov, Zahid Oruc, Bəhruz Məhərrəmov, Əli Hüseynli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.09 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**7. "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Sadiq Qurbanov, Səbinə Xasayeva, Aydın Hüseynov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 15.13 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**8. “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Badamov, Razi Nurullayev, Göydəniz Qəhrəmanov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 15.19 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**9. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində və “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov, Siyavuş Novruzov, Fazil Mustafa, Zahid Oruc, Aydın Mirzəzadə, Erkin Qədirli, Anar Bağırov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 15.48 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 1 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**10. "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 15.58 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

**11. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əminə Ağazadə

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.01 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

**12. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əhliman Əmiraslanov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.03 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.04 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.04 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.05 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**13. Azərbaycan Respublikasının Vergi Məcəlləsində və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.09 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.09 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.10 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.10 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.10 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*10 oktyabr 2025-ci il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*
***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Hörmətli deputatlar, hörmətli qonaqlar, hörmətli media nümayəndələri, hamınızı xoş gördük.

Hörmətli həmkarlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 111 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var. İclasa başlaya bilərik.

Hörmətli həmkarlar, bildiyiniz kimi, Milli Məclis sədrinin başçılığı ilə nümayəndə heyəti oktyabrın 1-dən 3-dək Cənubi Afrika Respublikasının Keyptaun şəhərində işgüzar səfərdə olmuşdur. Səfərdə məqsəd "Böyük iyirmilik" ölkələrinin Parlament Sədrlərinin 11-ci Sammitində iştirak etmək idi.

Hörmətli deputatlar, oktyabrın 1-də sammitin açılış mə-

rasimində etdiyim çıxışda mən beynəlxalq münasibətlər sistemində Azərbaycanın müdafiə etdiyi prinsiplər haqqında danışdım. Ölkəmizin qlobal çoxtərəfli əməkdaşlığa verdiyi töhfələri nəzərə çatdırdım.

Qeyd etdim ki, Azərbaycanın 2019–2023-cü illərdə Qoşulmama Hərəkatına sədrliyi, humanitar yardım fəaliyyətləri onun bu istiqamətdə kollektiv səylərə güclü sadiqliyini əks etdirir.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin təşəbbüsü ilə 2021-ci ildə yaradılmış və hazırda Milli Məclisin sədrlik etdiyi Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin fəaliyyəti haqqında da məlumat verdim.

Hörmətli həmkarlar, oktyabrın 2-də keçirilən sammitdə "Fəlakətlərə qarşı dayanıqlığın və cavab tədbirlərinin gücləndirilməsi" mövzusunda müzakirələrdə çıxış etdim. Fəlakətlərə və iqlim təsirlərinə qarşı zəruri cavab tədbirlərinin görülməsində parlamentlərin rolu haqqında fikirlərimi bölüşdüm. Milli Məclisin bu sahədə çoxsaylı qanunlar qəbul etdiyini bildirdim.

Ötən ilin noyabrında möhtərəm cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın COP29-a uğurla ev sahibliyi etdiyini xatırlatdım. Tədbirin mühüm nəticələri barədə məlumat verdim. Həmçinin nəzərə çatdırdım ki, Parlamentlərarası İttifaqla birlikdə Milli Məclis COP29 çərçivəsində keçirilən parlament iclasına da ev sahibliyi etmişdir.

Hörmətli deputatlar, Parlament Sədrlərinin 11-ci Sammiti çərçivəsində bir sıra ikitərəfli görüşlərim oldu. Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, İspaniya, Avstraliya, Sinqapur, Cənubi Afrika Respublikası, Zimbabve parlamentlərinin sədrləri, Braziliya parlament

nümayəndə heyətinin rəhbəri ilə söhbətlərimdə Cənubi Qafqaz regionunda vəziyyət, Azərbaycanla Ermənistan arasında sülh prosesi, işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və yenidənqurma işləri barədə məlumat verdim.

Ölkələrimiz və parlamentlərimiz arasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsinə dair fikir mübadiləsi də aparıldı.

Hörmətli həmkarlar, hesab edirəm, Cənubi Afrika Respublikasına işgüzar səfər uğurlu oldu. Diqqətinizə görə çox sağ olun. Mən həmişə olduğu kimi, hər bir səfərdən sonra məlumat verirəm, bu da o sıradan olan bir məlumat idi.

Hörmətli həmkarlar, indi isə xahiş edirəm, gündəliyə münasibət bildirəsiniz, gündəlik sizə paylanıb. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.04 dəq.) |
|---|---|
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 115 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, 10 nəfər çıxış edə bilər. 30 dəqiqəmiz var, kim çıxış etmək istəyirsə, xahiş edirəm, yazılın. Yoxdursa, gündəliyin...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Zəhmət olmasa, deyin, 10 nəfərin siyahısını saxlasınlar.

Vasif Qafarov. Buyurun, Vasif müəllim. 3 dəqiqəniz var.

**Vasif Qafarov**. Hörmətli sədr, hörmətli deputatlar, bu gün beynəlxalq münasibətlərin yeni mərhələsinə qədəm qoyuruq. Dünya dəyişir, təkqütblü sistem öz yerini yeni güc mərkəzlərinə verir. Regional aktorların rolu artır. Bu dəyişikliklər fonunda Türk Dövlətləri Təşkilatı özünəməxsus yeri, gücü və nüfuzu ilə seçilir. Qəbələdə keçirilən Türk Dövlətləri Təşkilatının 12-ci Zirvə Görüşü bu baxımdan tarixi hadisədir. Bu zirvə bir daha göstərdi ki, türk birliyi artıq ideya deyil, siyasi və iqtisadi reallıqdır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin çıxışı zirvənin strateji ruhunu tam şəkildə əks etdirdi və bu birlik ideyasının qlobal mahiyyətini ortaya qoydu.

Hörmətli millət vəkilləri, Azərbaycan bu birliyin ideoloji və strateji lokomotividir. Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan türk dünyasının həmrəyliyini ideyadan reallığa çevirən əsas qüvvə kimi çıxış edir. Prezidentin "bizim ailəmiz türk dünyasıdır" fikri Azərbaycan diplomatiyasının fəlsəfəsini ifadə edir. İnanırıq ki, Azərbaycanın Türk Dövlətləri Təşkilatına sədrliyi bu təşkilatın inkişafına yeni impuls verəcək.

Hörmətli həmkarlar, Türk Dövlətləri Təşkilatının Qəbələ Zirvəsinin əsas mövzusu regional sülh və təhlükəsizlik idi. Azərbaycan Prezidenti türk dövlətlərinin vahid güc mərkəzi kimi çıxış etməsinin çox vacib olduğunu bəyan etdi və strateji bir təşəbbüslə çıxış edib 2026-cı ildə Azərbaycanda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin birgə hərbi təlimlərinin keçirilməsini təklif etdi. Hesab edirəm ki, bu, zamanın tələbidir. Çünki sülh və təhlükəsizlik təmin edilmədən inkişaf mümkün deyil. Sülh isə gücdən, güc də birlikdən, ittifaqdan doğur. Bugünkü dünyada hərbi güc hər bir ölkənin suverenliyinin və ərazi bütövlüyünün əsas təməlidir. Bu təlimlər türk təhlükə-

sizlik arxitekturasının formalaşması istiqamətində mühüm addım olmaqla yanaşı, həm də türk dünyasının siyasi həmrəyliyinin, strateji iradəsinin və birgə gücünün rəmzi olacaq.

Hörmətli həmkarlar, türk dövlətlərinin Qarabağın və Şərqi Zəngəzurun bərpasına verdiyi dəstək türk həmrəyliyinin əməli təzahürüdür. Bu həmrəylik yalnız siyasi deyil, mənəvi bir məsuliyyətin göstəricisidir.

Cənab Prezidentin 1926-cı ildə Bakıda keçirilmiş Birinci Türkoloji Qurultayın gələn il 100 illik yubileyinin Türk Dövlətləri Təşkilatı çərçivəsində təntənəli şəkildə qeyd olunması təşəbbüsünü irəli sürməsi də türk kimliyinin elmi və mənəvi əsaslarının möhkəmləndirilməsinə yönəlmiş addımdır. Bu, yumşaq gücün ən təsirli formasıdır. Çünki mədəniyyət üzərində qurulan birlik həmişə dayanıqlı olur. Bununla yanaşı, Türk Dövlətləri Təşkilatının gələcək inkişafı üçün bir sıra strateji...

**Sədrlik edən.** Sağ olun. Xahiş edirəm, reqlamentə riayət edin.

Günay Əfəndiyeva. 3 dəqiqəniz var, Günay xanım.

**Günay Əfəndiyeva**. Hörmətli xanım sədr, hörmətli həmkarlar. 3 gün öncə Qafqaz Albaniyasının paytaxtı qədim Qəbələ şəhərində Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü gerçəkləşdi. Görüşün yekununda təşkilata sədrlik Azərbaycana keçdi.

Türk Dövlətləri Təşkilatı bizim köklərimizə söykənən müasir bir həmrəylik modelidir. Unutmamalıyıq ki, bu təşkilat nəhəng bir coğrafiyanın iradəsini təmsil edir.

Vaxtı ilə türk dövlətləri bir araya gələrək Türk Dövlətləri Təşkilatının əsasını qoydular. Bu gün artıq təşkilatın özü üzv ölkələri müxtəlif istiqamətlərdə, platformalarda dəstəkləyir, onlara inkişaf üçün yeni imkanlar açır. Əgər

əvvəllər biz ideyanı yaşadırdıqsa, indi həmin ideya artıq bizi də yaşadır, birləşdirir və gücləndirir.

Eyni zamanda, TÜRKPA, TÜRKSOY, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, son illərdə təsis olunan Türk İnvestisiya Fondu kimi strukturlar ümumtürk həmrəyliyinin parlamentar, mədəni, elmi, iqtisadi və digər sahələrdə dayaqlarını möhkəmləndirir.

Türk dövlətlərinin başçıları arasında əlaqələrin xarakteri də bunu bir daha sübut edir. Baxın, artıq görüşlər rəsmi format ilə yanaşı, həm də dostluq, səmimiyyət və etimad mühitində, qeyri-formal şəraitdə reallaşdırılır. Bu kontekstdə Azərbaycan Respublikasının Prezidentinin təşəbbüsü ilə ötən il Şuşada keçirilən, bir çox ciddi məqamları əhatə edən qeyri-rəsmi zirvə görüşünü mühüm bir nümunə kimi qeyd etmək olar.

16 illik Türk Dövlətləri Təşkilatı hər il böyüyür, genişlənir, dərinləşir. Son zamanlarda Türkmənistanın türk dünyasının ortaq fəaliyyətlərində aktiv iştirakını yüksək qiymətləndiririk.

Zirvə çərçivəsində türk dövlətlərinin başçıları tərəfindən Türkmənistanın Füzulidə inşa edəcəyi məscidin təməli qoyuldu. Artıq həmrəyliyimiz dini dəyərlərimiz üzərində də möhkəmlənir. Əminəm ki, bu məsciddən Qarabağa yayılan azan səsi türk birliyinin sədalarını daha da yüksəldəcək.

Zirvə görüşü ortaq türk mədəniyyətinin inkişafı üçün çox vacib təkliflərlə yadda qaldı. Vasif müəllim artıq dedi, cənab Prezident Birinci Türkoloji Qurultayın 100 illiyinin gələn il Türk Dövlətləri Təşkilatı çərçivəsində təntənəli şəkildə təşkil olunması təşəbbüsü ilə çıxış etdi. Özbəkistan Respublikasının Prezidenti cənab Şavkat Mirziyoyev "Dahi Nizaminin və Nəvainin yaradıcılığı türk dünyasının

mənəvi irsi kimi" böyük beynəlxalq konfransın keçirilməsi təklifini irəli sürdü. Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan dekabrın 15-nin Dünya Türk Dili Ailəsi Günü kimi elan olunmasını təklif etdi.

Düşünürəm ki, bu dəyərli təşəbbüslərin reallaşdırılması xalqlarımızı bir-birinə daha da doğmalaşdıracaq, ortaq mədəni kimliyimizin yaşadılmasına xidmət edəcəkdir.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Günay xanım.

Hikmət Məmmədov. Buyurun.

**Hikmət Məmmədov**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, doğrudan da, Qəbələdə çox mühüm bir tarixi hadisə baş verdi. Mən istəyirəm ki, bu tarixi hadisəyə iki kontekstdə münasibət bildirim. Bunlardan biri əcdadımızın 200 il bundan əvvəl ideologiya halına gətirdiyi və görmək istədiyi arzuların reallaşdırılması hadisəsi idi. İsmayıl bəy Qaspıralı, Əli bəy Hüseynzadə, Ziya Göyalp arzu edirdilər ki, bir türk birliyi yaransın. İsmayıl Qaspıralı da "dildə, fikirdə, işdə birlik" deyirdi. Biz, əslində, Qəbələdə bunun hər üçünü gördük. Bax, "işdə birlik" nümunəsini yaradan liderlərə eşq olsun. Biz qürur duyuruq ki, böyük gələcəyimizə doğru gedən yolda "işdə birlik" məsələlərinin fundamenti məhz 2009-cu ildə Naxçıvanda qoyulubdur, bu gün Qəbələdə davam etdirilir.

Əlbəttə ki, bəhs etdiyimiz coğrafiyaya diqqət etsək görəcəyik ki, hər bir azərbaycanlının, Türk Dövlətləri Təşkilatına üzv olan hər bir ölkənin vətəndaşlarının özünü yenidən dərk etməsi üçün bu coğrafi arealın miqyasına baxmalıdırlar. Tanrı dağlarından, Qırğızıstandan başlayıb Ağ dənizə qədər uzanan bir coğrafiyadan söhbət gedir. Şərqi Sibirdən, Qazaxıstandan başlayıb düz Avropanın göbəyinə qədər, Dunay çayına qədər uzanan böyük bir

coğrafiyadan söhbət gedir. Ona görə də Azərbaycan Prezidenti, əslində, bir qiymətləndirmə də apardı. Türk Dövlətləri Təşkilatını qlobal aktor kimi səciyyələndirdi. Biz bəhs etdiyimiz coğrafi areala baxanda görürük ki, bu, Avrasiyanın mərkəzidir, Avrasiyanın ürəyidir və bu müqəddəs coğrafiya bizə əcdadların mirasıdır. Bu birliyin gələcəyinin qurulması da, əlbəttə ki, böyük liderlərimizin fəaliyyəti ilə bağlıdır.

Hörmətli xanım sədr, Siz filoloqsunuz, professorsunuz, Azərbaycanda dilçiliyin inkişafında əməyi olan insansınız. Mən Azərbaycan Prezidentinin bir təklifi üzərində dayanıb bir təklif irəli sürmək istəyirəm. Söhbət ondan gedir ki, 1926-cı ildə Türkoloji Qurultayda iştirak edən alimlərimizin, türkoloqlarımızın hər biri, demək olar ki, 1937-ci il repressiyasının qurbanı oldu. Azərbaycan Prezidenti məhz onların xatirəsinə əsasən bu fikri irəli sürdü. Amma mənə elə gəlir ki, elə 2026-cı ildə bəlkə Azərbaycanda bir türkologiya akademiyası da qurmaq olar və orada Türk Dövlətləri Təşkilatına üzv olan ölkələrin də iştirakı, yardımı ilə təkcə türk dili ailəsi deyil, fin-uqor ailəsinə daxil olan bütün xalqların ortaq dilimizin inkişafı ilə bağlı mühüm tədqiqatları aparıla bilər. Fin-uqor dil ailəsi isə, hörmətli xanım sədr, Sizin bildiyiniz kimi, Koreyadan Finlandiyaya, Norveçə qədər uzanan böyük bir dil coğrafiyasıdır.

Diqqətinizə görə təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Elman Nəsirov. Buyurun.

**Elman Nəsirov**. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Hörmətli xanım sədr, ilk növbədə Sizi Cənubi Afrika Respublikasına uğurlu səfəriniz münasibəti ilə təbrik edirəm.

Mən də hörmətli həmkarlarımın Türk Dövlətləri Təşkilatının Qəbələ Sammiti ilə bağlı səsləndirdikləri fikirlərə şərikəm. Eyni zamanda, diqqəti cənab Prezidentin strateji əhəmiyyətli bir fikrinə cəlb etmək istəyirəm. Dövlətimizin başçısı cənab İlham Əliyev qeyd etdi ki, Türk Dövlətləri Təşkilatı bu gün, sadəcə, bir əməkdaşlıq platforması deyil, o, dünyanın mühüm geosiyasi mərkəzlərindən birinə çevrilməkdədir. Bu sözün çox böyük tutumu var. Əvvəla, müasir beynəlxalq koordinatlar sistemində xüsusi rola və çəkiyə malik olmaq üçün gərək müvafiq potensialın olsun.

Güc mərkəzinə çevrilmək üçün birinci növbədə, ərazi potensialın olmalıdır, böyük bir arealı əhatə etməlisən. Türk Dövlətləri Təşkilatının – 8 üzv və müşahidəçi statusu olan dövlətlərin birlikdə ərazisi 4,8 milyon kvadrat kilometrdir. Güclü iqtisadiyyatın olmalıdır. Son hesablamalara görə, – mən 2024-cü il rəqəmini söyləyirəm, – bu dövlətlərin birlikdə ümumi daxili məhsulu 2,1 trilyon ABŞ dollarına gəlib çatıb. Əhalisinə gəldikdə isə, artıq 180 milyon nəfəri ötüb. Eyni zamanda, bu dövlətlərin beynəlxalq birliklə ticarət dövriyyəsinə baxsaq, 1,2 trilyon dollardır. Nəhayət, 2024-cü ildə dünyada iqtisadi artım 3,2 faiz olub. Ancaq Türk Dövlətləri Təşkilatının birlikdə iqtisadi artımı 5,2 faiz olub.

Yəni bütün bu faktlar bir daha təsdiqləyir ki, bu gün Türk Dövlətləri Təşkilatı, həqiqətən də, çox güclüdür və geosiyasi mərkəzə çevrilmək potensialına malikdir. Həm də cənab Prezidentin çıxışında bizim əməkdaşlığımızın yeni sahələri, yəni müdafiə, təhlükəsizlik, hərbi-texniki və hərbi sənaye sahəsində əməkdaşlıq məsələləri də xüsusi qabardıldı. Bu da təsadüfi deyil. Çünki müasir dünyamızda ərazi bütövlüyü, suverenlik və ümumiyyətlə, dövlətin öz statusunu qoruyub saxlaması üçün güc

məsələsi, güc faktoru həlledici amildir. Çox sevindirici haldır ki, bu gün məhz Türk Dövlətləri Təşkilatına üzv olan dövlətlərin bu sahədə də potensialı böyükdür. Türkiyənin 40 milyard ABŞ dollarından çox hərbi büdcəsi var və hərbi gücünə görə NATO-da ikinci dövlətdir, dünyada isə 8-ci, 9-cu yerdədir. Bu baxımdan, hesab edirəm ki, Türk Dövlətləri Təşkilatının hərbi nöqteyi-nəzərdən də bir güc mərkəzinə çevrilmək potensialı çox böyükdür.

Təşəkkür edirəm.

**Sədrlik edən**. Sağ olun.

Rəşad Mahmudov. Buyurun.

**Rəşad Mahmudov.** Çox hörmətli xanım sədr, hörmətli həmkarlar. Bu həftə Azərbaycan diplomatiyası üçün mühüm hadisələrlə yadda qaldı. Qəbələdə keçirilən və bir az əvvəl həmkarlarımın dilə gətirmiş olduğu Türk Dövlətləri Təşkilatının Zirvə Görüşü və Düşənbədə baş tutan MDB Dövlət Başçıları Şurasının iclası bir daha göstərdi ki, Azərbaycan bu gün təkcə regionun deyil, həm də daha geniş beynəlxalq məkanın siyasi və iqtisadi nəbzini müəyyən edən əsas aktorlardan biridir.

Qəbələdə keçirilən zirvə görüşü türk dünyasının birliyinin və həmrəyliyinin növbəti simvolu idi. Azərbaycan ev sahibi kimi bir daha sübut etdi ki, türk dövlətlərini birləşdirən ortaq dəyərlər – ortaq dil, ortaq tarix, ortaq mədəniyyət və ortaq şəkildə gələcəyə yönəlmiş vizyon real əməkdaşlıq platformasına çevrilib. Bu görüş həm siyasi, həm iqtisadi, həm də mənəvi baxımdan böyük önəm daşımaqdadır.

Düşənbədə isə cənab Prezident İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etdi. Tacikistan Prezidenti Emoməli Rəhmon tərəfindən yüksək səviyyədə

qarşılanan dövlət başçımız orada da bir sıra mühüm ikitərəfli görüşlər keçirdi. Xüsusi ilə Azərbaycan–Rusiya dövlət başçılarının görüşü regionda qarşılıqlı hörmət və strateji tərəfdaşlıq mühitinin davam etdiyini göstərdi. Bu münasibətlər emosional, siyasi və strateji üçlüyün harmoniyasına əsaslanır. Emosional olaraq qarşılıqlı etimad, siyasi baxımdan bərabərhüquqlu dialoq, strateji planda isə qarşılıqlı fayda və regional sabitliyin təminatıdır.

Bu tədbirlər bir daha sübut edir ki, cənab Prezident İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli, balanslı və uzaqgörən siyasət Azərbaycanın beynəlxalq nüfuzunu misilsiz dərəcədə artırır. Azərbaycan bu gün həm türk dünyasında, həm MDB məkanında, həm də qlobal diplomatik səhnədə sülhün, təhlükəsizliyin və əməkdaşlığın təminatçısı kimi qəbul olunur. Əlbəttə ki, bu siyasətin mahiyyətində bir prinsip dayanır. Müstəqillik, milli maraqlar və milli qürur. Bu, həm Qəbələdəki qardaşlıq platformasında, həm də Düşənbədəki strateji dialoqlarda eyni güclə özünü göstərdi.

Düşünürəm ki, millət, cəmiyyət olaraq, siyasi görüşündən asılı olmadan bir vətəndaş olaraq bizlər də bu siyasətin arxasında dayanmalı, ölkəmizin beynəlxalq aləmdə qazandığı mövqeyi daha da möhkəmləndirmək üçün hər bir sahədə birliyimizi, həmrəyliyimizi və dövlətə sədaqətimizi göstərməliyik.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Rəşad müəllim.

Tural Gəncəliyev. Buyurun.

**Tural Gəncəliyev.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. Azərbaycanın yeni bir geosiyasi güc mərkəzinə çevrildiyini görmək üçün biz yay ayından bəri başlayan aktiv və intensiv siyasi, diplomatik fəaliyyətə nəzər

salırıq. Vaşinqton görüşləri ilə başlayan və sonradan Şanxay Əməkdaşlıq Təşkilatı, Avropa Siyasi Birliyi, Türk Dövlətləri Təşkilatı və nəhayət, artıq bu günlərdə keçirilən MDB Dövlət Başçıları Şurasının toplantısında Azərbaycana və onun liderinə olan beynəlxalq diqqəti nəzərə alsaq, biz artıq Azərbaycanın bir güc mərkəzinə çevrildiyini təsdiq etmiş oluruq.

Ümumiyyətlə, Azərbaycan hazırda həyata keçirdiyi siyasətlə, diplomatiya ilə, – dünən hətta biz Düşənbədə də bunun şahidi olduq, – problemli məsələlərin məhz konstruktiv diplomatiya yolu ilə həllinə nail ola bilən çox güclü bir ölkə və liderə malikdir.

Türk Dövlətləri Təşkilatı haqqında da burada xüsusi danışmaq istəyirəm. Artıq həmkarlarım vurğuladılar, Azərbaycan Türk Dövlətləri Təşkilatına sədrliyi öz üzərinə beynəlxalq geosiyasi vəziyyətin çox mürəkkəb olduğu, tektonik dəyişikliklərin baş verdiyi dünyada götürür. Təbii ki, bizim böyük təşkilatlara, böyük hərəkatlara sədrlik etmək baxımından çox böyük təcrübəmiz var. Məsələn, xatırlayaq, Qoşulmama Hərəkatına sədrlik etməyimiz, COP29 sessiyasını çox müvəffəqiyyətlə həyata keçirməyimiz bu təşkilatların imicinə nə qədər töhfə vermiş oldu.

Türk Dövlətləri Təşkilatı hazırda, hesab edirəm, ən böyük güc mərkəzi, yeni bir beynəlxalq təşkilat kimi, məhz Azərbaycanın sədrliyi dövründə yeni dövrə qədəm qoyur. Artıq burada qeyd olundu, Türk Dövlətləri Təşkilatının siyasi, iqtisadi, hərbi potensialı, Avropa İttifaqı ərazisindən daha böyük bir coğrafiyanı əhatə edən, ümumi daxili məhsulu 2 trilyon ABŞ dollarını ötüb keçən bir təşkilatdan danışırıq. Öyünüləsi yerimiz var. Məsələn, "Böyük yeddilik" ölkələrinin ümumi daxili məhsulu minimum 2 trilyon dolların üzərindədir. Bundan əlavə, qeyd olundu,

200 milyona yaxın gənc, passionar əhali. Orta statistik hesablamalara görə, Türk Dövlətləri Təşkilatında orta yaş 28–32 yaş hesab olunur ki, o da, təbii, bu arealda, bu coğrafiyada nə qədər güclü iqtisadi potensialın olduğunu göstərir.

Bundan əlavə, təşkilata üzv dövlətlərin böyük nəqliyyat, kommunikasiya xətlərinin üzərində yerləşməsi çox önəmlidir. Müqayisə üçün deyək ki, Avropa ilə Asiyanı birləşdirən xətlər, ticarət məhz Türk Dövlətləri Təşkilatı ərazisindən keçməklə bu təşkilata xüsusi güc qatır.

2022-ci il Rusiya–Ukrayna müharibəsi başlamazdan öncə Çinlə Avropa arasında ticarət dövriyyəsinin məhz 86 faizi Rusiya üzərindən gedirdi. Bu gün artıq Orta dəhliz tam funksional olmaq səviyyəsinə çatmışdır.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev.** Hörmətli xanım sədr, mən də Sizi Cənubi Afrika Respublikasına uğurlu səfəriniz münasibəti ilə ürəkdən təbrik edirəm. Yolunuz hər zaman açıq olsun.

Son günlər bir çox sosial media səhifələrində hüquq mühafizə orqanlarının, xüsusi ilə də polis və polis rəhbərliyinin, prokurorluq orqanlarının məqsədli şəkildə hədəfə alındığını, ağır sözlərlə təhqir olunduğunu görürəm. İndiki vəziyyətdə polisi, prokurorluğu və onların rəhbərliyini haqsız hücumlardan müdafiə etməyi ölkəmizdə sabitliyin və əmin-amanlığın qorunmasının vacib şərti hesab edirəm.

Sancaq Media adı altında fəaliyyət göstərən bu şəbəkəni, onların arxasında dayananları etdikləri təhqirlərə, kontekstsiz paylaşımlara görə şiddətlə qınayır və onları bu yoldan çəkinməyə çağırıram. 1–2 nəfərə görə 10 minlərcə

şəxsi heyəti hədəfə almaq qaranlıq məqsədlər güdüldüyünü göstərir. Məqsəd insanları emosional vəziyyətə gətirmək, hisləri ilə oynamaq, psixoloji təsir etmək və onları ayaqlanmağa dəvət etməkdir. Bu, konstitusiya quruluşunu zorla dəyişməyə, qanlar tökməyə, dağıdıcılıq etməyə çağırışdır və belə hərəkətlərin mütləq şəkildə ya bu gün, ya da sabah cəzası var.

Bu gün ölkə vətəndaşlarının təhlükəsizliyini polis qoruyur. Onların sayəsində övladlarımız rahat şəkildə gəzə bilir. Bir təhlükə hiss edən kimi dilimizdə "Allah, kömək ol" kəlməsi var, gözümüz isə polis axtarır. Belə çıxmasın ki, mən boş yerdən polisi və prokurorluq orqanlarını müdafiə edirəm. Hər sahədə çatışmazlıq var və olacaq da. Kim qanunsuz hərəkət edibsə, cəzalandırılır və cəzalandırılmalıdır.

Ölkəmizdə sabitliyin, əmin-amanlığın, dövlətçiliyin qorunmasına verdiyi əvəzsiz töhfəyə görə cənab nazir Vilayət Eyvazova və rəhbərlik etdiyi kollektivə, Baş prokuror Kamran Əliyevə və bütün kollektivinə təşəkkürümü bildirirəm. Bildirmək istəyirəm ki, biz bütün haqq və dövlət işlərinizdə, dövlət və xalq naminə yanınızdayıq.

İkinci məsələ, xanım sədr, İmişli ənənəvi olaraq qum, çınqıl karxanaları məkanı kimi tanınır və bu sahədə minlərcə iş yeri yaradılıb. Hazırda İmişlidə 2–3 karxanadan başqa digər onlarca karxana sahəsi qapadılıb və bu da iş yerlərinin kütləvi azalmasına gətirib çıxarıb. Qum, çınqılın çıxarılması ilə bağlı yeni qaydalar müəyyənləşdirilib.

Bildiyiniz kimi, Prezident İlham Əliyevin 2024-cü il 23 dekabr tarixli Sərəncamına əsasən qeyri-filiz faydalı qazıntı yataqlarının istismarı "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinə tapşırılıb. Qeyri-filiz faydalı qazıntı yataqlarının istismarının tez bir zamanda açılması bağlanmış iş

yerlərinin bərpasına gətirib çıxarar və bahalaşmanın qarşısını alardı. Mənzil tikintisində, digər tikinti sahələrində qum, çınqıl geniş istifadə olunur. Məhz mənzil və tikinti sahəsində bahalaşmanın bir səbəbi də quma, çınqıla olan tələbatın kəskin artması və yerli sahibkarların bu ehtiyacı təmin edə bilməməsidir.

Vacibdir ki, "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti qeyri-filiz faydalı qazıntı yataqlarının istismarı ilə bağlı qaydaları tezləşdirsin və icazələr verilməyə başlanılsın.

Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun.

Əli Məsimli. Buyurun.

**Əli Məsimli.** Sağ olun, hörmətli sədr. Bu həftənin ən böyük hadisəsi Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının Qəbələdə keçirilən 12-ci Zirvə Görüşü oldu. Azərbaycanın türk dünyasının gələcək konturları, ortaq strateji hədəfləri, bu hədəflərə çatmaq üçün birgə fəaliyyət mexanizminin müəyyən edilməsindəki aparıcı rolu isə Azərbaycan Prezidentinin həmin toplantıdakı çıxışı oldu. Bəs Azərbaycan Prezidentinin orada dediyi məqamları həyata keçirmək mümkündürmü? Birmənalı şəkildə qeyd edirəm ki, mümkündür.

İlk olaraq qeyd edim ki, bugünkü reallıqlar şəraitində dünya düzəninin təlatümlərini də nəzərə almaqla, türk dünyasından başqa, dildə, fikirdə və işdə, həqiqətən, birləşə bilmə qabiliyyətli digər bir qüvvə yoxdur. Deməli, deyilən sözlər gələcək üçün xeyli dərəcədə strateji xarakter daşıyır.

İkinci, onu qeyd etmək istəyirəm ki, məhz bu güc bir sıra dövlətləri və qüvvələri narahat etməyə başlayıb. Onu deputat həmkarım Elman Nəsirovun sadaladığı iqtisadi rəqəmlərin proqnozları şəklində davam etdirmək istərdim.

İndi üzv ölkələrin ümumi daxili məhsulunun alıcılıq qabiliyyəti pariteti üzrə hesablanmış göstəricilərinə görə Türk Dövlətləri Təşkilatı 184 ölkə içərisində Türkiyənin timsalında 13-cüdən, Qırğızıstanın timsalında 130-cuya qədər olan bir məsafəni əhatə edir. Amma bu təşkilata daxil olan dövlətlər öz gücünü birləşdirən zaman artıq biz həmin 184 ölkə arasında yeddinci mövqeyə çıxırıq. Heç bir mübaliğəyə yol vermədim, iqtisadçı kimi proqnozları da verirəm ki, indi türk dövlətlərinin iqtisadi artım tempi dünyanın artım tempindən yüksəkdir. Əgər onu saxlayıb, bir qədər də artırsaq, bizim orta perspektivdə həmin 7-ci yerdən 5-ci yerə çıxmağa tam imkanlarımız var. Ona görə də biz elmi, texniki və sairdən əlavə türk sivilizasiyasını da inkişafımızın generatoruna çevirməklə, hesab edirəm, sadaladığım həmin istiqamətlərdə uğura nail ola biləcəyik. Bu anda isə Azərbaycan Prezidentinin dediyi kimi, türk dövlətləri vahid güc mərkəzi kimi çox yüksək bir səviyyəyə nail olacaq.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Əli müəllim.

Ceyhun Məmmədov. Buyurun.

**Ceyhun Məmmədov.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. Bir neçə gün bundan öncə türk dövlətlərinin rəhbərləri Qəbələ şəhərində növbəti dəfə bir araya gəldilər. Artıq bu cür mötəbər görüşlərin ölkəmizdə keçirilməsi ənənə halını alıb.

Bu dəfəki tədbirin əhəmiyyətini artıran məsələlərdən biri də sammitdə bütün türk respublikalarının rəhbərlərinin iştirakı idi. Artıq bir neçə dəfədir ki, bu tədbirlərdə Türkmənistan və Şimali Kipr respublikalarının prezidentləri də iştirak edirlər. Bu isə tədbirin əhəmiyyətini daha da artıraraq türk dövlətləri arasında birlik və həmrəyliyin

güclənməsinə mühüm töhfələr verir.

Türk dövlətlərinin gələcəyi ilə bağlı bir çox məsələlərdə olduğu kimi, bu tədbirdə də Prezident İlham Əliyev çox önəmli mesajlar verdi. Bu gün çox qürurvericidir ki, Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, Türk Dövlətləri Təşkilatı, sadəcə, əməkdaşlıq platforması deyil, ciddi geosiyasi mərkəzlərdən biri kimi formalaşır. Bu prosesə ən çox töhfə verən ölkələrdən biri də məhz Azərbaycandır.

Prezident İlham Əliyev çıxışında ortaq tarix, etnik köklər və dilin türk dünyasını ailə kimi birləşdirdiyini vurğulayaraq, Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Azərbaycanda birgə hərbi təlimlərinin keçirilməsini təklif etdi. Bu məsələ gələcəkdə türk dövlətlərinin ordularının döyüş qabiliyyətinin artırılması və təhlükəsizliyinin gücləndirilməsi baxımından xüsusi əhəmiyyətə malikdir.

Prezident İlham Əliyevin çıxışında önəmli məqamlardan biri də, həmkarlarımın qeyd etdiyi kimi, Türkoloji Qurultayın 100 illik yubileyinin təntənəli şəkildə keçirilməsi ilə bağlı idi. Bu məsələdə də Prezident İlham Əliyev təşəbbüslə çıxış edərək həmin qurultayın 100 illiyinin keçirilməsini təklif etdi. Bu, sadəcə, bir qurultay deyil, eyni zamanda, mühüm tarixi hadisələrin gənc nəslin yaddaşına həkk olunmasıdır. Bu baxımdan Türkmənistanın Füzulidə məscid inşa etməsi də xüsusi əhəmiyyətə malik bir məsələdir.

Prezident İlham Əliyevin Tacikistanda digər mühüm görüşü isə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə oldu. Azərbaycan–Rusiya münasibətləri hər zaman yüksək səviyyədə olub. Bu münasibətlərin gərginləşməsinə görə məsuliyyəti məhz Rusiya tərəfi daşıyırdı. Beləliklə, məhz Prezident İlham Əliyevin ötən dövrdə

apardığı prinsipial və qətiyyətli siyasət nəticəsində Azərbaycan daha bir məqsədinə və hədəfinə nail oldu. Rusiya tərəfi Azərbaycanın tələbini yerinə yetirdi. Bu, həm də Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın növbəti böyük diplomatik uğurudur.

Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Zahid Oruc. Buyurun.

**Zahid Oruc.** Hörmətli sədr, dünən Aşqabadda 10 aylıq fasilədən sonra Azərbaycan və Rusiya prezidentlərinin görüşü dövlətimizin qətiyyətinin təsdiqi oldu. Söhbət növbəti siyasi hadisədən deyil, Azərbaycanın beynəlxalq münasibətlər sistemində qalib və müstəqil mövqeyinin qəbulundan gedir.

Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsində olduğu kimi, diplomatiyada da millətimizin iradəsini qətiyyətlə və ləyaqətlə təmsil edir. Tarix boyu, Kürəkçaydan Moskva müqaviləsinə, Nərimanovdan Bağırova qədər heç bir azərbaycanlı lider Kreml və güclü paytaxtlar qarşısında İlham Əliyev kimi qətiyyətli duruş göstərə bilməyib. Azərbaycan Prezidenti heç bir geosiyasi təsirə düşmədən, yalnız Azərbaycan xalqının maraqları naminə hərəkət edib.

Ulu Öndər Heydər Əliyev də Sovetlər Birliyinin üçüncü şəxsi olanda xalqımıza sədaqətlə xidmət etmişdi, ideoloji formasiyadan asılı olmamışdı və 1987-ci ildə Kremldə gördüyü ədalətsizliyin də əvəzini İlham Əliyev siyasi və hərbi qələbəmizlə, bütövlük və suverenliklə aldı.

Bizi təyyarə qəzasının səbəbkarı kimi göstərirdilər. İndi Rusiya rəhbəri cinayətkarların cəzalandırılacağını və kompensasiyanın veriləcəyini deyir. Qlobal embarqo və sanksiyaların hədəfində olan bir ölkə ilk gündən belə etsəydi, ittihamları az da olsa, neytrallaşdırardı. Əvəzində

Azərbaycanı təkcə siyasi hədələrlə deyil, hibrid hücumlarla üz-üzə qoydular. Bizi etnik gərginlik yaratmaqda, antirus mövqeyə keçməkdə, radikal millətçilikdə və hətta dönüklükdə ittiham edən rəsmi platformalar, əslində, ölkəmizin müstəqil xarici siyasət kursuna qarşı psixoloji müharibə aparırdılar. Lakin dövlətimiz və xalqımız basqıya qarşı vahid mövqedə durdu.

Kreml mediasına anti-Azərbaycan tezisləri ötürənlərin Qafqaz siyasəti hələ də Pyotr dövrünü xatırladır. Onlar qələbəmizlə regional geosiyasətin dəyişməsini və Azərbaycanın yeni arxitektura quruculuğunu həzm edə bilmirlər. Lakin köhnə qaydalar artıq işləmir.

Dörd ildir Ukraynada gedən qlobal müharibədə Azərbaycan heç bir hərbi blokun forpostu olmadı. Ölkəmizi Qərb koalisiyasına bağlamağa, növbəti "SVO"ların hədəfində göstərməyə çalışanlar dünən ifşa olundular. Ona görə də soydaşlarımızı "kriminal avtoritet"lər, "mütəşəkkil cinayətkar dəstə" və "qafqazlı" siması kimi göstərən Bastrıkinin istintaq idarəsi 9 oktyabrdan sonra bütün saxta cinayət işlərini gərək dayandırsın, azərbaycanlıları azad etsin.

Dünən Aşqabadda keçirilən görüş Vaşinqton Zirvəsi və Azərbaycanın regional sülh siyasətinin birbaşa nəticəsidir. Ölkəmiz türk dünyasının siyasi mərkəzi, Orta dəhlizin əsas dayağı, enerji və logistik qovşaq, regional geosiyasi arxitekturanın memarıdır. Nə Ermənistanın əli ilə, nə də etnik separatizm və iqtisadi təzyiqlə Azərbaycana təsir etmək artıq mümkün deyil.

Vətən müharibəsinin ildönümündə Prezident İlham Əliyev yenidən sübut etdi ki, Azərbaycan nəinki öz hava məkanını, həm də bütövlükdə, Cənubi Qafqazın təhlükəsizliyini təmin edən güclü dövlətdir. Bu, təyyarələri-

mizin xilası, qələbəmizin davamıdır.

Sağ olun.

**Sədrlik edən.** Zahid müəllim, sağ olun. Ancaq dünən görüş Düşənbədə olub, Aşqabadda deyil. Bu, bir. Düşünürəm, möhtərəm cənab Prezidentin dünənki görüşdə səsləndirdiyi fikirlər Azərbaycan xalqının fikirləri idi. Ən əsası o idi ki, cənab Prezident dünən üzünü cənab Putinə tutaraq bunu da dedi, düşünürəm, bizim ölkələrimizin cəmiyyətlərinə mesajlarımız da müsbət qəbul ediləcək. Bu, əsas fikir idi.

Səyyad müəllim, sualınız var, yoxsa? Çıxışdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Sual kimə olacaq? Buyurun, Sizi eşidirik.

**Səyyad Aran.** Mən bu lövhəyə düşə bilmirəm. Ən müxtəlif kombinasiyalardan istifadə edirəm. Görürsünüz, başqaları da deyir. Ya əlimin üstünə basıram, ya düyməni tez-tez basıram, ya da məqamı tutub basıram, düşə bilmirəm ki, bilmirəm.

**Sədrlik edən.** Səyyad müəllim, o kombinasiyalar nə kombinasiyalardır, xahiş edirəm, deyin. Özü də onu burada oturan hansı düşmən edir? Deyirsiniz ki, müxtəlif kombinasiyalardan istifadə edirlər və mən düşə bilmirəm.

**Səyyad Aran.** Müxtəlif kombinasiyalardan istifadə edirəm, düşə bilmirəm.

**Sədrlik edən.** Səyyad müəllim, burada nə kombinasiya var? Sadəcə, o düyməni basmaq lazımdır. Siz təsəvvür edin, burada 125 nəfər oturur, hər biri də danışmaq istəyir. İndi kimsə düşür, kimsə düşmür.

**Səyyad Aran.** Xanım sədr, arxadan deyirlər ki, çoxumuz düşə bilmirik.

**Sədrlik edən.** Bəli, Tənzilə xanım dedi. Eşidirəm.

**Səyyad Aran.** Başqaları da dedi. Mən deyirəm ki, ən müxtəlif kombinasiyalardan istifadə edirəm. Demirəm, kimsə kombinasiya düzəldir. Mən düşə bilmirəm. Bunun sirrini bilmək istəyirəm. Bir də ki, sözüm var, sözümü deyə bilmirəm. Məclis başlayandan bir sözüm var, onu deyə bilmirəm. Xahiş edirəm, imkan yaradın, mən sözümü deyim.

**Sədrlik edən.** Çox sağ olun. Səyyad müəllim, çox adam siyahıya düşmək istəyir. Ancaq təəssüf ki, hamı düşə bilmir. Əgər mən onların hamısına söz verə bilsəydim, – çox böyük məmnuniyyətlə istəyərdim, onda gərək iclası, – əslində, bu formatda olan çıxışlara sərbəst çıxışlar deyirlər, – ona həsr edək. Bu, sadəcə, ingilis dilindən tərcümədir.

Nəsə demək istəyirsiniz. Buyurun. Siz ağsaqqalsınız, mən Sizə söz verirəm. Ancaq 3 dəqiqə. Buyurun.

**Səyyad Aran.** Çox təşəkkür edirəm, xanım sədr. Əski sovet dövründə SSRİ-nin müxtəlif yerlərindən Moskvaya məktublar axışırdı. Sibir çöllərindən, Orta Asiyanın uzaq aullarından, Qafqazın ucqar dağ kəndlərindən, hətta ən ağla gəlməyən ünvanlara yazırdılar – Leninin qəbrinə, naməlum əsgərin məzarına və sair. Məqsəd aydın idi. Ərizəçinin məqsədi diqqət çəkmək idi. 30 gün vaxt ayrılırdı. Ölkə böyük, ərazi geniş, ərizələr çox, aydındır, başa düşdük.

Amma bu gün Azərbaycanda ərizə və şikayətlərə niyə 30 gün ərzində cavab verilməlidir? Biz ölkəmizdən ölkəmizə yazırıq. Bizim deputatların timsalında isə Bakıdan Bakıya yazırıq. Belə olan halda niyə 30 günə cavab verilməlidir? 10 gün olsun. Ya özümüz qərar qəbul edək, ya da hansısa uyğun normativ hüquqi aktlara bir bənd əlavə edək ki, Azərbaycanda ərizə və şikayətlərə 10 gün ərzində cavab verilsin. Nə qazanarıq? Operativlik, səmərəlilik, keyfiyyət, seçicinin və deputatın gözünün yoldan

yığılması, camaatın rahatlığı, hüzur və sair. Biz bunu niyə etməyək? Nə hacət 30 günə?

Özü də əndirəbadi cəhət nədir? Ayın 1-də məktub yazırsan, elə bil ki, qəsdən gözləyib ayın 30-da və yaxud 31-də cavab verirlər. Halbuki səbəb nədir? Torpaq mübahisəsi. Bunu 30 gün düşünmək, nə bilim, nələri isə araşdırmaq, bu, nəyə lazım? Buna konkret cavab verilsin ki, məqsəd nədir və şikayətçi də rahat olsun.

Biz hamımız seçicilərimizlə bol-bol görüşlərdən qayıtmışıq. Çünki böyük məzuniyyət, böyük fasilə oldu. Ona görə də onlardan çoxlu tələblər, istəklər, xahişlər eşitmişik. Mən yalnız birini dilə gətirirəm və dediyim kimi, bu da çox vacibdir. Camaat qalıb nigaran ki, mən bir aydan çoxdur məktub göndərmişəm, ay deputat, niyə cavab vermirsən? Qalıram belə, nə deyim, axırda məcbur olub deyirəm ki, mən cavab almamışam, ona görə sənə məktub göndərə bilmirəm. Xahiş edirəm, bu məsələyə çox ciddi şəkildə münasibət bildirəsiniz. Digər əlaqədar orqanlar da.

Sağ olun, xanım sədr.

**Sədrlik edən.** Sağ olun, Səyyad müəllim. Ancaq mənim borcumdur o məlumatı da Sizə çatdırım ki, əslində, iki həftə ərzində məktuba gərək cavab ola. Bu, bir. 30 gün isə, əgər əlavə hansı isə bir araşdırma lazımdırsa, 30 gün ona aiddir. Sizdən çox xahiş edirəm, Sizin hansı məktublarınıza cavab verilməyibsə, – Fərid müəllim, çox xahiş edirəm, Şakir müəllimin rəhbərlik etdiyi şöbə bu gün bu məsələ ilə xüsusi məşğul olsun, – bu gün mənə bütün bu məlumatı verin. Sizin neçə məktubunuza cavab verilməyib, hansı nazirlikdən Siz cavab ala bilməmisiniz. Xahiş edirəm, bununla bağlı məlumat verin. Mən bildiyimə görə, Siz bir dəfə komitə iclasında çıxış etmişdiniz. Mən dərhal

bu məsələ ilə məşğul oldum. Mənə deyilən o idi ki, belə məktublar yoxdur. Əgər ondan sonra Siz məktub yazmısınızsa və cavabınız gəlməyibsə, mütləq bu gün bu məsələ ilə mən məşğul olacağam. Ancaq Siz köməkçinizə deyin ki, düzgün məlumatlar verilsin. Yaxşı? Çünki bizdə bunlar hamısı var. Bunların hamısı bizim dəftərxanadan keçir, möhürlənib sonra göndərilir.

Çox sağ olun.

Dünən Ramil Həsən mənim yanıma gəlmişdi. Əslində, hörmətli Ramil müəllimin bu gün, belə deyək, VII çağırışda axırıncı iclasıdır. Çünki hörmətli həmkarlar, bilirsiniz ki, Ramil müəllim çox mühüm bir vəzifəyə seçilib. Ona görə biz onu bir daha təbrik edirik. Dünən məndən xahiş etdi ki, imkan olsa, söz verim. Ramil müəllim, buyurun, söz Sizindir.

**Ramil Həsən**. Sahibə xanım, çox təşəkkür edirəm, çox sağ olun.

Çox hörmətli Sahibə xanım, hörmətli millət vəkilləri, dəyərli həmkarlarım. Mənim üçün böyük şərəf, böyük bir qürur hissidir ki, artıq 5 ildən bir az çoxdur, bu şərəfli VI və VII çağırış Məclisdə sizlərlə birlikdə fəaliyyət göstərmişəm. Əlbəttə ki, cənab Prezidentimizin və hörmətli Sahibə xanım, Sizin böyük etimadınız nəticəsində Azərbaycanın namizədi olaraq Türk Dövlətləri Parlament Assambleyasında Baş katib kimi təqdim olunmuşam. Fürsətdən istifadə edərək, Sahibə xanım, iyunun 12-də namizədliyimin verilməsi ilə mənim dəstəklənməyim üçün göstərmiş olduğunuz hərtərəfli köməyə görə və hər zaman olduğu kimi, bu tarixi prosesdə də bizim yanımızda olduğunuz üçün Sizə bir daha şəxsən təşəkkür etmək istəyirəm.

Şübhəsiz ki, biz VI çağırış parlamentə başladığımızda

hələ zəfər qazanmamış bir parlamentin millət vəkilləri idik. Mən böyük bir qürur hissi keçirirəm ki, bu gün bilavasitə Ali Baş Komandanın liderliyində və qəhrəman Azərbaycan Ordusunun 44 günlük Zəfər mücadiləsi sayəsində artıq qalib gəlmiş parlamentin millət vəkili kimi sizin sıralarınızı, bizim sıralarımızı tərk edəcəyəm.

Əlbəttə ki, harada işləməyimizdən asılı olmayaraq hər birimiz qürur hissi ilə öz dövlətimizə, millətimizə və xüsusi ilə də dövlətimizin rəhbərinə sadiq olmalıyıq. Bu istiqamətdə cənab Prezidentin bilavasitə sizlərin və bizlərin iştirakı ilə ifadə etdiyi tarixi bir kəlamı var, "bizim bir ailəmiz var, o da türk dünyasıdır" və bu gün də mənim üçün böyük şərəf hissidir ki, mən o türk dünyasının ayrılmaz parçası olan Türk Dövlətləri Parlament Assambleyasında Baş Katib kimi fəaliyyətimi davam etdirəcəyəm.

Hörmətli Sahibə xanım, bir daha fürsətdən istifadə edərək Sizin rəhbərliyiniz altında 5 il ərzində fəaliyyət göstərdiyim üçün böyük məmnuniyyət duyduğumu və qürur hissi keçirdiyimi burada hər kəsin önündə paylaşmaq istəyirəm. Əlbəttə ki, böyük şərəf hissidir ki, 5 il ərzində Azərbaycan Milli Məclisi bilavasitə Sizin rəhbərliyiniz və dəyərli millət vəkillərimizin fəal iştirakı ilə yeni bir mərhələyə qədəm qoydu. Azərbaycanın dövlət başçısı, hörmətli cənab Prezident İlham Əliyevin, hörmətli Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanın həyata keçirmiş olduğu islahatların parlament tərəfindən uğurlu şəkildə davam etdirilib inkişaf etdirilməsi məhz Sizin rəhbərliyiniz altında bizim VI və VII çağırışın millət vəkillərinin töhfəsidir. Hörmətli Sahibə xanım, bu istiqamətdə hər birimizə uğurlar arzulamaq istəyirəm. Əmin olduğumu sizlərlə bir daha bölüşmək istəyirəm ki, buradan millət vəkili kimi getsəm də, bundan sonra da, –

belə desək, onsuz da Türk Dövlətləri Parlament Assambleyası Azərbaycanın da əsas qurucusu olduğu, bilavasitə ev sahibliyi etdiyi beynəlxalq təşkilat kimi fəaliyyət göstərir, – biz yenə də sizlərlə bərabər, Sizin rəhbərliyiniz altında fəaliyyətimizi davam etdirəcəyik. Mənə fürsət verdiyiniz, şərait yaratdığınız üçün çox təşəkkür etmək istəyirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Ramil müəllim. Biz Sizi bir daha təbrik edirik. Sizə uğurlar arzulayırıq və bilirsiniz, özünüz dediyiniz kimi, Azərbaycan parlamenti həmişə TÜRKPA ilə çox sıx əməkdaşlıq edir və bu əməkdaşlıq yenə də davam edəcək. Biz düşünürük ki, Siz dediyiniz kimi, bizim ailəmiz olan TÜRKPA çərçivəsində apardığınız iş türk dünyasına daha böyük töhfələr gətirəcək. Sizin minnətdarlıq sözlərinizin hamısı möhtərəm cənab Prezidentə çatır. Sağ olun.

Hörmətli həmkarlar, biz, nəhayət ki, gündəliyin məsələlərinə keçirik. İlk öncə mən hamıya təşəkkür edirəm. 30 dəqiqədə bizim 10 deputatımız çıxış etdi, bizim hörmətli Səyyad müəllim də çıxış etdi. Təkliflər verildi, çox sağ olun.

Fərid müəllim, mən istərdim ki, bizim bu gün buradakı çıxışlardan "Parlament saatı" proqramında mütləq səslənsin. Ona görə də xahiş edirəm, tapşırığınızı verin, deputatlar buradadır, müsahibələr alınsın.

Hörmətli həmkarlar, biz isə gündəliyimizə keçirik. Gündəliyimizdə bu gün 13 məsələ var və onu da qeyd edim ki, ilk 4 məsələ bir oxunuşda qəbul edilməli olan qanun layihələridir. Biz indi 1-ci məsələyə keçirik.

Bu, "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi" yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis

edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb və məsələyə dair məlumat vermək uçun komitənin sədri hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun.

**Əli Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar. Məlumdur ki, "Konstitusiya və Suverenlik İli" çərçivəsində Milli Məclisin də üzərinə bir sıra vəzifələr düşürdü və Milli Məclis öz üzərinə düşən vəzifələri şərəflə yerinə yetirir. Xüsusi iclas, beynəlxalq konfrans, komitələrdə ictimai müzakirələr, dinləmələr keçirilmişdir və cənab Prezidentin məlum sərəncamının bizə aid olan hissəsinin böyük bir hissəsi icra olunmaqdadır. Eyni zamanda, hörmətli sədr, sərəncamın 8-ci bəndi də birbaşa Milli Məclisə aiddir, bu, Konstitusiyanın 30 illiyi ilə bağlı yubiley medalının təsis olunması ilə bağlı tövsiyədir. Məhz bu məqsədlə bu layihə təqdim olunmuşdur.

Onu xüsusi vurğulamaq istəyirəm ki, Konstitusiyamızın əvvəllər 10 illik, 20 illik yubileyləri də ölkəmizdə çox mötəbər səviyyədə keçirilmişdir. Amma ilk dəfədir ki, Konstitusiyanın 30 illiyi ilə əlaqədar həm də yubiley medalı təsis olunur. Hesab edirəm ki, bu, həm də rəmzi məna daşıyır. Çünki xalqın Konstitusiyamızın preambulasında bəyan olunmuş ən vacib niyyəti – ərazi bütövlüyünü və suverenliyi qorumaq, onu təmin etmək kimi niyyəti məhz indi, 30 illik yubiley ərəfəsində təmin edilmişdir. Bu, çox qürurverici bir hadisədir və buna görə də yubiley medalının təsis olunması təqdirəlayiq haldır.

Yubiley medalı bizim digər orden və medallarda formalaşmış ənənələrə tam uyğundur. Təltif edilən şəxslərin

dairəsi 1-ci maddədə göstərilmişdir, əlbəttə ki, Konstitusiyanın hazırlanmasında, təkmilləşdirilməsində, təbliğində iştirak etmiş şəxslər, o cümlədən dövlət müstəqilliyinin möhkəmləndirilməsində, dövlət qarşısında xüsusi xidməti olmuş şəxslər nəzərdə tutulur. Medalın təsviri də ənənəvi olaraq Azərbaycanın dövlət atributlarının, həm gerbin, həm də bayrağın təsvirlərini özündə ehtiva edir. Bu baxımdan, hesab edirəm ki, Milli Məclis belə bir yubiley medalını təsis etməklə "Konstitusiya və Suverenlik İli"nə öz növbəti töhfəsini vermiş olacaqdır.

Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, təklif var, səsə qoyulsun. Ancaq 3 nəfər yazılıb. Bu il "Konstitusiya və Suverenlik İli"dir. Gəlin həmkarlarımıza imkan verək, öz fikirlərini bölüşsünlər. Ancaq mən təklif edirəm, 5 dəqiqəyə qədər. Şərt o deyil ki, 5 dəqiqə danışsınlar, 5 dəqiqəyə qədər.

Sahib Alıyev. Buyurun.

**Sahib Alıyev.** Hörmətli xanım sədr, dəyərli həmkarlar. Hörmətli Əli müəllim qeyd etdi, doğrudan da, mən də Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi yubiley medalının məhz "Konstitusiya və Suverenlik İli"ndə təsisini çox mühüm bir hadisə kimi qiymətləndirirəm və burada bir rəmzilik görürəm. O rəmzilik də ondan ibarətdir ki, Konstitusiya bizim üçün, doğrudan da, müqəddəsdir. Bu Konstitusiyanın müqəddəsliyini İkinci Qarabağ savaşı və ardından baş verənlər, özəlliklə də 2023-cü ilin 19-20 sentyabrındakı lokal əməliyyat zamanı görmüşük; neçə-neçə imperiya qurmuş babalarımızın uzun əsrlər böyük dəqiqliklə əməl etdikləri, belə demək mümkünsə, "candan keçilər, törədən keçilməz" idarəçilik namusunun hələ saxlanıldığını da biz artıq görmüşük.

2020–2023-cü illər arasında baş verənlər göstərdi ki, bu dünyada öz Konstitusiyasına, özəlliklə də onun iki ən önəmli və o üzdən ən başda gələn maddəsinə dəqiqliklə əməl edən, daha dəqiqi, bunu bacaran, barmaqla sayılacaq qədər az dövlətdən biri də Azərbaycandır. Məhz Azərbaycan Prezidenti cənab İlham Əliyev bir çox hallarda böyük risklərə də getməklə, yüksək cəsarət tələb edən addımlarla göstərdi ki, Konstitusiyamızın 1-ci maddəsindəki "hakimiyyətin mənbəyi xalqdır" ifadəsi, sadəcə, gəlişigözəl söz deyildir; onun inauqurasiya törənində Konstitusiyaya əl basılıb and içilməsi heç də formal xarakter daşımır. O, böyük maneələri dəf edərək ancaq və ancaq milli maraqlardan çıxış etməklə hakimiyyətin mənbəyinin, həqiqətən də, bu xalq olduğunu dəfələrlə təsdiqləyib. Eləcə də bizim Konstitusiyamızın 2-ci maddəsində suverenliklə bağlı yazılanlara indiki dönəmdə nə qədər çətin olsa da, əksər dövlətlərdə bu, sadəcə, kağız üzərində qalsa da, necə dəqiqliklə, prinsipiallıqla əməl edildiyini də görmüşük və görməkdəyik.

Yeri gəlmişkən, onu deyim ki, az öncə çıxış edənlər də bu məsələni vurğuladılar. Düşənbədə Azərbaycan və Rusiya prezidentlərinin görüşü də məhz bu siyasətin nəticəsi idi. Biz heç bir dövlətlə körpüləri yandırmaq istəmirik. Amma Kopenhagendə Makronla, indi isə Putinlə görüş göstərdi ki, cənab İlham Əliyev böyük və kiçikliyindən asılı olmayaraq, hər hansı bir dövlətin qarşısında tələb irəli sürürsə, Ermənistana yanaşmada olduğu kimi, öz mövqeyindən bir millimetr belə geri çəkilmir. Çünki o tələb həmişə beynəlxalq hüquqa, ədalətə, indiki halda həm də dövlətimizin yaratdığı geosiyasi reallığa və təbii ki, dəmir iradəyə dayanır. Yeri gəlmişkən, üzə vurulmasa da, Rusiya səmasından sərnişin təyyarəmizə

necə raket zərbəsi endirildiyi barədə dövlət başçımızın qarşı tərəfdən daha məlumatlı olduğu da açıq-aydın görünürdü. Onu da qeyd etməliyəm ki, bu baş verənləri mən həm də qələbə zirvəsi kimi qiymətləndirdiyim Qəbələ Zirvəsinin nəticəsi sayıram. Zirvənin keçirildiyi gün, yer o dərəcədə dəqiqliklə seçilmişdi ki, dövlət başçımızın nəyi, necə, nə vaxt etməklə yanaşı, onu harada etməyi də dəqiq bildiyini görməmək mümkünsüz idi. Detallara varmaq istəmirəm. Amma ən azından burada əyləşən hər kəsə aydındır ki, iyunun 6-da Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvəsinin Şuşada keçirilməsi kimi, rəsmi Zirvəsinin Qəbələdə baş tutması da, orada dövlət başçımızın gələn il Azərbaycanda birgə hərbi təlim haqda təklifi də səbəbsiz deyildi. Bu haqda çıxışım var, cari məsələlərlə bağlı onu stenoqrama təqdim edəcəyəm. Vaxtınızı almaq istəmirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Hikmət Məmmədov. Buyurun.

**Hikmət Məmmədov**. Hörmətli xanım sədr, bu gün yubiley medalını təsis etdiyimiz Konstitusiyamız 30 il bundan əvvəl yaradılıbdır. Ulu Öndər Heydər Əliyevin şah əsəridir və Azərbaycan dövlətinin ilk milli Konstitusiyasıdır. Çünki 1995-ci ilə qədər biz hələ də əsas hüquqi prinsiplərə istinad edərkən sovet Azərbaycanının Konstitusiyasını əsas götürürdük. Ona görə mən düşünürəm ki, belə bir əlahiddə hadisənin yubileyinin qeyd olunması həm dövlətçilik tarixi, həm də hüquq tarixi baxımından çox aktualdır.

Məhz bu Konstitusiya Azərbaycan cəmiyyətində demokratiyanın əsaslarını yaratdı, insan hüquqlarının qorunmasının əsaslarını yaratdı, suveren hüquqlarımızın qorun-

ması üçün, ərazi bütövlüyümüzün bərpa olunması üçün əsaslar yaratdı. Mən xatırlayıram, 1995-ci ildə Konstitusiyanın mətni ictimai müzakirələrə təqdim olundu. 3 ay müzakirələr aparıldı və mən də 11 təklif yazmışdım, onlardan üçü də o dövrdə bu Konstitusiyanın mətnində öz əksini tapdı.

İndi qısaca bir təklifim də var: Hörmətli Sahibə xanım, təsvir mənim gözümün qabağındadır. Biz Azərbaycanda tarixi Zəfərimiz üçün "Zəfər tağı" abidəsini ucaltdıq. Bu, Azərbaycanın qələbəsinin rəmzidir – bir, ərazi bütövlüyümüzün rəmzidir – iki, suveren hüquqlarımızın bərpa olunmasının rəmzidir – üç... Mənə elə gəlir, yerində olar ki, "Zəfər tağı"nın rəsmi məhz Konstitusiyanın iki əsas prinsipini də özündə ehtiva etdiyinə görə, bu təsvirdə əksini tapsın.

Diqqətinizə görə sağ olun. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Aydın Mirzəzadə. Buyurun.

**Aydın Mirzəzadə**. Təşəkkür edirəm, xanım sədr. İlk növbədə Sizə Cənubi Afrikadakı beynəlxalq tədbirdə uğurlu çıxışınız münasibəti ilə təşəkkür edirəm. Sizin və eyni zamanda, deputat həmkarlarımızın beynəlxalq tədbirlərdə iştirakı, sadəcə olaraq, Azərbaycanın təmsil edilməsi, bayrağımızın orada görünməsi deyil, eyni zamanda, Azərbaycanın mövqeyinin, Azərbaycanın uğurlarının, Azərbaycanın dünya problemlərinə baxışının beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasıdır.

Yubiley medalının təsis edilməsinə müsbət baxıram. Hesab edirəm ki, bu, doğrudan da, Azərbaycanın Konstitusiyasının tarixin sınağından keçməsinin növbəti bir işarəsidir. Konstitusiyamızın arxitektoru, baş memarı, ilhamvericisi və bütün incəlikləri nəzərə alan Ulu Öndər

Heydər Əliyev olubdur. Onun Azərbaycanın gələcək strateji inkişaf xəttini 30 il bundan əvvəl dəqiqliklə görməsi və həmin prioritetlərin müəyyənləşdirilməsi Azərbaycanın inkişafını müəyyənləşdirdi. Doğrudan da, Konstitusiyamız tarixin sınağından keçdi. Konstitusiyamıza əlavələr edildi. Amma Konstitusiyamızın özü dəyişmədi, mahiyyəti dəyişmədi. Tarix göstərdi ki, Ulu Öndərin Azərbaycanın hüquqi, demokratik dövlət kimi inkişafına baxışları həmin dövrün sınaqlarından çıxdı və Azərbaycanı inkişaf elətdirdi. Bu 30 ildə Azərbaycan üçün Konstitusiya, sadəcə, bir hüquqi sənəd olmadı. Bu, bizim fəaliyyət proqramımız oldu və Konstitusiyada elan edilən bütün bəndlər real həyatımızda öz əksini tapdı, dövlətimiz möhkəmləndirildi. Vətəndaşlarımızın hüquq və azadlıqları qorundu. Azərbaycanda bazar iqtisadiyyatı əsasında iqtisadiyyatımız yenidən quruldu, dünya birliyində nüfuzlu yerimizi tutduq. Məhz Konstitusiyamızda göstərilən prinsiplərlə, cənab Prezidentimizin rəhbərliyi ilə torpaqlarımız işğaldan azad edildi. Bu gün Azərbaycan dünya birliyində sözükeçən, böyük nüfuza malik və mövqeyi gözlənilən bir dövlətdir. Dünən Tacikistanın paytaxtı Düşənbə şəhərində Rusiya Prezidenti ilə görüşdə Rusiya Prezidentinin Azərbaycanla münasibətləri diqqətdə saxlayaraq öz mövqeyini bildirməsi göstərdi ki, Azərbaycanın suveren hüquqlarına hörmət göstərilir. Azərbaycan həmin hadisədə düzgün mövqe tutmuşdu.

Biz bir daha Konstitusiyamızın bu günümüz, sabahımız üçün necə böyük əhəmiyyət daşıdığının fərqindəyik. Bununla belə, qərar layihəsinə kiçik bir dəyişikliyin edilməsini təklif edərdim. Orada təltif edilən şəxslər siyahısına təklif edərdim ki, Konstitusiya hüququ üzrə xarici ölkə mütəxəssisləri əlavə olunsun. İş burasındadır

ki, yubiley medalı ilə, ola bilsin, gələcəkdə Azərbaycanda səfərdə olan xarici ölkənin Konstitusiya sahəsi üzrə hüquqşünasları da təltif edilə bilər. Düzdür, orada bir bənd var ki, Azərbaycan dövləti qarşısında xüsusi xidmətləri olan şəxslər. Biz niyə kimi isə, xarici ölkə vətəndaşını Azərbaycan dövləti qarşısında xüsusi xidməti olan şəxs kimi qiymətləndirək? Xarici ölkənin tanınmış hüquqşünaslarının Azərbaycanın Konstitusiyası ilə bağlı yubiley medalı ilə təltif edilməsi, hesab edirəm ki, eyni zamanda, Azərbaycanın hüquq fəlsəfəsinin bir təcəssümü kimi xarici ölkə vətəndaşlarının da təltiflərində özünü göstərə bilərdi.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Əli müəllim, bununla bağlı sözünüz var? Buyurun, təkliflər var idi.

**Əli Hüseynli.** Çox sağ olun, hörmətli Sahibə xanım. Mən hörmətli Hikmət müəllimin təklifi ilə bağlı deyə bilərəm ki, əlbəttə, bu, hərbi yubiley medalı deyil. Yəni "Zəfər tağı"nın əksi bizim digər orden və medallarımızda var, xüsusən də "Zəfər" ordenində və digərlərində.

Aydın müəllim elə öz sualını, məncə, özü də cavablandırdı. Çünki, həqiqətən də, son ifadə – "Azərbaycan dövləti qarşısında xüsusi xidmətləri" həm də xarici vətəndaşları ehtiva edir. Yəni xidməti olarsa, onda Konstitusiya yubiley medalı ilə təltif oluna bilər. Təbii ki, daha çox konstitusionistlər, hüquqşünaslar, Azərbaycanla bu sahədə əməkdaşlıq etmiş xarici ölkə vətəndaşları da ola biləcək.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim.

Ziyafət müəllim söz istəyir. Buyurun, hörmətli Ziyafət Əsgərov.

**Ziyafət Əsgərov.** Çox sağ olun, hörmətli xanım sədr. Sadəcə, Əli müəllimin sözünə qüvvət, Aydın müəllim,

demək istəyirəm ki, əgər Siz fikir vermisinizsə, maddə 1-də təltif olunan şəxslərdən söhbət gedir, vətəndaşlardan deyil. Yəni burada qeyri-Azərbaycan vətəndaşlarına da şamil olunur.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Mən çıxış edənlərin hamısına öz minnətdarlığımı bildirirəm. Hörmətli həmkarlar, məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Hörmətli həmkarlar, 2-ci məsələyə keçirik. Bu məsələ "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 113-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Ailə, qadın və uşaq məsələləri komitəsində baxılıb. İndi isə mən komitənin sədri hörmətli Hicran xanım Hüseynovadan xahiş edəcəm ki, məlumat versin. Hicran xanım, buyurun.

**Hicran Hüseynova,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Çox sağ olun, xanım sədr. Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Azərbaycanda uşaq hüquqlarının müdafiəsi ilə bağlı qanunvericilik bazası mövcuddur. Onların maraq və mənafelərinin daha sistemli qorunması üçün ardıcıl, sistemli iş aparılır.

Məlum olduğu kimi, 2024-cü ilin payız sessiyasında "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa əlavə və dəyişikliklər olundu. Belə ki, sözügedən qanuna əsasən yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların adı dəyişdirilərək uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar kimi müəyyən edildi. Həmçinin komissiyaların səlahiyyətlərində müvafiq dəyişikliklər olundu.

Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq, himayədar ailəyə verilmiş uşaqlar yerləşdirilənədək, – valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar istisna olmaqla, – digər hallarda uşaqlar üzərində qəyyumluq və himayəçilik orqanının funksiyaları komissiyalara həvalə edildi. Bu dəyişikliklər uşaq hüquqlarının müdafiəsi ilə bağlı əlaqələndirmə mexanizminin gücləndirilməsi baxımından çox əhəmiyyətlidir.

Bu gün təqdim edilən layihə həmin qanunun icrasını təmin etmək məqsədi ilə hazırlanmışdır. Bundan irəli gələrək qeyd olunan məcəllə və qanunlarda uyğunlaşdırma və dəqiqləşdirmə xarakterli əlavə və dəyişikliklər təklif olunur.

Qanun layihəsi komitə iclasında müzakirə olunmuş və

baxılması üçün Milli Məclisin müzakirəsinə tövsiyə edilmişdir. Məlumatı nəzərə almağınızı xahiş edirəm.

Çox sağ olun.

**Sədrlik edən.** Hicran xanım, çox sağ olun.

Hörmətli həmkarlar, qanun layihəsinə 2 komitədə də baxılmışdır. Birinci komitə, Əli müəllim, sizin komitənizdir – Hüquq siyasəti və dövlət quruculuğu komitəsidir. Xahiş edirəm, komitənin rəyini bildirin.

**Əli Hüseynli.** Hörmətli sədr, bu dəyişiklik mahiyyəti üzrə uyğunlaşdırma xarakterlidir. Hörmətli həmkarım geniş məlumat verdi. Profilimizə uyğun olaraq, Mülki Məcəllədə edilən düzəlişə komitəmizin rəyi müsbətdir.

**Sədrlik edən.** Sağ olun.

Səhiyyə komitəsində də baxılıb. Mən hörmətli Əhliman müəllimdən xahiş edəcəyəm, komitənin rəyini bildirsin. Buyurun, Əhliman müəllim.

**Əhliman Əmiraslanov,** *Milli Məclisin Səhiyyə komitəsinin sədri.*

Hörmətli Sahibə xanım, hörmətli həmkarlar. Səhiyyə komitəsi də qanun layihəsini dəstəkləyir. Səsə qoymağınızı xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Yazılan var. Günay Ağamalı. Günay xanım, buyurun.

**Günay Ağamalı.** Hörmətli xanım sədr, hörmətli həmkarlar və media mənsubları. Dövlətimiz uşaq hüquqlarının müdafiəsinə hər zaman xüsusi diqqət yetirməkdədir. Bu gün müzakirəyə çıxarılan qanun layihəsi bu baxımdan atılan mühüm addımlardandır.

Dəyişikliyin əsas mahiyyəti yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların adının dəyişdirilərək "Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar" adlandırılmasıdır. Başqa sözlə desək, bu

dəyişiklik uşaqların hüquqlarının qorunması sahəsində daha praktik və məqsədyönlü mexanizmin tətbiqinə xidmət edir.

Digər tərəfdən, layihədə komissiyaların səlahiyyətinə də dəyişiklik nəzərdə tutulur. Sözsüz ki, bu cür dəyişiklik uşaqların hüquqlarının müdafiəsində operativliyi artıracaq, daha effektiv mexanizmlərin tətbiqinə imkan yaradacaqdır.

Uşaqların sağlam böyüməsi, onların təhlükəsizliyinin təmin olunması və gələcəkdə vətənimizə layiq vətəndaş kimi formalaşması dövlət siyasətimizin əsas prioritetlərindən biridir. Bu baxımdan təqdim edilən qanun layihəsi olduqca aktualdır və zəruridir. Uşaqlarımızın hüquqlarının qorunmasına xidmət edən qanun layihəsini dəstəkləyirəm və ona səs verəcəyəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.07 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Növbəti məsələ "Nağdsız hesablaşmalar haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitə-

sində baxılmışdır. Mən sözü komitənin sədri hörmətli Azər Əmiraslanova verirəm. Azər müəllim, buyurun, məlumat verin.

**Azər Əmiraslanov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Müzakirəyə təqdim olunan qanun layihəsi mülki müqavilələr əsasında kənd təsərrüfatı məhsullarının istehsalı ilə bağlı mövsümi işlərə cəlb edilən fiziki şəxslərin əməyinin ödənilməsi mexanizmini tənzimləyir.

Məlum olduğu kimi, "Nağdsız hesablaşmalar haqqında" Qanun nağdsız ödənişlərin tətbiqi ilə bağlı reqlamenti müəyyən edir. Eyni zamanda, burada kənd təsərrüfatı istehsalının spesifikliyi nəzərə alınaraq, məhdud həcmdə nağd ödənişlərə hüquqi imkan tanınır və qanunun ümumi strukturu çərçivəsində istisna xarakterli norma təsbit olunur.

Hesab edirik ki, bu istisna nağdsız ödənişlərin təşviqi konsepsiyasına və prinsipinə xələl gətirmir. Sadəcə olaraq, "Nağdsız hesablaşmalar haqqında" Qanunun tətbiqi sahəsi bir daha dəqiqləşdirilir.

Mövcud qanunvericiliyə görə mövsümi işlərə cəlb edilən fiziki şəxslərə nağd qaydada ödənilə bilən gündəlik məbləğin yuxarı həddi 20 manat müəyyən olunmuşdur. "Nağdsız hesablaşmalar haqqında" Qanunda təklif olunan dəyişiklik isə bu məbləğin 30 manata çatdırılmasını nəzərdə tutur. Belə bir dəyişikliyi bir neçə mühüm amil şərtləndirir.

Birinci amil kənd təsərrüfatının mövsümi xarakteri ilə izah olunur. Belə ki, məhsul yığımı və istehsalı müəyyən dövrlərdə işçi qüvvəsinə təcili tələbat yaradır. Bu halda işçilərə çevik ödəniş mexanizminin yaradılması mövsümi

işlərin operativ təşkilinə imkan verə bilər.

İkincisi mülki-hüquqi müqavilələrin xarakteri ilə bağlıdır. Belə ki, bu zaman görülən işlər rəsmi əmək müqavilələri ilə deyil, daha çox mövsümi və qısamüddətli əsaslarla həyata keçirilir. Buna görə də işçilərin elə yerindəcə birbaşa ödəniş ala bilməsi praktiki baxımdan vacib hesab edilir.

Üçüncüsü istehsalçının və işçinin maraqlarının qorunmasıdır. Nağd ödənişin yuxarı həddinin artırılması kənd təsərrüfatı məhsulu istehsalçıları ilə mövsümi işçilər arasında münasibətlərin daha çevik qurulmasına imkan yaradır.

Dördüncü amil inflyasiya və alıcılıq qabiliyyətinin, əmək münasibətlərində real bazar şərtlərinin nəzərə alınmasıdır. Mövcud 20 manatlıq hədd hazırkı iqtisadi reallıqlara uyğun deyil. Onun 30 manata qaldırılması kənd təsərrüfatı işçilərinin sosial maraqlarını nəzərə alır.

Hörmətli həmkarlar, müzakirəyə təqdim olunan qanun layihəsi ödənişlər üzrə intizamın gücləndirilməsi, kənd təsərrüfatında mövsümi əmək münasibətlərinin real və praktik tənzimlənməsi, aqrar istehsalçılar üçün inzibati maneələrin aradan qaldırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Qeyd edilənləri nəzərə alaraq, qanun layihəsinin bir oxunuşda qəbul edilməsini məqsədəuyğun hesab edirik.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Azər müəllim.

Mən görürəm ki, çıxışa heç kim yazılmayıb. Ona görə də qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Növbəti məsələ, gündəliyimizin 4-cü məsələsi "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Regional məsələlər komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Siyavuş müəllim Novruzova söz verirəm. Siyavuş müəllim, buyurun.

**Siyavuş Novruzov,** *Milli Məclisin Regional məsələlər komitəsinin sədri.*

Təşəkkür edirəm, hörmətli xanım sədr. İlk öncə mən də Sizi uğurlu səfər münasibəti ilə təbrik edirəm, uğurlar diləyirəm.

Təqdim olunan qanun layihəsi "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Qanunda dəyişiklikdir. Qanunda dəyişiklik kiçik xarakter daşıyır. Amma mahiyyət baxımından çox böyük dəyişiklikdir. Bu, Azərbaycanın dövlət dilinin qorunmasına xidmət göstərən bir dəyişiklikdir.

Qanunun 9.8-ci bəndində göstərilir ki, "prospekt, küçə, meydan və müvafiq ərazi vahidinin digər tərkib hissələrinə ad verilməsi və onların adlarının dəyişdirilməsi həmin ərazinin əhalisinin rəyi", yəni əhalinin rəyi ilə yanaşı, "dövlət dilinin normaları nəzərə alınmaqla, mü-

vafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir". Yəni bizim ora əlavə etdiyimiz dövlət dili normalarının qorunmasıdır. O adların verilməsində dövlət dilinin normaları qorunmalıdır.

Bilirsiniz ki, dil haqqında qanunumuz var. Bu qanunda normalar hamısı göstərilibdir. Hesab edirik ki, bu qanunda dəyişiklik edilməsi dövlət dilimizin qorunmasına yeni bir xidmət olacaqdır.

Fürsətdən istifadə edib özəl sektora da tövsiyə edərdik ki, onlar da öz müəssisələrində, təşkilatlarında, iaşə obyektlərində, digər müəssisələrində hər hansı adların verilməsində ilk növbədə dövlət dilinin normalarının qorunmasına riayət etsinlər.

Bu gün Azərbaycan cəlbedici ölkədir, turizm inkişaf edir və çoxlu sayda turistlər gəlir. Bəzi hallarda rast gəlirsən ki, yazıların bir çoxu Azərbaycan dilində yazılmır, indi ərəb turistlərinin çoxluğundan istifadə edib ərəb dilində, yaxud ingilis dilində, başqa-başqa dillərdə yazılır. Amma qanunumuz onu tələb edir ki, ilk növbədə Azərbaycan dilində olmalıdır və Azərbaycanın dövlət dilinin normalarına uyğun olmalıdır. Deputat həmkarlarımdan xahiş edirəm, qanun layihəsinə səs versinlər.

Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Siyavuş müəllim. Tamamilə düz deyirsiniz. Mənim yadımdadır ki, bir neçə dəfə bizim hörmətli həmkarlar, Sabir müəllim və başqaları bu məsələ ilə bağlı danışırdı və bir sıra həmkarlarımız da həmişə bu diskussiyalara qatılırdı.

Məlahət xanım yazılıb. Məlahət İbrahimqızı. Buyurun, Məlahət xanım.

**Məlahət İbrahimqızı.** Çox sağ olun, hörmətli xanım sədr. Mən də bu mütərəqqi dəyişikliyi dəstəkləyirəm.

Sözsüz ki, bu gün Azərbaycan ictimaiyyətində də, sosial şəbəkələrdə də “Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında” Azərbaycan Respublikasının Qanununda edilən dəyişiklik çox diqqətlə izlənir və parlamentin bu dəyişikliklə bağlı müzakirəsini təqdirəlayiq hesab edirlər. Çünki oktyabr ayının hər günü, hər anı bizim Zəfər salnaməmizdir.

Biz 5 il bundan qabaq, sentyabrın 27-də haqq və ədalət uğrunda başladığımız müharibənin hər saniyəsini bu aylarda yaşayırıq. Eyni zamanda, elə gün olmur ki, mən və hörmətli həmkarlarım şəhid tədbirlərində, şəhidlərimizin anım günlərində iştirak etməyək. Onlar da bu dəyişikdən çox şey gözləyirlər. Çünki möhtərəm Prezidentimiz elə bir mötəbər tədbir yoxdur ki, orada şəhidlərimizin əziz xatirəsini anmasın. Elə bu günlərdə Türk Dövlətləri Təşkilatının Zirvə Sammitində onun o yüksək səviyyəli parlaq çıxışında “biz heç vaxt işğalı unutmayacağıq və əziz şəhidlərimizin xatirəsi hər zaman qəlbimizdə yaşayacaq” fikirlərini qeyd edə bilərik. Hesab edirəm ki, bu qanun da elə o ruhu tutur.

Mən nə demək istəyərdim? Bu qanunla bağlı bəzi materiallar hazırlayanda gördüm ki, Bakı şəhəri vahid inzibati ərazi bölgüsü sayılır. Tanınmış dövlət, ictimai-siyasi xadimlər, yaxud ayrı-ayrı sahələrdə tanınmış insanlar var, heç bir meyar, parametr gözlənilmədən onların adı Bakıda 4 küçəyə verilib. Məsələn, Ruhulla Axundovun adı 4 yerə verilibdir. Yaxud Dadaş Bünyadzadənin adı Bakının ayrı-ayrı rayonlarında – Yasamal, Xəzər, Nəsimi rayonlarında, digər bölgələrdə küçələrə verilib. “Rezervuar” adlı küçələr var. Bu gün o küçələrin adları qanuni olaraq qəbul olunur.

Düzdür, bunların hər biri ölkəmizin, xalqımızın,

dövlətimizin tarixində böyük xidmətləri olan şəxsiyyətlərdir. Amma istisna hal ola bilər. Dahi şəxsiyyət, çağdaş dövlətimizin qurucusu Heydər Əliyevin adına Bakıda bir prospekt var. Hər birimizin Mikayıl Müşfiqə böyük sevgisi, hörməti var, onun adı Bakı ərazisində, Bakının müxtəlif rayonlarında 5 dəfə əbədiləşdirilibdir. Yəni hesab edirəm ki, bu qanun layihəsində dəyişikliklər bir növ bu sistemsizliyi də aradan götürəcəkdir.

Son olaraq onu demək istərdim ki, məndən öncə həmkarlarımız 30 dəqiqəlikdə və sonrakı məsələlərdə də Birinci Türkoloji Qurultayın 100 illiyi ilə bağlı fikirlərini səsləndirdilər. Möhtərəm Prezidentimiz Qəbələdə çıxış edərkən bununla bağlı dedi ki, Türkoloji Qurultay bizim tarixi bağlılığımızın dərinliyindən irəli gələn bir hadisədir. Yəni Xakasiyadan, Başqırdıstandan, ümumən Sibirdən, Qaqauziyadan, Krımdan 130-dan çox nümayəndənin iştirak etdiyi qurultaydan danışırıq. Hər biri o dövrün ən parlaq ziyalıları idi, onlar sovet rejiminin, Stalin rejiminin repressiyasına məruz qaldılar, necə deyərlər, məhv oldular.

Mən möhtərəm Prezidentimizin Qəbələ Bəyannaməsində yer alan təklifi ilə, inşallah, gələn il Türk Dövlətləri Təşkilatının sammiti çərçivəsində keçiriləcək qurultayın 100 illiyi ərəfəsində müvafiq qurumlardan və hörmətli Sahibə xanım, Sizin də nüfuzunuza istinad edərək, – Birinci Türkoloji Qurultay 10 gün ərzində İsmailliyə binasında keçirilibdir, – o binaya, heç olmasa, onların barelyefinin vurulmasını xahiş edərdim.

Çox sağ olun, təşəkkür edirəm. Qanun layihəsinə səs verəcəyəm.

**Sədrlik edən.** Məlahət xanım, çox sağ olun. Biz elə əmin idik ki, səs verəcəksiniz. Ancaq yaxşı bir presedent yaratmadınız. Çünki 30 dəqiqəlikdə danışa bilməyənlərin

hamısı indi danışmaq istəyəcək. Sizə icazə verdim, xahiş edirəm, bundan sonra heç kim başqa məsələlərdən danışmasın.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.38 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələlərə keçirik. Qeyd edim ki, gündəliyin növbəti 7 məsələsi birinci oxunuşda olan qanun layihələridir. Həmişə olduğu kimi, yenə mən hamıya xatırladıram, birinci oxunuşun öz tələbləri var. Xahiş edirəm, çıxışlarınızı o tələblərə uyğun qurun.

5-ci məsələ Dövlət xidmətləri haqqında qanun layihəsidir. Qeyd edim ki, məsələ ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri hörmətli Ülvi Mehdiyev iclasımızda iştirak edir. Ülvi müəllim, bir daha xoş gəlmisiniz.

Hörmətli həmkarlar, qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Kamal Cəfərova söz verirəm. Kamal müəllim, buyurun.

**Kamal Cəfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli xanım sədr. Qanun layihəsi "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın icrası çərçivəsində hazırlanaraq təqdim edilmişdir.

Bu qanun layihəsi Azərbaycan dövlətinin öz vətəndaşı ilə münasibətlərinin fəlsəfəsini yeniləyən, idarəçiliyi modernləşdirən və dövlət xidmətləri sahəsində yeni keyfiyyət standartı yaradan "ASAN xidmət" modeli əsasında hazırlanmışdır. Layihənin əsas məqsədi də məhz bu meyarlar əsasında göstərilən xidmətləri tənzimləyən normativ və qeyri-normativ hüquqi aktları vahid normativ hüquqi akt çərçivəsində tənzimləməkdir.

Layihənin mərkəzində xidmət istifadəçisi, yəni vətəndaş dayanır. Qanun dövlət xidmətlərinin istifadəçi yönümlü təşkili, operativ və ünvanlı göstərilməsi prinsipini bəyan edir. Ən əsası isə innovativ üsulların, həllərin və rəqəmsal texnologiyaların tətbiqinə üstünlük verilməsi prinsipini bildirir.

Xidmətlər həm fiziki, həm də elektron formada göstərilə bilər. Fiziki xidmətlər xidmət təminatçılarının inzibati binalarında, vahid xidmət mərkəzlərində səyyar formada və ya çağrı mərkəzləri vasitəsi ilə həyata keçiriləcək.

Elektron xidmətlərlə bağlı bürokratiyanın qarşısını alacaq çox prinsipial bir norma var. Layihənin 5.3-cü maddəsi birbaşa tələb edir ki, əgər dövlət xidmətinin göstərilməsi üçün lazım olan sənəd və ya məlumat Elektron Hökumət İnformasiya Sistemi vasitəsi ilə başqa bir qurumdan əldə edilə bilərsə, həmin sənədlər xidmət istifadəçisindən, yəni vətəndaşdan tələb edilməyəcək. Dövlət

qurumları öz məlumat bazaları arasında özü danışmalı, vətəndaşa isə yalnız nəticəsini təqdim etməlidir.

Bu qanun layihəsində qeyd etdiyim normadan da daha üstün və innovativ olan proaktiv xidmət anlayışı qanunla vətəndaşlara təqdim ediləcək. Bu bizim keçid etdiyimiz idarəçiliyin keyfiyyətcə yeni mərhələsidir və bu o deməkdir ki, artıq dövlət vətəndaşın müraciət etməsini, sənəd toplamasını gözləməyəcək. Dövlət özü öz informasiya ehtiyatları əsasında vətəndaşın yaranmış hüququnu, məsələn, pensiya hüququnu müəyyən edəcək, xidməti onun müraciəti olmadan təşkil edəcək və vətəndaşa, sadəcə, elektron qaydada razılığını bildirmək qalacaq. Bu, vətəndaş üçün dövlət modelinin ən bariz nümunəsidir.

Layihənin gətirdiyi digər yeniliklərdən biri də Dövlət Xidmətlərinin Elektron Reyestridir. Bu, dövlət xidmətləri haqqında məlumatların vahid mənbədə toplanmasını və sistemləşdirilməsini təmin edəcək, ən əsası isə təkrarlığı aradan qaldıracaq. Mühüm məqam odur ki, dövlət xidmətinin göstərilməsinə yalnız həmin xidmət üzrə məlumatların o platformaya daxil edilməsindən sonra yol veriləcək. Bu isə reqlamenti və hüquqi əsası olmayan xidmətlərin göstərilməsinin qarşısını birdəfəlik alacaq.

Nəhayət, layihə dövlət xidmətlərinin qiymətləndirilməsi və keyfiyyətinə nəzarət mexanizmlərini müəyyən edir. Bütün dövlət xidmətləri "ASAN xidmət" mərkəzlərində göstərilə bilməz. Ancaq bütün dövlət xidmətlərinin göstərilməsi "ASAN xidmət"də göstərilən xidmətlərin meyarları üzrə "ASAN xidmət" indeksi ilə qiymətləndiriləcək və qiymətləndirmənin nəticələri hər il ictimaiyyətə açıqlanacaq. Məqsəd xidmətlərin səmərəliliyini və keyfiyyətini yüksəltmək, şəffaflığı təmin etmək və elektronlaşdırma imkanlarını artırmaqdır.

Əziz həmkarlar, bu qanun layihəsi müasir, çevik, rəqəmsal və vətəndaşına xidmət edən dövlət quruculuğu strategiyasının məntiqi davamıdır. Bu, “ASAN xidmət” modelinin fəlsəfəsini bütün dövlət idarəçiliyi sisteminə tətbiq edəcək bir layihədir.

Qeyd edilənləri nəzərə alaraq, qanun layihəsinin lehinə səs verməyə dəvət edirəm.

Çox sağ olun.

**Sədrlik edən.** Kamal müəllim, ətraflı məlumata görə çox sağ olun. Təbii, çox vacib qanundur və düşünürəm ki, çıxış edənlər də elə bu vacibliyi vurğulayacaqlar.

Aydın Mirzəzadə. Aydın müəllim, buyurun.

**Aydın Mirzəzadə.** Təşəkkür edirəm, xanım sədr. Çox maraqlı və deyərdim ki, həyatın tələblərinə uyğun olan bir qanun layihəsi təqdim edilir. Bu qanun layihəsi, baxmayaraq, artıq reallıqda bizdə var.

“ASAN xidmət” modeli bu gün beynəlxalq təşkilatlar tərəfindən çox uğurlu model kimi qəbul edilir və dünyanın bir sıra ölkələri Azərbaycanın bu modeli ilə maraqlanırlar. Biz özümüz, şəxsən mən özüm də “ASAN xidmət”in xidmətlərindən istifadə edirəm. Keyfiyyət, operativlik, eyni zamanda, ucuz xidmət haqqı bizim hər birimizi qane edir. Bu, cənab Prezidentimizin təşəbbüsü ilə yaradılıb və günü-gündən bunun əhatə etdiyi xidmətlərin sayı da artır. Eyni zamanda, Azərbaycanın, demək olar, elə bir rayonu, şəhəri yoxdur ki, orada “ASAN xidmət” mərkəzi olmasın. Gənclər çox böyük maraqla “ASAN xidmət”də çalışırlar və “ASAN xidmət” könüllüləri deyilən bir hərəkət yaranıb; gələn vətəndaşlar çətinlik çəkəndə onlara kömək edirlər.

Mən belə bir qanunun qəbulunu müsbət sayıram və eyni zamanda, burada göstərilən müddəaları qəbul edirəm.

Mənim qanun layihəsinin adı ilə bağlı bir təklifim var. “Dövlət xidmətləri haqqında” adlanır. İş burasındadır ki, dövlətin xidmətini ancaq arayış verməklə məhdudlaşdırmaq düzgün olmazdı. Dövlət bizim təhlükəsizliyimizi qoruyur, dövlət bizə təhsil, sağlamlıq, istirahət hüququ, siyasi partiyalarda birləşmək hüququ verir, dövlət bizi beynəlxalq birlikdə təmsil edir. Yəni dövlətin funksiyaları kifayət qədər böyükdür. Dövlətin bütün xidmətini, – bunu funksiya da adlandırmaq olar, xidmət də, – ancaq müəyyən arayışların, müəyyən bir informasiyanın, məlumatın verilməsi ilə məhdudlaşdırmağı, açıq deyim ki, düzgün hesab etmirəm. Ona görə mənim təklifim odur ki, “dövlət informasiya xidmətləri haqqında” olsun. Başqa variant da ola bilər, eyni zamanda, mənim variantım qəbul edilməyə bilər. Hər halda mən belə bir ad təklif edirəm.

Qanun layihəsinə səs verəcəyəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Nigar Məmmədova. Nigar xanım, buyurun.

**Nigar Məmmədova.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Biz bu gün vacib bir qanun layihəsini müzakirə edirik və bu qanun layihəsinin hər birimizə aidiyyəti var. Çünki istər özümüz, istərsə də ailəmiz, ətrafımız, ailə üzvlərimiz bu və ya digər şəkildə dövlət xidmətlərindən istifadə edirik. Bu mənada xidmət sahəsində islahatlar hər zaman zəruridir.

Həmkarım ətraflı şəkildə qanun layihəsi barədə məlumat verdi. Bu qanun layihəsi keyfiyyətli, əlçatan və şəffaf xidmətlərin göstərilməsini təmin etməyə hesablanıb. Bütün xidmətlərin ümumi reyestrdə birləşməsi əminlik və etimad mənbəyi yaradır. Vətəndaşların hüquqlarının qo-

runması baxımından, əhalinin məlumatlandırılması, şikayətlərə baxılması, hüquqların qorunması mexanizmləri də qanun layihəsində öz əksini tapıb.

Qanun layihəsinin ən vacib məqamlarından biri də şəffaflıq və hesabatlılıq prinsipinin qorunmasıdır. Xidmətlərin göstərilməsi prosedurlarının tənzimlənməsi və "ASAN xidmət" indeksi əsasında onların keyfiyyətinin qiymətləndirilməsi ilk növbədə dövlət orqanlarının şəffaflığını və cəmiyyət qarşısında hesabatlılığını artırır. Belə ki, vətəndaş qiymətləndirməsi, ideya və təkliflər bilavasitə məmnunluq səviyyəsinin artırılmasına gətirib çıxaracaq. Xidmətlərin effektivliyini qiymətləndirmək üçün dəqiq standartlar, vətəndaşlarla davamlı geridönüş mexanizmi, – bu geridönüş mexanizmi çox vacib mexanizmdir, xanım sədr, çünki vətəndaşda əminlik hissini artırır, – həmçinin bütün xidmətlərin vahid rəqəmsal sistemdə inteqrasiyası layihənin əsas üstünlüklərindən biridir. Məlumatların qorunması, rəqəmsal alətlərin istifadəsi zamanı təhlükəsizlik riskləri, vətəndaşların hüquqlarının qorunması kimi məsələlər ən mühüm hüquqi aspektlərdəndir.

Vacib bir məsələni qeyd etmək istərdim. Bu da daxili nəzarət sisteminin tətbiqidir. Burada biz qiymətləndirmədən danışdıq. Amma daxili nəzarət sisteminin də tətbiqi, bu, ikiqat monitorinq sisteminin tətbiqi olacaq. Bu da dövlət xidmətini göstərən mütəxəssislərin üzərində olan məsuliyyəti daha da artıracaq. Bu nəzarətin tətbiqi ilə biz nə əldə edirik? Mümkün pozuntuların müəyyən edilməsinə və qarşısının alınmasına, risklərin idarə olunmasına, hesabatların etibarlılığına nail olunmasına kömək edən prosedurları əhatə edən bir sistemdir.

Qanun layihəsinin əsas üstünlüklərindən biri də bütün

əhali kateqoriyalarının, o cümlədən də həssas əhali qrupunun, xüsusi ilə ahılların, regionlarda yaşayan insanların bütün növ xidmətlərdən bürokratik əngəllərdən və vaxt itkisi olmadan məmnunluğunun nəzərdə tutulmasıdır. Eyni zamanda, korrupsiya hallarının sıfırlanmasına yönələn mexanizmlər layihənin əsas üstünlüklərindən biridir. Burada dövlət xidmətlərindən eyni şərtlərlə və bərabərhüquqlu istifadə həm də ədalət prinsipinin qorunması deməkdir.

Qanun qəbul edildikdən sonra qurumların bir-biri ilə koordinasiyalı şəkildə işləməsi xidmətin keyfiyyətinin daha da təkmilləşdirilməsinə gətirib çıxaracaq. Nəticə etibarı ilə hər bir orqanın məmnunluq səviyyəsinin müxtəlif istiqamətlər üzrə ölçülməsi mümkün olacaq. Burada, təbii ki, kadr potensialı, etik davranış standartları, insan resursları siyasətinin düzgün tətbiqi – bu meyarlar da çox vacibdir. Çünki vətəndaşlarla işləyəcəklər, bunlar fərdi məsuliyyəti artıracaq, xidmət səviyyəsinə təsir edən əsas amillərdən biridir.

Bir sözlə, dövlət xidmətlərində peşəkarlıq, hesabatlılıq, keyfiyyət, xüsusi ilə də əlilliyi olan şəxslərə səyyar xidmətlərin göstərilməsi, – bu, qanun layihəsində qeyd olunub, – qanun layihəsinin sosial üstünlüklərindən biridir.

Obrazlı desək, uzun illər görməyə adət etdiyimiz növbələr, kağızlar dövrü çoxdan bitib və bu, yeni nəsil yanaşmalarla, effektiv rəqəmsal transformasiya ilə əvəzlənəcək.

Belə bir qanunun mövcudluğu vətəndaşların hüquqlarını qorumaqla yanaşı, xidmət təminatçıları üçün hesabatlılığı müəyyən edəcək, dövlət idarəçiliyinin səmərəliliyini artıracaq.

Diqqətinizə görə təşəkkür edirəm və həmkarlarımı səs

verməyə çağırıram.

**Sədrlik edən.** Sağ olun.

Fazil Mustafa. Fazil müəllim, buyurun.

**Fazil Mustafa.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Hörmətli Sahibə xanım, mən də Sizin bu yanaşmanıza qoşuluram və hesab edirəm ki, çox önəmli bir qanun layihəsinin müzakirəsindən söhbət gedir.

Vaxtı ilə bu parlamentdə çıxış edərkən mən bir ifadə işlətmişdim. Demişdim ki, gəlin biz ayrıca bir nazirlik yaradaq – problemlərin həlli nazirliyi. Çünki ayrı-ayrı nazirliklər, dövlət komitələri arasında səma rəqsində olduğu kimi, dövr edən Azərbaycan vətəndaşının bir çox hallarda elementar bir məsələni həll etməkdə nə qədər vaxt itirdiyinin şahidi idik. Amma ölkə Prezidentinin təşəbbüsü ilə "ASAN xidmət" modelinin yaranmasından sonra Azərbaycanda, mən deyərdim ki, bəlkə vətəndaş məmnunluğunun ən yüksək səviyyədə təmin olunduğu bir mexanizmi əldə etdik. Bu model Azərbaycan vətəndaşını süründürməçilikdən, bürokratik əngəllərdən, bəzən korrupsiya və başqa elementlərin zərbəsindən xilas etdi.

Bu gün artıq adi vətəndaş vəziyyəti aktlarını almaq, pasport almaq, hansı şəkildəsə bir mülkiyyət sənədini əldə etmək üçün hansısa bir idarənin qapısında saatlarla, günlərlə gözləməyə ehtiyac duyulmadığını göstərir. Bu model həm də onu göstərir ki, eyni adlar var, məsələn, "ASAN xidmət" də 4 hərfdən ibarətdir, tutaq ki, AYNA da 4 hərfdən ibarətdir, amma məmnunluq baxımından həmişə "ASAN xidmət"ə cəmiyyətin nə qədər üstünlük verdiyi, istədiyi bilgini oradan ala bildiyi və istədiyi məsələyə, tənqidi yanaşılan, şikayət edilən məsələlərə də, sorğulara da cavab verildiyi bir qurumla üzləşirsən. Ancaq digər qurumlarda bir çox hallarda bunu görə bilmirik. O

baxımdan mən düşünürəm ki, qanun bu sahədə belə bir modelin daha da genişlənməsinə, fəaliyyətinin daha da güclənməsinə xidmət edəcəkdir.

Burada, mənim fikrimcə, bütövlükdə, "ASAN xidmət" indeksi məsələsinin qoyulması yaxşı bir haldır. Amma bunu biz bəlkə hansısa bir qurumun adı ilə əlaqələndirmədən, elə bir dövlət xidmət indeksi formatı təqdim etsək, daha yaxşı olar. Çünki onun içində "ASAN xidmət" modelinin özü də yer ala bilər. Qanunda ümumiləşmiş bir ifadənin yer alması daha doğru olar. "ASAN xidmət" indeksi də dövlət xidmətinin ən vacib elementlərindən biri kimi sayıla bilər. Burada Aydın müəllimin dediyi başqa meyarları da bu termin özündə ehtiva edə bilər.

Bu qurumda, hesab edirəm ki, vətəndaşlara həm fiziki, həm də elektron xidmətin göstərilməsi olduqca önəmlidir. Bu gün "Elektron hökumət"in bir çox hallarda nəzərimizə passiv formada çatdığını gördüyümüz halda, "ASAN xidmət" modelinin "Elektron hökumət"i də canlandırdığını görürük. Çünki rəqəmsal bazanın yaradılması, informasiyaların dövlət orqanından vətəndaşın iştirakı olmadan alınıb vətəndaşa ötürülməsi olduqca önəmlidir. Yəni bir mülkiyyət kağızı üçün 4–5 sənəd lazımdırsa, artıq vətəndaş 4–5 quruma getmədən bunu rahatca əldə edə bilirsə, bu, həm də rəqəmsal texnologiyanın inkişafına kömək edəcəkdir.

Digər tərəfdən, hətta mən sizə bir şey deyim ki, bu gün "ASAN radio" modeli var, xidmət göstərir. Azərbaycanda bəlkə də ən böyük maarifçilik işini görən bu radio, bu media qurumudur. Yəni bu, həm bütün vətəndaşların müxtəlif hüquqi bilgiləndirməsini təmin edir, həm də vətəndaşlara hansı formada öz hüquqlarını qorumaları, öz vəzifələrini həyata keçirmələri barədə də kifayət qədər

hüquqi yardım göstərir. Yəni bu cür qurumlar ölkə Prezidentinin dəstəyi, təşəbbüsü ilə yaranır. Amma burada, sadəcə, əsas məsələ vicdan məsələsidir, əsas məsələ vətəndaşa xidmət etmək niyyətidir. Kim bu niyyəti daşıyırsa, inanın ki, orada heç bir problem qalmır. Kim bu niyyəti daşımırsa, bu məsuliyyəti anlamırsa, bir məmur məsuliyyətinin cavabdehliyini özündə hiss etmirsə, onda bu sahələrdə də müəyyən boşluqlar, müəyyən problemlərin həll olunmamasının şahidi oluruq.

Buna görə də bizim bu istiqamətdə, bu məsələdə qanunvericiliklə dəstək verməyimiz olduqca önəmlidir. Mən bu qanun layihəsinə səs verəcəyəm və hesab edirəm ki, bu sahəyə, bütövlükdə, qanunvericilik səviyyəsində dəstək bunların işlərini xeyli irəliyə aparacaqdır.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Fazil müəllim.

Mən görürəm, Kamal müəllim yazılıb. Kamal müəllim, buyurun.

**Kamal Cəfərov.** Çox sağ olun, hörmətli xanım sədr. Mən ilk öncə bütün həmkarlarıma təşəkkür edirəm dəyərli təkliflər və qaldırılan məsələlərlə bağlı, eyni zamanda, dəstək üçün də.

Aydın müəllimin təklifi ilə bağlı qısa bir məlumat verim ki, bu "dövlət xidməti" anlayışı qanunvericilik praktikasında ta 1993-cü, 1994-cü, 1995-ci illərdən var. Hətta bizim dövlət büdcəsinin icrası ilə bağlı orada həmişə "dövlət xidmətlərinə xərclənən vəsaitlər" və sair qeyd olunub. Hazırda "e-qanun" sistemində 49-dan çox normativ hüquqi akt var ki, orada "dövlət xidmətləri" anlayışı istifadə olunur. Onun demək istədiyini başa düşürəm və ilk dəfə də bizdə bu "dövlət xidməti" anlayışı qanunda göstərilir və qəbul edilir. O kifayət qədər genişdir və onun

dediyi məsələləri də əhatə edir.

Fazil müəllimin dediyi bir sıra təkliflər var idi, bəzilərini biz müzakirə etməliyik. Ancaq məhz "ASAN xidmət" indeksi ilə bağlı onu qeyd etməliyəm ki, o, qurum adı ilə bağlı deyil. Elə görünür, ancaq "ASAN xidmət" indeksi termindir. O, normativ hüquqi aktdan götürülübdür və termin olaraq istifadə olunur. Necə ki, Korrupsiya Qavrama İndeksi var, spesifik bir məsələ ilə bağlı deyil. Bu da onun kimi. Düzdür, adı "ASAN xidmət"lə bağlıdır, ancaq o, terminləşibdir. Normativ hüquqi akta istinadən artıq bura daxil edirik.

Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Kamal müəllim. Mən də düşünürəm və yenə təkrar edirəm, çox vacib bir qanundur. Onu da deyim ki, bir çox beynəlxalq səfərlərdə, bir çox ölkələrdə bizə "ASAN xidmət" haqqında suallar verirlər. Yaxşı bilirsiniz ki, bir çox ölkələrdə artıq bir model kimi "ASAN xidmət" layihələri həyata keçirilir.

O ki qaldı adla bağlı, mən istəmirdim Sizin sözünüzü kəsib bununla bağlı öz fikrimi söyləyim. Birincisi, bunlar müxtəlif anlayışlardır – informasiya və dövlət. Müxtəlif sahələrin, müxtəlif səviyyələrin anlayışıdır. Mən düşünürəm ki, innovasiya elə dövlət xidmətinin bir hissəsidir, tərkibində olan bir şeydir. Ancaq yenə də Kamal müəllimin sözünə dəstək olaraq Sizin dediyiniz, istədiyiniz informasiyanı seçici, üzr istəyirəm, vətəndaşlar, – əslində, hamısı bizim seçicilərimizdir, – oradan alırlar. İndi mən düşünürəm ki, "dövlət" sözü daha üstündür. Ona görə də artıq belə bir termin var və onun istifadə olunması daha düzdür.

Biz səs verək, sonra mən Sizə söz verəcəyəm. Olar, Ülvi müəllim?

Hörmətli həmkarlar, məsələni səsə qoymaq istəyirəm. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.38 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Ülvi müəllim, mənə dedilər, Sizin sözünüz var idi. Buyurun.

**Ülvi Mehdiyev,** *Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri.*

Hörmətli xanım sədr, vaxt ayırıb söz verdiyinizə görə təşəkkür edirəm. Hörmətli millət vəkillərini salamlayıram, dəyərli fikirlərinə və təkliflərinə görə təşəkkürümü bildirirəm.

Fürsətdən istifadə edib "ASAN xidmət"in son illər ərzində gördüyü işlərlə bağlı qısa bir məlumat verim. Artıq bilirsiniz, 13 il əvvəl cənab Prezidentin təşəbbüsü və fərmanı ilə bu xidmət yarandı. "ASAN xidmət" iki dəfə BMT tərəfindən dövlət xidmətləri sahəsində ən yaxşı model, ən yaxşı konsepsiya kimi qiymətləndirilibdir, 30-dan çox ölkəyə ixrac olunur, 6 ölkədə artıq tam "ASAN xidmət" mərkəzi əsasında mərkəzlər fəaliyyətdədir. İndoneziyada, Özbəkistanda və digər ölkələrdə, Efiopiyada, Uqandada artıq tətbiq olunur. Digər 30 ölkə ilə də biz hazırda işləyirik.

Bu günə qədər “ASAN xidmət”ə 92 milyona yaxın müraciət olunub. Nəzərə alsaq ki, əhalimizin sayı 10 milyondur, o deməkdir ki, artıq şəxslər dəfələrlə istifadə edirlər və gün ərzində “ASAN xidmət”ə 40 min müraciət olur və vətəndaş məmnuniyyəti də 99 faizin üzərindədir. Bu nailiyyətin əsas səbəbi, əlbəttə, cənab Prezidentin “ASAN xidmət” qarşısında qoyduğu vəzifələr və müəyyən etdiyi prinsiplərdir. Bu qanun layihəsi də həmin prinsiplərin və vəzifələrin bütün dövlət xidmətləri sahəsini əhatə etməsini özündə əks etdirir.

Bütün qeyd olunan təkliflər və fikirlərlə bağlı mən özüm də qeydlər apardım. Artıq qanun layihəsi qüvvəyə minəndən sonra, icra prosesində, “ASAN xidmət”in üzərinə düşən vəzifələrin icrası zamanı bu fikirlər, əlbəttə, rəhbər tutulacaqdır.

Bir daha hər birinizə təşəkkür edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Siyavuş müəllim, növbəti məsələyə yazılmısınız? Hələ elan etməmişəm axı.

Hörmətli həmkarlar, biz növbəti məsələyə keçirik. Bizim 6-cı məsələmiz Azərbaycan Respublikasının daxili qoşunları haqqında qanun layihəsidir. Layihəyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Arzu Nağıyevə söz verirəm. Arzu müəllim, buyurun.

**Arzu Nağıyev,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Azərbaycanın Daxili Qoşunları onlara həvalə olunmuş vəzifələri yerinə yetirən zaman şəxsiyyətin, cəmiyyətin və dövlətin mənafeyini,

vətəndaşların Konstitusiya hüquqlarını, azadlıqlarını cinayətlərdən və digər hüquqazidd qəsdlərdən qoruyur.

Daxili Qoşunların hərbi qulluqçuları 1992–1994-cü illərdə baş verən Birinci Qarabağ müharibəsində və 2020-ci ildə baş verən İkinci Qarabağ müharibəsində qəhrəmancasına savaşmışlar. 1992–1994-cü illərdə ümumi olaraq Daxili Qoşunların şəxsi heyətindən 680 nəfər şəhid olmuşdur, 1177 nəfər isə yaralanmışdır. 8 nəfər ölümündən sonra olmaqla 9 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür.

Vətən müharibəsi zamanı Daxili Qoşunların şəxsi heyəti bütün istiqamətlərdə gedən döyüşlərdə şücaətlə vuruşmuşdur. 44 gün ərzində ümumi olaraq Daxili Qoşunların şəxsi heyətindən 66 nəfər şəhid olmuşdur, 346 nəfər isə yaralanmışdır. Bir nəfər ölümündən sonra olmaqla, 4 nəfər Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülmüşdür.

Daxili Qoşunların hazırda Azərbaycan ərazisində beş şəhərdə və doqquz rayonda hərbi hissələri mövcuddur. Həmçinin Daxili Qoşunların xüsusi təyinatlı hərbi qulluqçulardan (əsasən gizirlərdən və zabitlərdən) ibarət olan xüsusi təyinatlı dəstələri mövcuddur. Ümumi olaraq Daxili Qoşunların 9 xüsusi təyinatlı dəstəsi mövcuddur.

Hörmətli həmkarlar, hazırda ölkəmizin daxili qoşunlarının hüquqi statusu 1994-cü il 8 fevral tarixində qəbul edilmiş "Daxili qoşunların statusu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Qüvvədə olan qanun həmin dövrün tələblərinə uyğun hazırlanmışdır. Təklif olunan yeni qanun layihəsinin qəbulu ölkəmizin müdafiə qabiliyyətinin gücləndirilməsi və daxili sabitliyin təmin edilməsi baxımından zəruridir. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya

Qanununun tələblərinə əsasən normayaratma texnikasına uyğun hazırlanmışdır.

Layihədə daxili qoşunların funksiyaları və səlahiyyətləri daha da təkmilləşdirilərək müasir təhlükəsizlik çağırışlarına uyğunlaşdırılmışdır.

Müzakirə üçün təqdim edilən Azərbaycan Respublikasının daxili qoşunları haqqında Azərbaycan Respublikası qanununun layihəsi Milli Məclisə Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin imzası ilə daxil olmuşdur. Layihə həmkarlara təqdim edilmişdir.

Hörmətli xanım sədr, hörmətli həmkarlar, qanun layihəsi preambula, 6 fəsil və 30 maddədən ibarətdir. Layihənin preambulasında qeyd olunur ki, qanun layihəsi Azərbaycan Respublikasının Konstitusiya quruluşunun, suverenliyinin, habelə ictimai qaydanın və ictimai təhlükəsizliyin qorunması sahəsində Azərbaycan Respublikası daxili qoşunlarının fəaliyyətini, hüquq və vəzifələrini, həmçinin daxili qoşunların idarə olunmasının hüquqi əsaslarını müəyyən edir.

Layihənin I fəsli ümumi müddəalara həsr olunmuşdur və bu fəsildə əsas anlayışlar, daxili qoşunlar haqqında Azərbaycan Respublikasının qanunvericiliyi, daxili qoşunların əsas prinsipləri, fəaliyyət istiqamətləri və tərkibi haqqında normalar öz əksini tapmışdır.

Qüvvədə olan qanundan fərqli olaraq, təqdim edilən layihənin "Əsas anlayışlar" adlı 1-ci maddəsində "daxili qoşunlar", "döyüş texnikası", "fəal mühafizə vasitələri" və "fərdi qoruyucu mühafizə vasitələri", "fiziki qüvvə", "xüsusi silah" və sair kimi anlayışlar təsbit olunmuşdur.

4-cü maddədə daxili qoşunların fəaliyyət istiqamətləri dəqiqləşdirilmiş və genişləndirilmişdir. Həmin istiqamətlərə aşağıdakılar daxildir:

1. Konstitusiya quruluşunun, suverenliyin, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsində iştirak etmək.

2. Terrorçuluğa və dini ekstremizmə qarşı mübarizədə iştirak etmək.

3. Fövqəladə və ya hərbi vəziyyət rejiminin təmin edilməsində, fövqəladə vəziyyətin, habelə sosial xarakterli fövqəladə mühit rejiminin tətbiqinə səbəb olmuş halların nəticələrinin aradan qaldırılmasında iştirak etmək.

4. Azərbaycan Respublikası ərazisinin müdafiəsində iştirak etmək.

5. Yuxarıda qeyd olunan fəaliyyət istiqamətlərinə uyğun olaraq, aidiyyəti dövlət orqanları, qurumları tərəfindən mühafizə olunan obyektlərin mühafizəsində iştirak etmək.

"Daxili qoşunların fəaliyyətinin təmin edilməsi" adlanan II fəsildə daxili qoşunların fəaliyyəti ilə əlaqədar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın, qurumun səlahiyyətləri və daxili qoşunların fəaliyyətinin təmin edilməsi tədbirləri nəzərdə tutulmuşdur.

"Daxili qoşunların idarə olunması və təminatlar" adlanan III fəsildə isə daxili qoşunların komandanının səlahiyyətləri sadalanmış, daxili qoşunların maliyyə və maddi-texniki təminatı, daxili qoşunların hərbi...

**Sədrlik edən.** Mikrofon verilsin, komitə sədri məruzə edir.

**Arzu Nağıyev.** Onların ailə üzvlərinin təhlükəsizlik təminatları barədə müddəalar yer almışdır.

Hörmətli həmkarlar, IV fəsil daxili qoşunlarda xidmət qaydalarına həsr olunmuşdur. Layihənin "Kadrların hazırlanması" adlı 13-cü maddəsində daxili qoşunların xüsusi təyinatlı təhsil müəssisələri haqqında, digər dövlətlər

üçün kadrların hazırlanması, daxili qoşunların hərbi qulluqçularının ixtisasının artırılması və bu kimi əsas məsələlər nəzərdə tutulmuşdur. Həmçinin bu fəsildə daxili qoşunların hüquq və vəzifələri, onların hərbi qulluqçuları tərəfindən şəxslərin saxlanılması, nəqliyyat vasitələrinə, ərazilərə, yaşayış yerlərinə, binalara və digər tikililərə daxil olunması, ərazilərin, yaşayış yerlərinin, binaların və digər tikililərin dövrələnməsi halları ayrı-ayrı maddələrdə təsbit olunmuşdur.

Fiziki qüvvənin, xüsusi vasitələrin, odlu silahın, döyüş texnikasının və xüsusi texnikanın tətbiqi şərtləri V fəsildə öz əksini tapmışdır. Burada fiziki qüvvənin, xüsusi vasitələrin, odlu silahın, döyüş texnikasının tətbiqi barədə müddəalar əks olunmuşdur.

Layihənin 20-ci maddəsinə əsasən, daxili qoşunların hərbi qulluqçuları sadalanan vasitələri tətbiq etməzdən əvvəl hüquq pozuntusunun aradan qaldırılması tələbinin yerinə yetirilməsi üçün vaxt verməklə bu barədə şəxsə xəbərdarlıq edir və bu vasitələrin tətbiqi yalnız son zərurət və ya zəruri müdafiə vəziyyətində, bütün digər təsir imkanlarından istifadə lazımi nəticə vermədikdə, hüquq pozuntusunun ağırlıq dərəcəsindən asılı olaraq tətbiq edilir.

VI fəsil olan sonuncu fəsildə yekun müddəalar, daxili qoşunların şəxsi heyətinin məsuliyyəti, daxili qoşunların fəaliyyətinə nəzarət, qanunun qüvvəyə minməsi barədə müddəalar yer almışdır.

Təklif edilən 29-cu maddəyə əsasən, daxili qoşunların fəaliyyətinə ümumi nəzarətin Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Ali Baş Komandanı tərəfindən, idarədaxili nəzarətin isə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın rəhbəri və daxili qoşunların komandanlığı tərəfindən həyata keçirilməsi nəzərdə tutulur.

Eyni zamanda, qanunvericilik təşəbbüsü ilə çıxış edən subyekt qanunun 15.2-ci maddəsində dəyişiklik edilməsini, belə ki, daxili qoşun və daxili işlər orqanlarının birgə fəaliyyəti zamanı daxili qoşunlara polis orqanlarının əməkdaşlarının vəzifələri həvalə edildikdə onlar “Polis haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş polis əməkdaşının hüquqlarından istifadə edirlər. Əvvəllər bu, “hüquqlar şamil olunur” kimi təsbit edilirdi.

Qeyd etmək istərdim ki, qanun layihəsi Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində müzakirə olunub. Müzakirədə daxili işlər nazirinin müavini, Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədov və daxili işlər nazirinin müavini polis general-leytenantı Fazil Quliyev iştirak etmişlər. Verilən təkliflər, rəylər və suallara cavablar verilmişdir.

Qanun layihəsi komitəmizdə müzakirə edildikdən sonra yekdilliklə Milli Məclisin plenar iclasına birinci oxunuş üçün tövsiyə edilmişdir.

Bildirmək istərdim ki, bu qanun qüvvəyə mindiyi gündən “Daxili qoşunların statusu haqqında” Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 781 nömrəli Qanununun ləğv edilməsi təklif edilir.

Səs verməyinizi xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Arzu müəllim, çox ətraflı məlumat verdiniz. Sadəcə, bir şeyi də qeyd edim. Bu qanun layihəsinə cənab Prezident Prezident kimi qol çəkib, Ali Baş Komandan kimi deyil. Siz dediniz “Ali Baş Komandan”. Prezident kimi qol çəkilib.

Müzakirəyə keçirik. Siyavuş Novruzov. Buyurun.

**Siyavuş Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım

sədr, hörmətli deputatlar. Qanun layihəsi çox vacib bir qanun layihəsidir. Daxili qoşunlar haqqında qanun 30 il bundan qabaq qəbul olunmuşdu. Bundan sonra dövr keçibdir; ölkəmiz sürətlə inkişaf edir və 44 günlük Vətən müharibəsindən sonra Azərbaycan öz ərazi bütövlüyünü, suverenliyini tam təmin edibdir.

Daxili qoşunlar elə bir strukturdur ki, bunlar həm müharibə dövründə, həm də dinc dövrdə daim fəaliyyətdə olan qüvvələrdir. Bunların fəaliyyətinin qanunvericiliklə təsbit olunması, qanunun müddəaları ilə istiqamətləndirilməsi vacibdir. Komitəyə də təşəkkür edirik ki, bu cür qanun layihəsini bu gün təqdim edibdir. Daxili qoşunların gələcək fəaliyyətində bu, xüsusi rol oynayacaqdır.

Qeyd etmək istərdim ki, daxili qoşunlar digər qoşunlardan fərqli olaraq çoxfunksiyalıdır. Hörmətli komitə sədri də sadaladı, istər dinc dövrdə, istər ölkə daxilində, istərsə də müharibə dövründə öz fəaliyyətlərini davam etdirirlər. Qeyd olunduğu kimi, Birinci Qarabağ müharibəsində, İkinci Qarabağ müharibəsində daxili qoşunlar xüsusi xidmətlər göstəribdir. Ən əsası, qeyd edim ki, ölkədə sabitliyin qorunmasında, ictimai-siyasi sabitliyin möhkəmlənməsində daxili qoşunların rolu əvəzsiz olubdur.

Bilirsiniz ki, Ümummilli Liderin hələ Naxçıvana qayıtdığı dövrdən Azərbaycanda dövlət çevrilişinə cəhdin təməlini qoyan AXC–Müsavat cütlüyü 5 dəfə – Ümummilli Liderə qarşı 3 dəfə, 2 dəfə də cənab Prezidentin fəaliyyəti dövründə dövlət çevrilişinə və ölkənin konstitusion quruluşunu dəyişməyə cəhd göstəriblər. 1991-ci ildə Naxçıvan Muxtar Respublikasında Ümummilli Liderə qarşı dövlət çevrilişinə cəhd olundu, qarşısı alındı. 1994-cü il hamının yadındadır, oktyabr hadisələri, dövlət çevrilişinə cəhd, konstitusion quruluşun dəyişilməsi, dövlət başçısına

qarşı sui-qəsd edilməsi və digər məsələlər. 1995-ci il hamının xatirindədir.

Mən 2003–2005-ci illərin üzərində xüsusi ilə dayanmaq istəyirəm. Cənab Prezidentin prezidentliyinin ilk dövrlərində bu cəhdlər göstəriləndə daxili qoşunların xüsusi xidmətləri oldu. 2003-cü ildə prezident seçkilərindən sonra biabırçı şəkildə məğlub olan AXC–Müsavat cütlüyü və onlara qoşulan tör-töküntülər  birlikdə Azərbaycanda iğtişaşlar yaradıb dövlət quruluşunu dəyişməyə, dövlət çevrilişinə cəhd göstərən vaxt daxili qoşunlar, daxili qüvvələr polislə birlikdə, deyərdim ki, çox böyük qəhrəmanlıq göstərərək bunun qarşısını aldılar. Daxili qoşunların yüzə qədər nümayəndəsi həmin vaxt xəsarət aldı. Eyni zamanda, vətəndaşların mülkiyyətini qorudular. Bunlar tək dövlət çevrilişi deyil, həm də vətəndaşların mülkiyyətinə qəsd törədirdilər. Onların nəqliyyat vasitələrinə qəsd törədirdilər. Ölkədə ictimai-siyasi sabitliyi pozmaqla yanaşı, iğtişaşlar yaratmağa, qarşıdurma cəhdləri göstərdilər və  bu addımlar atıldı.

Həmçinin bilirsiniz ki, 2005-ci ildə parlament seçkiləri dövründə həm okeanın o tayından, həm də Avropanın bəzi yerlərindən və Azərbaycanda hakimiyyətdə olan, işləyən bir sıra nazirlər addımlar atdılar, birləşdilər və onların AXC–Müsavat cütlüyünə qoşulub Azərbaycanda dövlət çevrilişinə cəhd göstərmələrinin qarşısı həmin vaxt da daxili qoşunlar  tərəfindən alındı.

Qeyd edim ki, burada, həm 2003-cü ildə, həm də 2005-ci ildə bizim indiki daxili işlər naziri hörmətli Vilayət müəllimin xüsusi xidmətləri oldu. Həm də o vaxt daxili qoşunların komandanı olan bugünkü müdafiə naziri hörmətli Zakir Həsənovun xüsusi xidmətləri oldu. Bütövlükdə, bu qoşunların hər birinin xidməti oldu. Ona

görə də Daxili qoşunlar haqqında qanun layihəsi çox təqdirəlayiqdir. Bir təklif də verirəm ki, onların sosial təminatı da qanunvericilikdə nəzərdə tutulsun.

Təşəkkür edirəm. Səs verəcəyəm.

**Sədrlik edən.** Sağ olun.

Zahid Oruc. Buyurun.

**Zahid Oruc.** Hörmətli sədr, daxili qoşunların yaradılması müstəqilliyimizlə yaşıd olsa da, 1990-cı illərin xaosundan xalqımızı xilas edən Ulu Öndər Heydər Əliyevin rəsmiləşdirdiyi 1995-ci il 12 mart tarixi mühüm dönüş anıdır. Bir tərəfdə, əraziləri işğal olunan və 1 milyon məcburi köçkünün humanitar faciəsi, digər yanda, hərbi və kriminal qrupların, etnik separatçıların tüğyan etdiyi bir ölkədə daxili sabitliyin təminatı bir nömrəli vəzifə idi.

Əvəzində sovet milis serjantlığından polkovnik hərbi rütbəsinə çatdırılan şəxsi daxili qoşunlara rəhbər təyin edən cəbhə hakimiyyəti Gəncədə süquta uğrayanda qurumun komandanı meydandan qaçdı. Ermənistanla döyüş cəbhəsində qəhrəmanlıq göstərən Xüsusi Təyinatlı Polis Dəstəsi də sonralar silahı dövlətə qarşı çevirdi. Anarxiyaya son qoymaq üçün sistem adamı olan Heydər Əliyev təkcə milli təhlükəsizlik orqanlarını deyil, o cümlədən Naxçıvanda uğurla sınaqdan çıxardığı dövlətə sadiq Daxili İşlər Nazirliyi strukturunda daxili qoşunları gücləndirməklə nəinki əmin-amanlığı təmin etdi, o cümlədən xaricdən yönəldilən sui-qəsdləri və terror aktlarını da dəf etdi.

O vaxt Ulu Öndərə qarşı silahlı təxribatlar, o cümlədən görkəmli dövlət və elm xadimlərinin qətlləri dövlətə qarşı atılan güllələr idi. Daxili qoşunlar on minlərcə milli polis qüvvələrimizlə çiyin-çiyinə Azərbaycan dövlətçiliyini,

konstitusion quruluşu qorudu və daxili iğtişaşların qarşısını aldı.

2003-cü ilin dövlətçilik imtahanı zamanı Azadlıq meydanına və dövlət orqanlarına hücum edən qaragüruh birliyi, Cəbhə–Müsavat qanlı inqilabının dəf edilməsində də xalqın iradəsi, daxili işlər orqanlarının qətiyyəti dövlətimizin yenidən qalib gəlməsinə səbəb oldu.

Milli Məclisin müzakirəsinə çıxarılan Daxili qoşunlar haqqında yeni qanun layihəsi Zəfərimizin birbaşa nəticəsi, yeni dövlət quruculuğu siyasətinin bariz nümunəsi, qlobal təhlükələr və çağırışlar dövründə silahlı qüvvələrin, hüquq mühafizə orqanlarının dəqiq statusu, vəzifələrinin və səlahiyyətlərinin müəyyənləşdirilməsi deməkdir.

Cənubi Qafqazda son hadisələr, Gürcüstanda toqquşan dövlətlərin savaşı geniş coğrafiyaya yaymaq niyyətləri, o cümlədən Ermənistanla sülh müqaviləsinə qarşı planlar bütün dövlət orqanlarının çevik və koordinasiyalı fəaliyyətini tələb edir, Azərbaycanın regional təhlükəsizlik arxitekturasında aparıcı rolunun qarantı kimi çıxış edir.

Sənəddə daxili qoşunların səlahiyyətləri, struktur və məsuliyyət dairəsi konkretləşir, müstəsna hallarda daxili qoşunlara verilən polis funksiyalarının icrası, məlumatların məxfiliyi, güc tətbiqinin çərçivələri beynəlxalq hüquqi sənədlərlə uzlaşır. Avropa İnsan Hüquqları Konvensiyası, BMT-nin "Hüquq Mühafizə Orqanlarının Davranış Məcəlləsi"ndə olduğu kimi, güc tətbiqi yalnız son çarə kimi, zərurət və mütənasiblik prinsiplərinə uyğun aparılır. Zorakılıq deyil, hüquq əsaslı müdaxilə göstərilir. İctimai nəzarət üçün ombudsman və vətəndaş cəmiyyətinin rolu tanınır.

Azərbaycan daxili qoşunları ictimai asayişin, o cümlədən aksiyaların təhlükəsizliyinin təmini, fövqəladə hal-

larda dövlət maraqlarının müdafiəsi və hüquqazidd hərəkətlərin qarşısının alınması kimi əsas vəzifələrə malikdir.

Daxili qoşunların fəaliyyətinə ümumi nəzarəti Silahlı Qüvvələrin Ali Baş Komandanı həyata keçirir. Ona görə də daxili qoşunlar hesabatlıdır, üzərində yüksək dövlət nəzarəti mövcuddur.

Təkcə milli kontekstdə deyil, regional və beynəlxalq təcrübə ilə müqayisə aparsaq, qardaş Türkiyə Jandarmeriyası ölkənin kənd və qəsəbələrində təhlükəsizliyi təmin edir, Milli Müdafiə və Daxili İşlər Nazirliyi arasında xüsusi statusa malikdir. Fransa Milli Jandarmeriyası da həm hüquq mühafizə orqanlarının funksiyalarını, həm də hərbi qüvvə kimi hərbi vəzifələri icra edir. Onlar xüsusi əməliyyatlar keçirir və fövqəladə hallara cavab verirlər. Göründüyü kimi, hər bir ölkənin daxili qoşun və yarımhərbi strukturları öz milli xüsusiyyətlərinə, coğrafi və təhlükəsizlik tələblərinə uyğun formalaşır.

Digər bir göstəriciyə – MDB, Türkiyə və Şərqi Avropa ölkələrində daxili qoşunların şəxsi heyətinin sayına baxaq: qardaş Türkiyədə 50 min nəfər – əhalinin 100 min nəfərinə 59 nəfər, Rusiyada 340 min – əhalinin 100 min nəfərinə 236 nəfər düşdüyünü görürük. Azərbaycanda daxili qoşunların sayı 19 min nəfərdir, əhalinin 100 min nəfərinə düşən say isə 188-dir.

Şəxsi heyət, silah və texniki təchizat, təlim səviyyəsi və əməliyyatlara hazırlıq, mərkəzləşmiş idarəetmə və koordinasiya qabiliyyətinə görə ölkəmizin daxili qoşunları təkcə regionumuzda deyil, Müstəqil Dövlətlər Birliyi və Şərqi Avropada ön cərgələrdə dayanır. Müharibə təcrübəsi olan, əməliyyatlara çevik reaksiya verən, döyüş şəraitində sınaqdan çıxan qüvvələr sabitliyin qarantıdır.

**Sədrlik edən.** Mikrofon verin.

**Zahid Oruc.** Təşəkkür edirəm, hörmətli sədr.

Tam əminliklə deyə bilərik, Azərbaycan qalib orduya, güclü daxili işlər sisteminə, çevik dövlət təhlükəsizliyi və sərhəd xidmətinə malikdir. Təhlükəsizlik bir bütövdür, onu yalnız güclü qurumlar birgə qoruya bilər.

Yekunda bir daha layihəni təkcə hüquqi akt deyil, qələbəmizin davamlılığını təmin edən institusional islahat və Böyük Qayıdışın təhlükəsizliyə söykənən sütunu kimi qiymətləndiririk.

Səs verəcəyik. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, əslində, indi fasilə zamanıdır. Mən təklif edirəm ki, biz 2 çıxışa da qulaq asaq, səs verək, sonra fasiləyə çıxaq. Olar? Razısınız buna?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bu məsələni qurtaraq sonra. Bəhruz Məhərrəmov. Buyurun.

**Bəhruz Məhərrəmov.** Çox sağ olun. Hörmətli sədr, əziz həmkarlar. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Daxili Qoşunları fəaliyyətinin bütün dövründə dövlətimizin Konstitusiya quruluşunun, suverenliyinin, ictimai qayda və ictimai təhlükəsizliyinin təmini sahəsində müstəsna rol oynayıb. Eyni zamanda, istər Birinci Qarabağ müharibəsi, istər Vətən müharibəsi, istərsə də antiterror tədbirlərində Daxili İşlər Nazirliyinin, o cümlədən daxili qoşunların hər bir fərdi dövlətinə, vətəninə, müzəffər Ali Baş Komandanına sədaqətini dəfələrcə sübut edib.

Ən çətin dönəmlərdə, rəngli inqilablar ölkəmizə tuşlanarkən, ayrı-ayrı dövrlərdə müstəqilliyimiz, suverenliyimiz təhdid edilərkən, dövlətçilik hədəf alınarkən Daxili İşlər Nazirliyinin bütün heyəti kimi, daxili qoşunlar da milli iradənin yeganə təmsilçisi kimi Ulu Öndər Heydər

Əliyevin və cənab İlham Əliyevin qətiyyət və iradəsinin realizəsində, milli maraqların müdafiəsində tarixin sınağından ləyaqətlə çıxıb.

Təbii ki, dövr keçir, münasibətlər sistemi dəyişir. Xüsusən Azərbaycanın hərbi-siyasi zəfərləri ilə suverenliyimizin tam bərqərar olunması, ölkəmizin önəmli güc mərkəzi kimi yaratdığı yeni reallıq şəraitində yeni münasibətlər yeni normativ tənzimləmə tələb edir.

Daxili qoşunlar haqqında yeni qanun layihəsi, məruzədə də qeyd edildiyi kimi, yeni dövrün tələblərinin zərurəti nəticəsində meydana çıxıb. İstər qarşıda qoyulan vəzifələr, istər yeni şəraitə uyğun xidmət qaydalarının təkmilləşdirilməsi, istərsə də daxili qoşunların fəaliyyətinə nəzarət və məsuliyyət məsələlərinə yeni baxış lazım idi. Çünki bu gün artıq ölkəmizin, o cümlədən silahlı qüvvələrin, polisin, daxili qoşunların qarşısında konseptual məqamları çıxmaq şərti ilə 5 il əvvəlki vəzifələr dayanmır.

Bu gün Azərbaycan deyəndə artıq işğal və təcavüzə, separatizmə son qoymaq istəyən bir ölkə barədə danışmırıq. Bu gün Azərbaycan dedikdə şərt və situasiya diktə edən gücdən, Azərbaycan Prezidenti dedikdə qlobal proseslərə həlledici təsir gücünə malik liderdən söhbət gedir. Azərbaycan Prezidenti artıq dəfələrcə nümayiş etdirib ki, populizmə yol vermədən, qətiyyətli və səbatlı davranaraq milli maraqların dialoq yolu ilə təmini mümkündür. Dünən o, Düşənbədə növbəti dəfə göstərdi ki, istənilən şəraitdə və istənilən münasibətlərdə milli maraq və mənafelərimizin qorunması üçün nəyi, nə zaman, necə edəcəyini bilir.

Bu, çox vacibdir, çünki biz yersiz bəyanatların, reallıqla uzlaşmayan populizmin ölkəni hansı fəlakətlərə sürüklədiyinə dəfələrcə şahid olmuşuq. İndi üzərindən zaman keçib.

Bu illər ərzində gözlərini yumanlar elə bilirlər ki, hər şey unudulub, yenə baş qaldırmağa cürət edirlər. Mövzudan yayınmaq istəmirəm, sadəcə, baxın, yalnız son bir həftədə bir tərəfdə türk dövlətlərinin Qəbələ zirvəsi, digər tərəfdə MDB oyunlarının böyük uğurla realizəsi, Düşənbədə Rusiya ilə diplomatik gərginliyə son qoyulması fonunda önəmli məsələlər varkən, özünə müxalifət deyən radikalların fəaliyyət çərçivəsi "pasport davası"na qədər cılızlaşıb. Elə fon yaradılır ki, guya bu radikal Riqa Təhlükəsizlik Konfransına getməsə, Avropanın təhlükəsizlik arxitekturası zədələnəcək. Sual çıxır ki, AXC–Müsavat xuntası dövründə bütün hüquq mühafizə orqanları sənin nəzarətində olanda sən heç öz təhlükəsizliyini təmin edə bilmirdin. İndi Riqada təhlükəsizlik barədə kimə nə danışacaqsan? Sən maksimum təhlükə şəraitində necə qaçmaq, necə fərarilik etmək olar, ondan danışa bilərsən.

Aydındır, bunlar yaxşı başa düşür ki, artıq 1990-cı illərin xaos dövrü deyil, güc yolu ilə istədiklərini edə bilməzlər. Bu adamlar yaxşı başa düşür ki, bu gün qüdrətli Azərbaycanda xalq–iqtidar birliyi qarşısında heç bir şansları yoxdur. Ona görə də ümidləri belə donos xarakterli "məruzələr" edə biləcəkləri tədbirlərə qalıb.

İndi bir daha çıxışın əvvəlinə qayıdıram, biz reallıqları aydın formada dərk etməliyik. Elə bir dövrdür ki, ya güclü olub maraqlarını uzlaşdırmağı bacarmalı, ya da qurban getməlisən. Azərbaycanın bu gün ən böyük uğuru ondadır ki, həm güclüdür, həm də milli mənafeləri rəhbər tutaraq maraqlarını qlobal sistemlə uzlaşdıra bilir. O cümlədən də daxili qoşunlar özünün inkişafının yeni dövrünə qədəm qoyub.

Bu mənada, yeni situasiyada yeni dövrün tələbinə

uyğun olaraq hazırlanmış, ölkənin ən vacib strukturlarından birinin fəaliyyəti üçün normativ bazis rolunu oynayacaq qanunun qəbulu həm də gücümüzün, imkanlarımızın, Zəfərimizin səbəb olduğu transformasiyaya çevik reaksiyadır və dəstəklənməsini vacib sayıram.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Əli Hüseynli. Əli müəllim, buyurun.

**Əli Hüseynli.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Hörmətli həmkarım Arzu müəllim və dəyərli deputat həmkarlarım bu qanun layihəsi ilə bağlı, qanunun konseptual baxımdan zəruriyyəti, yeni qanunun qəbul olunması zərurəti ilə bağlı çox mühüm fikirlər söylədilər. Mən bu fikirləri bölüşürəm.

Azərbaycanda hazırda qüvvədə olan "Polis haqqında" Qanun mövcuddur. Biz zaman-zaman ona dəyişikliklər etmişik. Daxili qoşunlar Azərbaycan Daxili İşlər Nazirliyinin tərkib hissəsindədir. Amma onun fəaliyyətini tənzimləyən qanun 1994-cü ilin qanunudur. Bu baxımdan, yəni "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbləri baxımından, ilk növbədə hüquqi baxımdan yeni qanunun qəbul olunması zəruri idi. Amma eyni zamanda, bu qanunun qəbulu imkan verir ki, həm bütövlükdə daxili işlər orqanlarının, həm də daxili qoşunların bu illər ərzində keçdiyi uğurlu, şərəfli yolu bir də təhlil edək. Həmkarlarım da bunu çox uğurla etdilər.

Həqiqətən də, qanun layihəsində, onun ümumi müddəalarında da çox dəqiq göstərilib, daxili qoşunların fəaliyyəti əsas iki istiqamətdir:

1. Konstitusiya quruluşunun qorunması, suverenliyin qorunması.

2. İctimai asayişin və ictimai təhlükəsizliyin qorunması.

Daxili qoşunlar hər iki vəzifənin öhdəsindən uğurla gəliblər. Həm Birinci Qarabağ müharibəsi, həm də Vətən müharibəsində göstərilən qəhrəmanlıqlardan həmkarlarım danışdılar. Amma eyni zamanda, ictimai asayişin qorunması ölkədə ictimai-siyasi sabitliyin və dövlətçiliyin qorunması anlamını ifadə edirdi. Hesab edirəm ki, bunun özü bəlkə də ən mühüm vəzifə idi ki, bunun öhdəsindən daxili işlər orqanları, xüsusi ilə də daxili qoşunlar uğurla gəlmişdilər.

Dövlətə, Ali Baş Komandana, xalqa sədaqətlə xidmətin əsl nümunəsini göstəriblər. İclasın əvvəlində həmkarlarımdan biri söylədi, məhz bu sədaqətə görə də bir sıra hallarda onlar hədəfə çevrilmiş olublar. Sosial mediada onlara qarşı heç bir əsası olmayan hansısa təhdidlərlə üzləşiblər.

Hesab edirəm ki, bu qanunun qəbulu "Konstitusiya və Suverenlik İli"ndə qəbul etdiyimiz qanunlar sırasında mühüm yer tutacaq. Çünki vurğuladıq ki, konstitusion quruluşun qorunmasında müstəsna rolları olubdur. Həm 1990-cı illərin dövlət çevrilişinin qarşısının alınmasını, həm də 2000-ci illərin əvvəllərindəki dövlət çevrilişinin qarşısının alınmasını xatırladılar. Bir sıra hallarda kiçik epizodik olsa da, iğtişaş cəhdləri də baş verib və bunun da qarşısını daxili qoşunlar uğurla almışdır. Bunları söyləməkdə məqsədim odur ki, baxmayaraq, qanunun qəbulu 1994-cü il idi, yəni uzun bir müddət idi, yeni qanun yox idi, amma Azərbaycan polisinin, daxili qoşunların fəaliyyəti daim müasirləşib, fəaliyyəti daim yenilənib. Bu baxımdan həm də yaxşı bir nümunədir ki, köhnə qanunla müasir üsullarla da işləmək mümkün idi. Amma bir daha vurğulamaq istəyirəm, yeni qanunun qəbulu, əlbəttə ki, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qa-

nununun tələbindən irəli gəlir, zəruri idi. Hüquq siyasəti və dövlət quruculuğu komitəsi olaraq bu qanunun qəbuluna dəstək verəcəyik. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim.

Hörmətli həmkarlar, düşünürəm ki, biz kifayət qədər müzakirə etdik. İndi isə mən qanun layihəsini səsə qoyuram. Buyurun, birinci oxunuşda münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.09 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, fasilə elan edirəm. Saat 3-də işimizi davam etdirəcəyik. Buyurun.

## *(FASİLƏDƏN SONRA)*

**Sədrlik edən.** Hörmətli həmkarlar, işimizə davam edirik. Biz fasilədən öncə 6-cı məsələni də bitirdik. İndi isə 7-ci məsələmizə keçirik. Bu, "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Sadiq Qurbanova söz verirəm. Sadiq müəllim, buyurun.

**Sadiq Qurbanov,** *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Çox sağ olun, dəyərli Sahibə xanım. "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Qanunda dəyişiklik cənab Prezidentin 2021-ci il 20 avqust tarixli 1433 nömrəli Fərmanının müvafiq yarımbəndinə əsasən binaların enerji effektivliyi üzrə pasportlaşdırılması qaydaları və cənab Prezidentlə razılaşdırmaqla təsdiq edilmiş sənəd əsasında hazırlanmışdır. Həmin göstəriş əsasında Energetika Nazirliyi bu qanun layihəsində dəyişiklik edilməsini zəruri bilir.

Bu qanun layihəsinə əsasən enerji effektivliyi üzrə pasportlaşdırılmasının məcburiliyi olan binaların kateqoriyalarını müəyyən etmək tələb olunur və qanun layihəsi tətbiq dairəsini genişləndirərək istisnaları da müəyyən etmək üçün hazırlanmışdır.

Burada xüsusi ilə qeyd etmək istərdim ki, Nazirlər Kabinetinin 2023-cü il 26 avqust tarixli Qərarı ilə "Binalar üçün minimum enerji effektivliyi normaları" təsdiq edilib. Eyni zamanda, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Kollegiyasının Qərarı da buna uyğunlaşdırılaraq 2022-ci il 10 iyun tarixində "Binaların istilik mühafizəsi. Layihələndirmə normaları" təsdiq olunub. Bu gün də həmin binalara, belə deyək, enerji effektivliyi üzrə pasportların verilməsi üçün "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Qanunun 17-ci maddəsinə 17.3-cü bənd əlavə olunur. Burada xüsusi bir məqamı qeyd etmək istəyirəm ki, bu, beynəlxalq təcrübədə var. Bir cədvəl hazırlamışıq. Cədvəl Azərbaycanın həm Avropa İttifaqı, qonşu ölkələr, Türkiyə, Gürcüstanla, həm də Birləşmiş Krallıqla münasibətləri sistemində bu qanun layihəsində ediləcək dəyişiklik arasında oxşarlıqlar

barədədir. Əsas odur ki, Azərbaycan Respublikası bu gün dünyaya enerji ixrac edir və eyni zamanda, enerjinin səmərəliliyinə diqqət yetirilməsi elə yeni enerji mənbəyi rolunda çıxış edir.

Araşdırmalara görə Azərbaycanda bu gün istismarda olan binaların ortalama 1 kvadratmetr sahəsinə ildə 250 kilovat-saat ilkin enerji sərf olunur. Məsələn, Almaniyada bu, 175 kilovat-saatdır, İtaliyada 160 kilovat-saatdan çox olduqda qeyri-effektiv sayılır. Ona görə də bu qanunda dəyişiklik etməklə yeni normalar müəyyənləşəcək. Yəqin ki, bu normalar binalarda enerji effektivliyinin artırılmasına, eyni zamanda, enerji resurslarından səmərəli istifadəyə gətirib çıxaracaqdır. Bu, günün aktual məsələlərindən biridir. Hesab edirəm ki, pasportlaşdırmadan sonra Azərbaycanda bu sahədə yeni bazar münasibətləri formalaşacaq. Bilirsiniz ki, binalar artıq A, B, C kateqoriyalarına bölünmüşdür. D və E kateqoriyaları 2000-ci ilə qədər tikilən binalara aiddir. Bunlar da yeni tikilən və yenidən təmir olunan binalara icbari qaydada birbaşa tətbiq olunacaq. Həyət evləri, digər yardımçı binalarla bağlı isə könüllü formada enerji effektivliyi haqqında pasport almaqla bağlı müraciət edilə bilər. Deputat həmkarlarımı bu əhəmiyyətli qanun layihəsinə səs verməyə dəvət edirəm.

Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Sadiq müəllim.

Müzakirəyə keçirik. Səbinə Xasayeva. Buyurun.

**Səbinə Xasayeva.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli xanım sədr, dəyərli həmkarlar və media nümayəndələri. Danılmaz faktdır ki, müasir dövrdə enerji həyatımızın ayrılmaz tərkib hissəsinə çevrilib. Gündəlik fəaliyyətlər, sənaye istehsalı, nəqliyyat sistemləri və tex-

noloji proseslərin idarə olunması enerji olmadan, demək olar ki, mümkün deyil. Bu səbəbdən enerji asılılığı kritik səviyyəyə çatmış və enerji təhlükəsizliyi bir çox ölkələrin milli təhlükəsizlik və strateji inkişaf planlarının əsas prioritetlərindən birinə çevrilmişdir.

Eyni zamanda, qeyd etmək lazımdır ki, dünyadakı enerji mənbələri sonsuz deyil. Ənənəvi fosil yanacaqlar – neft, qaz və kömür  məhdud resurslar olmaqla, bərpa olunmayan enerji mənbələridir və onların səmərəsiz istifadəsi gələcək nəsillərin enerji təminatını təhlükə altına qoymaqla yanaşı, ekoloji problemləri də dərinləşdirə bilər.

Enerji səmərəliliyinin artırılmasına müasir yanaşmada iki əsas məsələ xüsusən diqqət cəlb edir. Bunlar günəş, külək, hidroenerji və bu kimi  alternativ enerji mənbələrinin istifadəsinin artırılması və mövcud enerji resurslarının daha səmərəli idarə olunmasının təmin edilməsidir. Bu baxımdan enerji səmərəliliyi yalnız iqtisadi xərclərin azaldılması və istehsalın optimallaşdırılması üçün deyil, həm də ekoloji və sosial davamlılığın təminatı üçün mühüm əhəmiyyət daşıyır.

Bütün bunları nəzərə alsaq, "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda yeni tikilən, yenidən qurulan, əsaslı təmir olunan yaşayış və qeyri-yaşayış binalarının enerji effektivliyi üzrə pasportlaşdırılmasının məcburiliyi ilə əlaqədar təklif olunan dəyişikliyin nə dərəcədə vacib olduğunu bir daha görə bilərik.

Enerji səmərəliliyini təmin etmək məqsədi ilə təklif olunan bu dəyişiklik enerji itkilərini aşkar etmək, səmərəlilik səviyyəsini müəyyənləşdirmək və enerjiyə qənaət potensialını qiymətləndirmək üçün vacib addımdır. Enerji effektivliyi üçün pasportlaşdırılma prosesi binaların

enerji istehlakı səviyyəsinin ölçülməsi, qiymətləndirilməsi və sənədləşdirilməsini təmin etməklə enerji istehlakının optimallaşdırılmasına şərait yaradacaq. Onu da qeyd etmək lazımdır ki, müxtəlif ölkələrdə bununla bağlı geniş təcrübə mövcuddur və bir çox ölkədə enerji pasportu və ya enerji sertifikatı sistemləri qanunvericiliklə tənzimlənir.

Avropa İttifaqının bir sıra ölkələrində enerji səmərəliliyinin təmin olunması məqsədi ilə enerji performansı sertifikatlarından istifadə olunur. 2002-ci ildə qəbul olunmuş və Avropa İttifaqı ölkələrinin bu sahədəki əsas sənədi kimi qəbul olunan "Binaların Enerji Performansı Direktivi"nə əsasən tərtib olunan bu enerji sertifikatları binaların enerji səmərəliliyini artırmaq, karbon emissiyasını azaltmaq, alıcı və kirayəçilərə isə enerji şəffaflığını təmin etmək məqsədi daşıyır. Onu da qeyd etmək lazımdır ki, bir çox ölkədə yeni və satışa çıxarılan binalar, həmçinin icarəyə verilən binalar üçün bu sertifikatları təqdim etmək məcburidir.

Bu qanun layihəsində təklif olunan dəyişiklik bir daha Azərbaycanın enerji səmərəliliyi məsələsinə olan həssas yanaşmasını ifadə edir. Xüsusi ilə ölkəmizin COP29-a uğurlu ev sahibliyi və təqdim etdiyi təşəbbüslər enerji təhlükəsizliyinin gücləndirilməsinə verdiyi əhəmiyyətli töhfələri əks etdirir.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Aydın Hüseynov. Buyurun, Aydın müəllim.

**Aydın Hüseynov.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Müzakirə etdiyimiz qanun layihəsi ilə bağlı komitə sədri çox hörmətli Sadiq müəllim ətraflı məlumat verdi. Qanunun mahiyyəti və tətbiq istiqamətləri ilə bağlı biz artıq məlumatları əldə etdik.

O da məlumdur ki, Azərbaycan, ümumən, enerji siyasətini çox yüksək şəkildə həyata keçirir. İqtisadiyyatımızın əsasında düzgün qurulmuş, əlbəttə, Ulu Öndərimiz və cənab Prezidentimizin rəhbərliyi ilə həyata keçirilən enerji siyasəti ölkəmizin həm iqtisadi qüdrətini təmin etmiş oldu, həm də siyasi nüfuzumuzu artırmış oldu. Azərbaycan indi dünyada bir çox ölkələrin enerji təhlükəsizliyində əhəmiyyətli rol oynayır.

Digər tərəfdən, Azərbaycanın böyük resursları var. Bu resurslar getdikcə daha da genişlənir. Azərbaycan indi dünyada təkcə neft-qaz ixracatçısı deyil, eyni zamanda, çox yaxın gələcəkdə böyük alternativ enerji ixracatçısı kimi dünya bazarlarında əsas fiqurlardan birinə çevriləcəkdir.

Enerji resurslarımızı, istehsalımızı artırmaq üçün qarşıya qoyulan digər ən böyük məqsədlərdən biri də budur ki, resurslardan səmərəli və effektiv istifadə olunsun. Bayaq qeyd etdiyim kimi, qəbul olunan qanunun mahiyyətində də enerji resurslarımızdan səmərəli istifadənin metodologiyası ortaya qoyulur. Burada iki yanaşma var. Birinci növbədə qənaət rejimi yaranır, səmərəli istifadə olunur. Bu səmərəli istifadə bizim artıq resurslarımızı dünya bazarına çıxarmaq imkanlarımızı səciyyələndirir.

Digər tərəfdən, sonda, burada yenə vətəndaşın maraqları ifadə olunur. Yəni binaların izolyasiya olunması, enerji keyfiyyətinin yaxşılaşdırılması və bu pasportlaşmanın aparılması vətəndaşların yaşadıqları binalarda, evlərdə xərclərinin azaldılmasına gətirib çıxarır. Bu baxımdan mən qanun layihəsinə səs verəcəyəm.

Digər tərəfdən, məlumdur ki, ölkəmizdə qazlaşdırmanın səviyyəsi çox yüksək səviyyədədir, 96 faizi keçib. Qazlaşdırma ilə bağlı, hesab edirəm ki, elə ciddi

problemlər yoxdur. Sadəcə olaraq, bir fikri istərdim "Azəriqaz" rəhbərliyinə xoş məramla çatdırım. Biz bilirik ki, onların da vəzifəsi vətəndaşlara xidmətdir və vəzifələrinin öhdəsindən layiqincə gəlirlər, ancaq bəzi məsələlər var ki, biz də onların yadına salsaq, hesab edirəm, onlar üçün də effektli olar. Nə mənada? Elə evlər var ki, çıxarışları yoxdur. Əsasən Qaradağın bəzi qəsəbələrində, eləcə də Bakıətrafı kəndlərdə belə hallar var. Əgər çıxarış yoxdursa, həmin evlərə qazın verilməsində məhdudiyyət yaranır. Mən belə düşünürəm ki, əgər həmin evlərdə ciddi təhlükəsizlik riskləri yoxdursa, mövcud qanunvericilik çərçivəsində bu məsələni həll etmək olar. Yəni onları qaz hesablayıcıları ilə və qazla təmin etmək mümkündür. Çıxarışların verilməsi, əlbəttə, dövlətin digər qurumlarının diqqətindədir. Demək istədiklərim bunlar idi.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Qanun layihəsini səsə qoyuram. Buyurun, birinci oxunuşda münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 15.13 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Bizim növbəti məsələmiz "Avtomobil nəqliyyatı

haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Komitə sədrinin müavini hörmətli Azər Badamov məlumat verəcək. Buyurun, Azər müəllim, söz Sizindir.

**Azər Badamov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini.*

Təşəkkür edirəm, hörmətli xanım sədr.

"Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda 2 dəyişiklik təklif olunur.

Birinci dəyişiklik müntəzəm sərnişindaşıma xidmətlərinin idarə olunmasında vahid səlahiyyətli qurumun müəyyən edilməsi ilə bağlıdır. Qüvvədə olan qanunvericiliyə görə müntəzəm sərnişindaşıma xidmətlərini yerinə yetirən avtomobil nəqliyyatı üçün dayanacaq məntəqələrinin yerinin müəyyənləşdirilməsi, onların quraşdırılması və idarə olunması Yerüstü Nəqliyyat Agentliyinin, Bakı şəhərinin inzibati ərazisi istisna olunmaqla, digər ərazilərdə zəruri olan infrastrukturun yaradılması işini təşkil etmək, həmçinin nəqliyyat vasitələri üçün dayanacaqların yerləşdirilməsi sxemlərini təsdiq etmək və nəzarəti həyata keçirmək səlahiyyəti isə yerli icra hakimiyyəti başçılarının səlahiyyətindədir.

Təqdim olunan qanun layihəsində bütün bu səlahiyyətlərin vahid qurum tərəfindən idarə edilməsi təklif olunur. Bu da bölgələrdə əhaliyə xidmət göstərən sərnişindaşıma xidmətinin keyfiyyətinin artmasına, bu sahədə ölkə üzrə vahid standartların tətbiqinə xidmət edəcəkdir.

İkinci dəyişiklik isə beynəlxalq yük daşımalarında beynəlxalq nümunəli əmtəə-nəqliyyat qaiməsinin kağız daşıyıcısı ilə paralel olaraq elektron formatda tətbiq

edilməsi ilə bağlıdır. Azərbaycan Respublikası "Beynəlxalq yük daşınması müqaviləsi (BYDM) haqqında" Konvensiyaya elektron əmtəə-nəqliyyat qaiməsi ilə bağlı" Əlavə Protokola 614 nömrəli Qanunla qoşulmuşdur. Sözügedən qoşulma ilə beynəlxalq yük daşımalarında yükgöndərən, daşıyıcı və yükalan arasında öhdəlikləri müəyyən edən və hüquqi münasibətləri tənzimləyən ənənəvi beynəlxalq nümunəli kağız əmtəə-nəqliyyat qaiməsinin elektron formada da tərtib edilməsinə imkan yaradılması, sənədlərin asan idarə edilməsi, qorunması, sürətli mübadiləsi, daşımalarda xərclərin azaldılması, təhlükəsizlik və etibarlılığın təmini kimi bir çox üstünlüklər təqdim edilir.

Beynəlxalq nümunəli əmtəə-nəqliyyat qaiməsinin kağız formatı ilə paralel olaraq elektronlaşdırılması həmçinin avtomobil nəqliyyatı sahəsində qlobal rəqəmsallaşmanı təmin etməklə, sektor iştirakçılarının çevikliyinin və şəffaflığın artmasına ciddi töhfə verəcəkdir.

Hörmətli həmkarlar, təklif olunan dəyişikliklər çox əhəmiyyətlidir, dəstəkləməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun, Azər müəllim.

Müzakirəyə keçirik. Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev.** Hörmətli xanım sədr, hörmətli deputatlar, media nümayəndələri. Sevindirici haldır ki, ölkəmizdə yüngül fərdi nəqliyyat vasitələrinin, skuterlərin, velosipedlərin, motosikletlərin və buna bənzər digər vasitələrin sayı artır və bu da şəhərə düşən nəqliyyat yükünün azaldılması deməkdir. Bununla bərabər, onlar özləri ilə həm də təhlükə gətirir. Təhlükənin səbəbi isə bir çox istifadəçilərin bu tip nəqliyyat vasitələrinə əyləncə kimi yanaşmasıdır. Hər gün onlarca sakin skuter, velosiped və ona bənzər vasitələrlə vurulur, şikəst edilir. Təbii ki, skuterlərin, velosipedlərin artmasının və geniş

istifadəsinin tərəfdarıyam. Amma müəyyən önləyici tədbirlərin, ciddi şəkildə maarifləndirmənin həyata keçirilməsinə ehtiyac var. Təklif edirəm ki, Elm və Təhsil Nazirliyi məktəblər, təhsil müəssisələri üçün bir təlimat hazırlasın. Heç olmasa, həftədə bir dəfə müəllimlər şagird və tələbələrə izah etsin ki, skuter və velosiped əyləncə deyil, diqqətsiz bir hərəkət kiminsə həyatına son qoya və ya ömürlük şikəst edə bilər.

Eyni zamanda, istərdim ki, sosial şəbəkələrdə, iş kollektivlərində, şirkətlərdə və dövlət qurumlarında ciddi və davamlı şəkildə maarifləndirmə təlimatları həyata keçirilsin. Biz də övladlarımıza, yaxınlarımıza bu barədə xəbərdarlıq edək. Mətbuat nümayəndələrini də maarifləndirmə işində fəal olmağa dəvət edirəm. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun.

Göydəniz Qəhrəmanov. Buyurun.

**Göydəniz Qəhrəmanov.** Hörmətli xanım sədr, mənə söz verdiyiniz üçün təşəkkür edirəm. Öncədən bildirmək istəyirəm ki, qanun layihəsinə səs verəcəyəm. Hazırda bir məsələ ilə bağlı çıxış edib təklif irəli sürmək istərdim.

Cənab Prezidentin diqqəti və dəstəyi nəticəsində ölkəmizdə turizm sahəsi sürətlə inkişaf edir. İnfrastruktur qurulur, hava limanları açılır, tanıtım işləri aparılır, sahibkarların investisiya yatırımı üçün münbit şərait və dövlət dəstəyi var. İldən-ilə Azərbaycana gələn turistlərin sayı artır və növbəti illərdə kəskin artım gözlənilir.

Bir məsələni diqqətinizə çatdırmaq istərdim. Belə ki, turist daşıyan nəqliyyat vasitələri üçün xüsusi dayanacaqların azlığı və bəzi ərazilərdə, ümumiyyətlə, olmaması səbəbindən, turistlərin rahatlıqla otellərə çatdırılması çətinləşir. Təklif edərdim ki, turist daşıyan nəqliyyat

vasitələri üçün şəhərimizin müxtəlif yerlərində aidiyyəti qurumlar dayanacaqlar müəyyən etsinlər. Düşünürəm ki, bu addım həm turistlərin otellərə və turistik məkanlara rahatlıqla çatdırılmasına və həm də nəqliyyatçıların yüksək xidmət göstərməsinə kömək edəcək.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 15.19 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələ Mülki Prosessual Məcəllədə və daha 2 məcəllədə, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qeyd edim ki, məsələ ilə əlaqədar Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri hörmətli Anar müəllim Bağırov və sədrin müavini hörmətli Şahmar müəllim Məmmədov iclasımızda iştirak edirlər. Sizi yenə də salamlayırıq.

Hörmətli həmkarlar, qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün mən sözü hörmətli Bəhruz müəllimə verirəm. Bəhruz Məhərrəmov. Buyurun.

**Bəhruz Məhərrəmov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox təşəkkür edirəm. Çox hörmətli sədr, əziz həmkarlar. Möhtərəm Prezidentin qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə daxil olmuş və bu gün birinci oxunuşda müzakirəmizə təqdim olunmuş Mülki Prosessual, Cinayət-Prosessual, Cəzaların İcrası məcəllələrində və "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanunda dəyişiklik layihəsinin əsas məqsədi vəkillik institutunun inkişafına dəstək vermək, Vəkillər Kollegiyasının fəaliyyətinin əsaslarını təkmilləşdirməkdir.

Bildiyiniz kimi, insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi Azərbaycan dövlətinin ali məqsədlərindən biridir. Ölkədə hüquq müdafiə fəaliyyətini peşəkarcasına həyata keçirməli olan müstəqil hüquqi təsisat olaraq əsas vəzifələri şəxslərin hüquqlarının, azadlıqlarının və qanunla qorunan mənafelərinin müdafiə edilməsindən və onlara yüksək keyfiyyətli hüquqi yardım göstərilməsindən ibarət olan vəkillik, əslində, dövlətin ali məqsədlərinin həyata keçirilməsində həlledici rol alan əsas institutlardan biridir. Bu mənada vəkillik təsisatının inkişafı hər zaman Ulu Öndər Heydər Əliyevin də, möhtərəm cənab Prezidentin də diqqətində olmuş, nəticədə istər vəkilliyin nüfuzunda, istərsə də göstərilən hüquqi xidmətlərin səviyyəsində daim yüksələn dinamika müşahidə olunmaqdadır.

Möhtərəm Prezidentin "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 2018-ci il 22 fevral tarixli Sərəncamına əsasən dövlət hesabına göstərilən hüquqi yardıma görə ödənilən haqq 3 dəfə artırılaraq 6 manata çatdırılmış, həmin yanaşma sonrakı dövrdə də davam etdirilmiş və dövlət başçımızın göstəri-

şinə müvafiq olaraq, Nazirlər Kabinetinin 2025-ci il 28 aprel tarixli qərarı ilə həmin vəsait 11 manata qaldırılmışdır. Dövlətin vəkilliyə xüsusi diqqəti bu sahəyə sistemli marağın da artmasına səbəb olmuş və nəticədə əgər 2017-ci ilin dekabr ayına qədər vəkil qurumlarının sayı 39 idisə, sonrakı dövrdə bu statistika 4 dəfə artmışdır, hazırda 143 büro fəaliyyət göstərir. Vəkilliyin artan nüfuzu digər sahələrdən peşəkar hüquqşünasların vəkilliyə marağının artmasına səbəb olmuş, öz müraciətləri əsasında, 87 keçmiş hakim və 28 hüquq elmləri doktoru qanunvericiliyin tələbləri rəhbər tutularaq imtahansız, birbaşa vəkilliyə qəbul olunub. Nəticə etibarı ilə əgər 2018-ci ilə qədər ölkədə 931 vəkil var idisə, hazırda 595 nəfəri qadın, 627 nəfəri isə bölgələrdə olmaqla 2771 nəfər vəkillik fəaliyyəti ilə məşğuldur.

Bu gün müzakirəmizdə olan layihə də məhz qeyd edilən tendensiyaların davamıdır. İlk növbədə bu dəyişiklik imkan verəcək ki, vəkil iştirak edən şəxs olduqda mülki prosesdə kassasiya instansiyasında, cinayət prosesində isə tutulduqda, haqqında həbs qətimkan tədbiri seçildikdə, xüsusi ilə ağır cinayət törətməsinə istinad edildikdə, cinayət təqibi cinayət məsuliyyətinə cəlb etmə müddətləri keçdikdən sonra həyata keçirildikdə, müddətli hərbi xidmət qulluqçusu olarkən təqsirləndirilən şəxs hesab edildikdə öz-özünü təmsil edə bilsin. Həmçinin bu dəyişiklik Vəkillər Kollegiyasının institusional formatının yenilənməsini nəzərdə tutur. Qurumun orqanlarının dairəsinə Vəkillərin İntizam Komissiyası, Vəkillərin İxtisas Komissiyası əlavə edilir. Hüquqi yardım mərkəzləri və tədris mərkəzləri təsis olunur. Eyni zamanda, kollegiya üzvlərinin ümumi yığıncağı, “vəkil sorğusu”, “vəkilin xidməti vəsiqəsi” kimi məfhumların normativ əsası

təkmilləşdirilərək yeni redaksiyada verilir.

Məlumdur ki, “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Qanunun 11-ci maddəsinə əsasən heç kəs 2 dəfədən artıq Vəkillər Kollegiyası Rəyasət Heyətinin sədri seçilə bilməz. Təbii ki, bu yanaşma əvvəllər ümumi qəbul edilmiş təcrübə idi. Lakin sonrakı dövrdə analoji təcrübəni bölüşən digər strukturlarda, məsələn, prokurorluq orqanlarında, ombudsman təsisatında adıçəkilən təcrübəyə son qoyulması fonunda Vəkillər Kollegiyasının artıq imtina edilmiş bir təcrübəyə söykənməsi ağlabatan sayıla bilməz. Məhz cari layihə ilə də müvafiq məhdudiyyətin aradan qaldırılması təklif olunur.

Təkmilləşdirilmə tədbirləri həmçinin vəkillik fəaliyyətinin həyata keçirilməsinin ümumi qaydalarına da şamil edilir. Bu sahədə bir sıra müddəalar, o cümlədən vəkillər barədə tətbiq edilən intizam tənbehləri dəqiqləşdirilir, həmçinin təklif edilir ki, vəkilin fəaliyyətinə xitam verilməsi Kollegiyanın Rəyasət Heyətinin qərarı ilə mümkün olsun. Həmin qərardan, eyni zamanda, inzibati tənbehlərdən, təbii ki, məhkəməyə şikayət verilə bilər. Həmçinin cari layihə dövlət qulluğuna qəbul edilməsi ilə əlaqədar vəkillik fəaliyyəti dayandırılmış şəxsin yenidən vəkil kimi fəaliyyət göstərməsinin hüquqi əsaslarını da müəyyən edir.

Hörmətli deputatlar, göründüyü kimi, kifayət qədər əhatəli bir layihədir, komitəmizdə geniş müzakirə olunub. Əhəmiyyətini və konseptual məqsədlərini nəzərə alaraq, dəstək verməyinizi xahiş edirəm.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Müzakirəyə keçirik. Siyavuş Novruzov. Siyavuş müəllim, buyurun.

**Siyavuş Novruzov**. Təşəkkür edirəm. Hörmətli xanım

sədr, hörmətli deputatlar, müzakirə etdiyimiz qanun layihəsi çox vacib olan qanun layihəsidir. Burada digər qanunlara əlavə və dəyişikliklər olmaqla yanaşı, xüsusi ilə vəkillər institutunun daha da təkmilləşdirilməsi, fəaliyyətinin genişləndirilməsi, vəkillik fəaliyyəti ilə məşğul olan insanlar üçün şəraitin yaradılması vacibdir. Bu, qanunda öz əksini tapıbdır. Hesab edirəm ki, çox düzgün olaraq Azərbaycanda vəkillik institutu genişlənir və cənab Prezidentin rəhbərliyi altında aparılan hüquqi islahatlar çərçivəsində Vəkillər Kollegiyası da öz sıralarında təmizləmə işi, həmçinin inzibati tədbirlər və digər məsələlərlə əlaqədar addımlar atır. Artıq qeyd olunduğu kimi, vəkillərin sayı da getdikcə artır. Hər bir hüquqşünasın ali məktəbdə təhsil aldığı dövrdə istər-istəməz elə birinci arzusu vəkil olmaq olur. Burada da vəkilliyə başlamaq müddəti, təhsil, hüquqşünas işləmək müddəti də azaldılır, məsələn, əvvəl 3 il idisə, indi 1 il müddətinə endirilir. Bu da vacibdir ki, əgər hüquqşünas kimi bir il stajı varsa, o, artıq vəkilliyə sənəd təqdim edə bilər.

İkinci məsələ. Vəkillər Kollegiyası fəaliyyətə başladıqdan sonra xeyli işlər görülüb və hesab edirəm ki, bu, davamlı olmalıdır. Vəkillik institutu insan hüquqlarının müdafiəsi sahəsində ən əsas institutlardan biridir. Çünki vətəndaşın pozulmuş hüquqlarının və yaxud vətəndaş pozduğu hüquqların bilavasitə qorunması, onun müdafiəsi ilə əlaqədar səbəbləri axtaran, ortaya çıxaran, müzakirə aparan bir təşkilatdır. Əfsuslar olsun ki, Azərbaycanda hələ köhnə ənənələr də qalıb. Birinci növbədə, vəkilin siyasi baxışı və siyasi düşüncəsi olmamalıdır. Vəkil hüquqi aspektə əsaslanıb, məsələnin hüquqi aspektdən, hüquqi cəhətdən ədalət mühakiməsinə uyğunluğu və uyğunsuzluğunu ortaya qoymalıdır. Biz bəzi hallarda görürük ki,

hüquq terminləri, hüququn əsasları, ədalət mühakiməsi kənarda qalır, müxtəlif siyasi partiyaların nümayəndələri öz firqə maraqlarından çıxış edərək, bu və ya digər şəkildə cinayət törətmiş şəxsin müdafiəsini öz firqə maraqları istiqamətinə yönəldirlər. Törətdiyi cinayəti kənara qoyub, onu faktlarla əsaslandırmağa, yaxud bu bunu törətməyib və yaxud da etməyib əvəzinə, hansı isə ittihamlarla başqa-başqa şəxslərin və bəzi hallarda dövlətin üzərinə gəlirlər. Təbii ki, bu, vəkillik institutunda yol verilən məsələ deyil. Mən hesab edirəm ki, belə hallar olduqda, təkrarlandıqda xəbərdarlıq olunmalıdır və lazımi inzibati tədbirlər görülməlidir.

Bir hissəsi mətbuatı bu işə qoşmaqla, öz yararsız fəaliyyətini mətbuatın hesabına doldurmaqla guya müdafiə etdiyi şəxsə bəraət almağa çalışır. Hesab edirəm, Vəkillər Kollegiyası bu məsələlərlə bağlı addımlar atır və bundan sonra da bu addımlar davamlı olmalıdır. Vəkilin funksiyası hüquqi faktları ortaya qoymaqla müdafiə etdiyi şəxsin günahsızlığını sübut etməkdir. Vəkilin funksiyası qəzetlərdə, internet televiziyalarında, Azərbaycanı satanların xaricdə yayımlanan televiziyalarında düzgün olmayan informasiyalar vermək deyil. Cinayət törədibsə, cəzası varsa, əgər onu müdafiə edib yüngülləşdirə bilirsənsə, iştirak et, yüngülləşdirə bilmirsənsə, artıq Azərbaycanda bu cür şantajlara yer yoxdur. Azərbaycan hüquqi dövlətdir və bu dövlətdə də qanunun aliliyi kimliyindən, hansı partiyanın üzvü olmasından, peşə fəaliyyətindən asılı olmayaraq, tətbiq olunmalıdır və tətbiq də olunur.

Vəkillər Kollegiyası Anar müəllimin rəhbərliyi ilə çox gözəl işlər görür. Ona görə də, bax, bu sahədə, hesab edirəm ki, gələcəkdə, bundan sonra da bu işlərin davam olunması zəruridir, vacibdir və heç nədən də çəkinmək lazım

deyil. O cür insanların hüquqi müdafiəyə heç mənəvi haqqı çatmır, vəkillik fəaliyyətindən uzaqlaşdırılmalıdırlar.

Təşəkkür edirəm. Qanun layihəsinə səs verəcəyəm.

**Sədrlik edən.** Sağ olun.

Fazil Mustafa. Buyurun.

**Fazil Mustafa**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli qonaqlar. Mən də hesab edirəm ki, burada çox hörmətli Bəhruz müəllim təqdim olunan qanun layihəsi ilə bağlı ətraflı izah verdi. Sadəcə, vəkillərin sayı 2700-ü keçməyibdir, həm də son illərdə vəkilliyin keyfiyyətində də xeyli artımlar olubdur. İcbari elm-təhsil metodologiyasının tətbiqi də vəkillərin peşəkar fəaliyyətinin də müəyyən dərəcədə nəzarət altında saxlanmasına imkan yaradır. Yəni bu prosesi keçməyən insanların vəkil kimi fəaliyyət göstərməsi məhdudlaşdırılır.

Bu qanun layihəsində kifayət qədər ciddi, köklü dəyişikliklərə yol verilir. Burada xüsusi ilə də vəkilliyə daxilolmanın müəyyən dərəcədə asanlaşdırılmasını da görürük. Çünki əvvəllər vəkilliyə 3 il müəyyən hüquqşünas təcrübəsi olan şəxslərin daxil olması nəzərdə tutulurdusa, indi artıq bir il müddət nəzərdə tutulur ki, bu da olduqca doğru addımdır. Çünki vəkillik elə bir peşədir, praktik fəaliyyət göstərəndən sonra artıq öz-özlüyündə yetişən bir peşəkar insan modelindən söhbət gedirsə, buna imkan yaratmaq lazımdır ki, çox sayda insan bu sahəyə yönəlsinlər. Çünki Azərbaycanda, əslində, vəkillərin sayı, – indi rəqəm nə qədər göstərilsə də, – çox azdır. Xüsusi ilə də bölgələrdə vəkil ciddi bir problemdir. Elə bölgələr var ki, orada hətta bir-iki vəkil tapmaq olduqca çətindir. Ona görə də bu məsələnin həlli istiqamətində addımlar atılması, qanunvericilikdə də dəyişiklik edilməsi doğru bir yanaşmadır və mən bunu təqdir edirəm. Burada xüsusi ilə

də ali hüquq təhsili, hüquqşünas ixtisası olanların, elm və təhsil müəssisələrində hüquq sahəsində bir ildən az olmayan müddətdə fəaliyyət göstərən vəkillərin bu prosesə cəlb edilməsi olduqca müsbət bir tendensiyadır.

Burada bir şeyi də qeyd etmək lazımdır. Bizə müvafiq qurum tərəfindən gender bərabərliyi haqqında məlumat gələndə orada bir nüans diqqətinizi cəlb etmişdisə, məişət zorakılığına məruz qalmış insanların müdafiəsini Vəkillər Kollegiyası çox vaxt könüllü şəkildə, pulsuz əsaslarla təmin edirdi. Eyni zamanda, çox sayda aztəminatlı insanlar, ailələr var ki, onlara da bu dəstək verilirdi və şəhid ailələrinə, qazilərə də bu cür pulsuz, ödənişsiz vəkil xidmətini təmin edirdi. Bu, əslində, kollegiyanın ictimaiyyətlə çox gözəl bir kommunikasiya qurmasının nəticəsidir və bu vacibdir. Çünki hər adamın buna imkanı çatmaya bilər.

Digər tərəfdən, vəkillərə kassasiya instansiyası məhkəmələrində özünü müdafiə etmək imkanının verilməsi də çox yaxşı, müsbət bir dəyişiklikdir. Çünki hansı isə bir mülki, ya başqa, kommersiya xarakterli işində vəkil özünə bir vəkil tutmaq məcburiyyətində qalmalı idi. Bu baxımdan belə bir imkanın yaradılması önəmlidir. Amma mən burada bir məsələyə diqqət yetirmək istəyirəm. Biz prinsiplərdə də dəyişiklik edirik. Bu prinsiplərdə vəkillərdən həm də şəffaflıq prinsipinə əməl etməsini tələb edirik. Amma sonrakı maddələrdə biz göstəririk ki, vəkil öz peşə sirri ilə, peşə fəaliyyəti ilə bağlı dindirilə bilməz. Yaxud da peşə fəaliyyəti ilə bağlı ona hansısa bir təzyiq göstərilə bilməz. Əslində, vəkilliyin bir problemi də o idi. Bəzi vəzifəli şəxslər, dövlət qurumları hansı isə bir prosesdə, peşəkar bir rəqabətdə, peşəkar bir müzakirədə üstünlük qazana bilməyəndə vəkilləri sıxışdırmağa başlayırdılar. Bir çox hallarda vəkillərin prosesdə iştirakına da əngəl

yaradırdılar. Baxmayaraq ki, son illərdə bu tendensiya ortadan qalxıb, amma vəkilləri qorumaq həm də dövlətin borcudur. Dövlətin öz ədalət mühakiməsinin həyata keçirilməsinin vacib elementi kimi qoruması vacibdir. İndi ona görə də vəkildən şəffaflıq prinsipinə əməl etmək tələbi bir qədər anlaşılmır. Mənə elə gəlir ki, orada elə ədalət var, insan hüquqlarına hörmət var, humanizm, hər şey var. Amma elə məsələlər var, deyək ki, müvəkkilin sirri ilə bağlı məsələdir, vəkil onu hər hansı bir şəkildə, şəffaf şəkildə göstərə bilməz.

Ümumiyyətlə, mən bu dəyişikliyi müsbət bir tendensiya hesab edirəm və qanun layihəsinə səs verəcəyəm. Ümid edirəm ki, dəyişikliklərin vəkilliyin inkişafında, kollegiyanın fəaliyyətində də olduqca ciddi təsiri olacaqdır.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Zahid Oruc. Buyurun.

**Zahid Oruc.** Təşəkkür edirəm. Hörmətli sədr, dəyərli millət vəkilləri. Qeyd olunduğu kimi, bu, insan hüquq və azadlıqlarının təminatına, o cümlədən vəkillik institutunun inkişafına xidmət edən layihədir və bir neçə qanunvericilik aktında edilməsi istənilən dəyişikliklərdir. İndiki halda xatırlatmaq yerinə düşər ki, 2017–2019-cu illərdə cənab Prezidentin fərmanları ilə hüquq sisteminin təkmilləşdirilməsi, həm də ədalət mühakiməsi sistemində dekriminallaşma ilə bağlı addımlar atılmış və böyük bir yol keçilmişdir. Həmin fərmanlarda ən mühüm institut kimi vəkilliyin inkişafı ilə bağlı xüsusi tapşırıqlar nəzərdə tutulurdu. Düşünürəm ki, kollegiyanın rəhbəri Anar Bağırovun burada iştirakı da imkan verir ki, bəlkə biz daha dəqiqliklə deyək, ən mühüm dəyişikliklər məhz bu sistemdə baş verdi. Avropa Şurasında əhalinin 100 min

nəfərinə düşən vəkillərin sayına görə biz qat-qat geri qalırdıq və bu, öz-özlüyündə hüquq sisteminin durumu, ədalət mühakiməsinin vəziyyəti, hüquqi təminat və digər məsələlərə də təsir göstərirdi. Azərbaycanla bağlı müxtəlif qara reytinqlər tərtib edənlər də bundan maksimum dərəcədə manipulyativ olaraq istifadə edirdilər.

O cümlədən bu dövr ərzində nəyi gördük? Profil komitəsi olaraq müxtəlif tədbirlərdə birgə işlədiyimizə, çalışdığımıza görə görmüşük. Adam prinsipialdır, vəkilliyin mənafelərini, təbii ki, müxtəlif dövlət qurumları ilə münasibətlərdə, özü də çox ciddi bir şəkildə qorumağa çalışır. Başa düşüləndir ki, hər bir hakimiyyət qurumu müxtəlif məsələlərdə müəyyən, başqa mənafeləri də ortaya qoyur. Bu, çox önəmlidir ki, vəkillik institutunun inkişafını hər bir Azərbaycan insanı üçün və bəzən də gələcəkdə hər hansı bir məmur da ona ehtiyac duyanda göstərə bilir. Andiçmə mərasimləri və sair... Yəni bu ritualları biz yaratmamışıq, 1919-cu ildən meydana gələn bir təsisatdır, 100-dən çox yaşı var. O, bütün xarici məkanda, xüsusi ilə də Avropa ölkələrində böyük bir inkişaf yolu keçib. Belə tədbirlərin özü də dövlət institutları arasında xüsusi yer tutur. Beynəlxalq əlaqələr, atributlaşma, yəni söhbət onların bütün o dəyərlər sisteminin, bir institut kimi keçmiş dövrlə indiki dövr arasında varisliyin qorunub saxlanmasından gedir.

Burada vəkilliyə qəbulla bağlı qeyd olundu. Proses şəffafdır, onların sayı indi 2700-ə çatıb. Amma hörmətli Siyavuş müəllim də, Fazil müəllim də qeyd etdi ki, coğrafi paylanma kifayət qədər, yəni arzu etdiyimiz səviyyədə deyil. Qazax, Oğuz, Zərdab rayonlarında cəmi bir və ya iki nəfərdir. Bu halda, biz götürüb baxsaq ki, o ərazilərdə ildə nə qədər cinayət işi və yaxud qeyri-prosessual

xarakterli hallar baş verir, o halda həmin insanlarımızın hüququ nə dərəcədə peşəkar təmin olunubdur deyə bilərik.

Vəkilliyə ödənişlərlə bağı məsələ. Burada rəqəmlərdən danışıldı. İki saatı 6 manat idi. Əgər 6-8 saat bir vəkil hüquqlarını qoruduğu insana vaxtını ayırırdısa, bu, bir gündə 40 manatı keçmirdi. Rəqəm, əlbəttə ki, mühüm bir həddə dəyişdi. Ancaq il ərzində bu rəqəm 5 milyon manatdan yuxarı deyil. Əminəm ki, bu məsələdə də qarşıdakı dövrdə dəyişikliklər daha çox olacaqdır.

Burada vəkillərin həbsi ilə bağlı məsələyə toxunuldu. Həqiqətən də, vəkilləri dövlət əleyhinə yönləndirmək üçün onların üzərində xarici casus mərkəzləri, bəzi beynəlxalq təşkilatlar daim işləyirlər, o fəaliyyətə də davam edirlər. Ona görə də Siyavuş müəllim haqlı olaraq dedi ki, müxalifətin sanki özünün bir vəkillər institutu olub, siyasiləşmə üzərindən onların da bir qismini Avropa məkanına aparıb çıxarıblar, onlar da o terror mediasında gündəlik çıxışlar edirlər.

Toxunulmazlıq məsələsində əgər ABŞ-dən danışırlarsa, peşə fəaliyyətinə görə deyil, ancaq onlar da tam toxunulmaz deyil, əgər cinayət törədiblərsə, həbs olunurlar. Bütövlükdə götürəndə, məncə, əsas məsələləri qeyd etdim. O cümlədən bölgədə artıq Ermənistan, Gürcüstan və Azərbaycanda vəkillərin sayı ilə bağlı bir müqayisəni də demək istəyirəm. Rəqəmləri indiki halda söyləmək çox da yerinə düşməyəcək. Yalnız onu vurğulayaq ki, Ermənistanda 100 min nəfərə düşən vəkil sayı 61-dir, Gürcüstanda 123-dür. Düşünürəm ki, qalib Azərbaycanda hüquqi sistemin də inkişafı üçün biz yalnız rəqəm dəyişiklikləri deyil, daha artıq dərəcədə keyfiyyət, hüquqların qorunması, Azərbaycan insanının məmnuniyyəti, məhkəmə sistemindən razılıq və sair üçün çalışmalıyıq. Yəni bu, yalnız

bir sistemin deyil, bütün hakimiyyət orqanlarının birgə vəzifəsidir. Əminəm ki, bu layihə işlərin xeyrinə olacaqdır. Biz ona səs verəcəyik.

Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Aydın Mirzəzadə. Buyurun.

**Aydın Mirzəzadə**. Təşəkkür edirəm, xanım sədr. Bizə təklif edilən dəyişikliklərlə tanışlıq onu göstərir ki, bu dəyişiklik Azərbaycanda vəkillik institutunun nüfuzunun artması, vəkillərin sərbəst, şəffaf, qanunu ali tutaraq fəaliyyət göstərməsi üçün geniş imkanlar yaradır. Eyni zamanda, onların həm imkanlarını genişləndirir, həm də məsuliyyət çərçivəsini göstərir.

Azərbaycanda vəkillik institutunun böyük bir tarixi vardır və son dövrlərdə Azərbaycanda vəkillərin, vəkil təsisatının cəmiyyətdə nüfuzunun artması üçün çoxlu işlər görülür. Vəkillər Kollegiyasına üzvlük üçün vaxtaşırı keçirilən imtahandan keçən onlarca, yüzlərcə gənc Vəkillər Kollegiyasının üzvü olaraq vətəndaşların hüquqlarının qorunmasında böyük iş görürlər. Vaxtı ilə Azərbaycanda cəmi 700-800 nəfər vəkil var idisə, indi, qısa bir müddət ərzində son məlumata görə 2700 vəkil var və bu say durmadan artır. Eyni zamanda, sadəcə, ərizə ilə deyil, əlbəttə ki, bu, test üsulu ilə ən savadlı, hazırlıqlı gənclərin və yaxud keçmiş hüquq mühafizə orqanı işçilərinin imtahanla qəbulu ilə bağlıdır. Edilən dəyişikliklərin vəkillik peşəsinin nüfuzunun artmasına, vəkillərin sərbəst fəaliyyətinə kömək edəcəyini düşünürəm. Dəyişikliklərə səs verəcəyəm.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Erkin Qədirli. Buyurun.

**Erkin Qədirli**. Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Qanun layihəsi önəmlidir və yaxşıdır, komitədə dəstəkləmişdim, plenar iclasda da lehinə səs verəcəyəm. Söz almağım yalnız burada verilən bir şərhlə bağlı şərh vermək istəyimdən irəli gəldi. Hüquq peşəsini siyasətdən tamamilə ayırmaq olmur. Düzdür, bəzi hüquq işləri var ki, onlar da aydındır, institusional olaraq siyasətdən ayrılır; hakimlər, müstəntiqlər, prokurorlar. Amma vəkillik çox özünəməxsus bir işdir. Vəkillik dövlət qulluğu deyil, vəkillik özünü idarə edən bir qurumdur. Ona görə vəkillərin üzərinə siyasi şərh verməkdən, siyasi mənsubiyyətdən qıraqda durmaq kimi bir tələb qoymaq, buna görə onları qınamaq özlüyündə doğru deyil. Ayrı məsələdir ki, bəli, hansı isə vəkil, ola bilsin, apardığı məhkəmə işində məhkəmə prosesi zamanı qanunvericilik-dən qırağa çıxır, siyasi şərhlər və yaxud tələblər irəli sürür. Amma bu, artıq hakimin özünün nəzarətində olan bir məsələdir. Hakim ona bununla bağlı irad bildirə bilər. Çünki təcrübədən doğur, bəri başdan deyim, bu, bir tək bizim ölkənin problemi deyil. Ümumilikdə, vəkillərlə bağlı hətta akademik ədəbiyyatda, xüsusi ilə inkişaf etmiş ölkələrdə bu, çox geniş yayılıb, "Case lawyering" deyirlər ona ingiliscə, bir də "Cause lawyering". Yəni bu, iki fərqli vəkillik strategiyasıdır. "Case lawyering" bildiyimiz ənənəvi vəkillikdir, yəni işdə vəkillik. Yəni vəkil məh-kəmədə ancaq müştərinin haqq və mənafelərini qorumaqla məşğuldur. Amma bir də var "Cause lawyering", yəni vəkil artıq məhkəmə prosesindən qırağa çıxaraq, məh-kəmə zalında deyil, qıraqda, məsələn, mətbuatda bəyanat, müsahibə verir, nə bilim, mühazirə oxuyur, konfransda çıxış edir. Məhkəmədə müdafiə etdiyi işlə bağlı o, sosial və yaxud siyasi mahiyyətini açmağa girişir. Ona "Cause

lawyering" deyirlər.

Açığı, bəli, hüquq ədəbiyyatında bunu bəyənənlər də, bəyənməyənlər də var. Sırf bir praktik hal kimi baxanlar da var, yəni neytral. Bununla bağlı birmənalı yanaşma yoxdur. Çünki "Cause lawyering" artıq ənənəvi vəkillik deyil. Yəni vəkil, dediyim kimi, məhkəmədə gedən işlə bağlı siyasi şərhlər verə bilər, hesab edə bilər ki, məhkəmə ədalətsiz aparılır, qanuna, Konstitusiyaya ziddir. Yaxud vəkilin bu kimi bəyanatlar, məhkəmə zalından qıraqda belə bir qərar verməyə haqqı olmalıdır. Buna görə vəkilləri qınamaq və yaxud belə şərh verdiklərinə görə onlara qarşı inzibati tənbeh görməyi və onunla bağlı çağırış etməyi xüsusi ilə doğru saymıram. Yəni dediyim kimi, arzulanan bir şey deyil. Bəli, könül istərdi, hüquqşünaslar, ümumiyyətlə, siyasətçi olmayan hüquqşünaslar, – aydındır, elə hüquqşünaslar var, siyasəti bir peşə olaraq seçir, – vəkildirsə, əlbəttə, arzulanan odur ki, o, çox da siyasətin içinə girməsin, məhkəmədə öz peşə nüfuzuna xələl gətirməsin. Amma bu, həyatdır, heç bir ölkədə bunun qarşısını almaq tamamilə mümkün olmayıb və hansı isə bir qanunvericilikdə heç belə bir məqsəd kimi də qarşısında qoyulmur.

Bəli, biz anqlosakson ölkə deyilik. Anqlosakson ölkələrdə hakimlər məhkəmə qərarından, bir də görürsən, siyasi şərhlər verə bilir. Ona "obiter dictum" deyirlər, sözgəlişi deyilən. Hətta bədii ədəbiyyata girib oradan istinadlar verə bilir. Amma german hüquq sisteminin ənənəsində hakimlər və vəkillər, bir qayda olaraq, belə şeylərdən uzaq dururlar. Çünki bu peşənin ənənəsi başqadır. Ona görə uzun danışdımsa, çox üzr istəyirəm. Yalnız bununla bağlı şərh vermək istəyirdim ki, indi vəkillər məhkəmədə baxılan işlərlə bağlı mətbuata və

yaxud başqa yerlərdə siyasi şərhlər verirlərsə, onunla razılaşıb-razılaşmamaq olar. Yeri gəlmişkən, vəkil siyasi şərh verməyə girişirsə, demək, o, bir qədər öz müdafiəsini zəiflədir. Ona görə o baxımdan onlara siyasi cavab vermək olar. Amma qınamağı və yaxud inzibati tənbeh tətbiq etməyə çağırmağı doğru saymıram.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Erkin müəllim. Siz həmişə danışanda biz özümüzü tələbə kimi hiss edirik. Çünki bir xeyli yeni məlumatlar da çatdırırsınız. Ancaq mən düşünürəm, Siz deyirsiniz, arzu olunan odur ki, vəkil heç bir siyasətlə məşğul olmasın. Elə biz də, Siyavuş müəllim də birinci dedi, onu vurğulayırdıq, arzu olunan odur ki, vəkil elə sırf öz vəzifəsi ilə məşğul olsun.

Bəhruz müəllim, çıxış etmək istəyirsiniz? Buyurun.

**Bəhruz Məhərrəmov**. Hörmətli sədr, çox qısa danışacağam. Şəxsən Siz özünüz başda olmaqla bütün həmkarlarımıza vəkillik institutuna diqqətinə, o cümlədən komitə sədrlərimiz Fazil müəllimə, Siyavuş müəllimə, Zahid müəllimə, dəyərli həmkarlarımız Aydın müəllimə, Erkin Qədirliyə müzakirələrdə səmərəli iştiraklarına görə təşəkkür edirəm.

Hörmətli Siyavuş müəllimin qaldırdığı, eyni zamanda, Zahid müəllimin də narahatlığını bölüşdüyü məsələlərə xüsusi diqqət çəkmək istəyirəm. Siz də vurğuladığınız kimi, həmkarlarımız qaldırdıqları məsələlərdə kifayət qədər haqlıdırlar. Amma eyni zamanda, yüksək diqqətinizə çatdırmaq istəyirəm ki, cari layihə ilə nəzərdə tutulan institusional islahat bu problemin həllində önəmli rol oynayacaq. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Bəhruz müəllim.

Hörmətli həmkarlar, mən də istəyirəm bir-iki söz

deyim. Mən çox istərdim, burada vurğulansın ki, Vəkillər Kollegiyası Milli Məclislə çox sıx işləyir. Vəkillər Kollegiyasının üzvləri, vəkillərin böyük bir hissəsi bir çox rayona gedirlər, seçicilərimizə, Azərbaycan xalqına xidmət göstərirlər. Mən sizə deyim, bu, həm insanlara çox kömək olur, həm də bizim seçicilərimiz görürlər ki, millət vəkilləri, bax, bu işi kollegiya ilə bir yerdə görürlər. Mən bu istiqamətdə görülən işlərə görə sizin adınızdan, Anar müəllim, Sizə və kollegiyanıza öz minnətdarlığımı bildirirəm.

Daha çıxış etmək istəyən yoxdur, mən istərdim, məsələni səsə qoyaq, münasibətimizi bildirək. Anar müəllim, Siz söz istəyirsiniz, mən sonra Sizə söz verəcəyəm.

Hörmətli həmkarlar, məsələni səsə qoyuram. Buyurun, qanun layihəsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 15.48 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Anar müəllim, buyurun.

**Anar Bağırov,** *Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri.*

Çox hörmətli xanım sədr, hörmətli millət vəkilləri, xanımlar və cənablar. Əvvəla, mən bizim də bu müzakirələrdə iştirak etdiyimizə görə, bu şəraitə, dəvətə və təbii ki, mənə söz verdiyinizə görə Sizə minnətdarlığımı bildirirəm.

Əslində, bu gün müzakirəyə çıxarılan layihə Azərbaycan vəkilliyi üçün xüsusi əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, Azərbaycan postsovet məkanında ilk dövlətdir ki, hələ Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1999-cu ildə vəkillik müstəqil peşə kimi tanınmışdır. Nəzərə alın ki, bu gün də postsovet məkanında heç də bütün ölkələrdə vəkillik müstəqil deyil. Ulu Öndər Heydər Əliyevin uzaqgörənliyi, müdrikliyi ondan ibarət idi ki, vəkilliyin məhz müstəqil peşə kimi uğurlu, səmərəli fəaliyyəti öndə tutulmuşdu. Nəzərə almaq lazımdır ki, məhz yeni qanun qəbul olunandan sonra Azərbaycan vəkilliyində köklü islahatlar başladı. 2004-cü ildə yeni Vəkillər Kollegiyası təsis edildi. Təsəvvür edin ki, 1999-cu ildə ölkəmizdə vəkillərin sayı 300 nəfərə yaxın idi. Yəni son illər, son 25 il ərzində ölkədə vəkillərin sayı xeyli artıb və təbii ki, vəkillik bu gün ölkədə çox mühüm bir funksiyanı icra edir.

Məlum olduğu kimi, bu il 30 illiyini qeyd etdiyimiz əsas qanunumuzun 61-ci maddəsində hər kəsin hüquqi yardım almaq hüququ təsbit edilmişdir. Əslində, bu, dövlətimizin vətəndaşları qarşısında öz üzərinə götürdüyü bir pozitiv öhdəlikdir və bu pozitiv öhdəliyin icrasında vəkillik bilavasitə və fəal iştirak edir.

Yeri gəlmişkən, son illər ərzində də vəkillikdə aparılan islahatlar, inkişaf onu deməyə əsas verir ki, vəkillik ölkədə aparılan müasir məhkəmə-hüquq islahatlarında fəal rol oynamağa çalışır. Təbii ki, dövlətin dəstəyi olmadan bütün bu işlərin görülməsi qeyri-mümkün olardı. Məhz 2018-ci il fevralın 22-də möhtərəm cənab Prezidentimizin vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında imzaladığı Sərəncamın preambulasında qeyd edilmişdir ki, "güclü və nüfuzlu vəkillik təsisatı" olmadan yüksək

keyfiyyətli hüquqi yardımın göstərilməsi, vətəndaşların hüquq və azadlığının təmin edilməsi, ədalət mühakiməsinin səmərəli fəaliyyəti qeyri-mümkündür. Bu gün möhtərəm Prezidentimizin sərəncamının preambulasında qeyd edilən bu sözlər bizim bütün vəkil bürolarında ən görkəmli yerlərdə şüar kimi asılmışdır. Həmin adıçəkilən sərəncam vəkilliyin inkişafında bir yol xəritəsi rolunu oynamışdır. Məhz bu sərəncamdan sonra bizdə vəkillərin sayı kəskin artırıldı, büroların sayı artırıldı. Əsas odur ki, Azərbaycan gəncləri vəkilliyə üz tutdular. Əvvəllər, misal üçün, bir qayda olaraq, bizim böyük hörmət bəslədiyimiz yaşlı nəslin nümayəndələri vəkilliyə üz tuturdular. Bu gün isə dövlət qurumlarında çalışan hüquqşünaslar belə vəkilliyə üz tuturlar. Düzdür, vəkillərin sayı bəlkə də bizi tam qane etmir. Mən də razıyam ki, vəkillərin sayı azdır, hələ artırılmalıdır. Ancaq nəzərə almaq lazımdır, bu problemin kökündə duran məsələlərdən biri odur ki, ölkədə hüquqşünasların sayı artır. Yəni biz adıçəkilən ölkələrlə müqayisə etmişik və məlum olur ki, həmin ölkələrdə məzun hüquqşünasların sayı da vəkillərdən bir neçə dəfə çoxdur.

Burada əsas məsələlərdən biri odur ki, biz çalışırıq, ən keyfiyyətli, ən savadlı, təhsilli insanlar gərək vəkil olsunlar. Bizdə çox şəffaf və bir neçə mərhələli qəbul prosesi var. Yazılı test imtahanı var, şifahi müsahibə var, tədris var. Yəni biz çalışırıq ki, vəkillər daim peşə hazırlıqlarını artırsınlar, keyfiyyətli hüquqi yardım göstərsinlər.

Çox hörmətli Sahibə xanım, məhz Sizin təşəbbüsünüzlə biz bir neçə ildir ki, bölgələrdə və Bakıda Milli Məclisin hörmətli üzvlərinin iştirakı ilə hüquqi yardım aksiyaları keçiririk. Yeri gəlmişkən, məlumat verim ki, yalnız bu il Sizinlə birgə Şəmkirdə seçicilər üçün keçirdiyimiz aksi-

yadan sonra Milli Məclisin 15 nəfər deputatı bu aksiyalara qoşulublar. Mən hesab edirəm ki, bunun çox böyük əhəmiyyəti var. Çünki insanların bölgələrdə hüquqi problemlərinin sivil yolla, yəni hüquqi yardımdan istifadə etməklə həlli, əslində, birmənalı olaraq müəyyən dərəcədə o insanların narazılığını və sosial gərginliyi aradan qaldırır. Mən öz adımdan və ölkəmizin vəkil korpusu adından bəyan edirəm ki, biz bundan sonra da bu tədbirləri hər zaman davam etdirməyə hazırıq.

Çıxışımın sonunda bir məsələyə toxunmaq istərdim. "Konstitusiya və Suverenlik İli"ndə möhtərəm cənab Prezidentin təklif etdiyi qanunumuzda edilən bu dəyişikliklərin qəbulu, əslində, vəkilliyə böyük bir dəstək olacaqdır və zənnimcə, vəkilliyin daha da səmərəli və effektiv fəaliyyətinə bütün lazım olan şərait yaradılacaqdır.

Çox sağ olun. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Anar müəllim. Mən onu da qeyd edim ki, Sizinlə birgə işləmək tək mənim üçün deyil, bizim bütün deputatlar üçün çox rahatdır, çünki Siz, Vəkillər Kollegiyasının vəkilləri öz işinizi peşəkar səviyyədə görürsünüz.

Hörmətli həmkarlar, indi Anar müəllim onu vurğuladı, mən layihə demirəm, ancaq bu, elə-belə ortaya çıxmadı. Şəxsən Milli Məclisin sədri kimi mənə gələn məktubların bir çoxunun məzmunu və mövzusu elə vəkillərin işi ilə bağlı idi. Ona görə də mən Anar müəllimlə əlaqə saxladım və dedim, gəlin belə bir şey edək, yəni rayonlara gedib vəkillərlə bağlı bəzi məsələlər ki seçiciləri narahat edir, məhz bu məsələlərə baxaq, araşdıraq. Yenə də mən Sizə bütün deputatların adından öz minnətdarlığımı bildirirəm. Çox sağ olun.

Hörmətli həmkarlar, biz öz işimizə davam edirik. 10-cu

məsələyə keçirik. Bu, "İpoteka haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu məsələyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi baxıb. Azər müəllim, mən Sizə söz verirəm. Buyurun, bununla bağlı məlumat verin.

**Azər Əmiraslanov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Birinci oxunuşda müzakirəyə təqdim etdiyimiz qanun layihəsi ipoteka münasibətlərində hüquqi mexanizmlərin təkmilləşdirilməsinə xidmət edir. Qanun layihəsi ilə bağlı 3 əsas məqamı qeyd etmək istərdim.

Birincisi, layihədə üstünlük hüququnun dəqiqləşdirilməsidir. Layihəyə əsasən ipoteka saxlayanlar arasında tələblərin ödənilməsində üstünlük hüququnun dəyişdirilməsi yalnız notariat qaydasında təsdiq edildikdə qüvvəyə minəcəkdir. Bu, tərəflər arasında razılaşmaların hüquqi qüvvəsini artırır və mübahisəli halların qarşısını alır.

İkincisi, dövlət qeydiyyatı mexanizmi ilə bağlıdır. İpoteka tələblərinin ödənilməsində üstünlük hüququnun dəyişdirilməsi əlavə dövlət qeydiyyatına alınmalıdır. Bu, dəyişdirilmiş üstünlük hüququnun daşınmaz əmlakın dövlət reyestrində tanınması və təsdiq edilməsi anlamına gəlir. Bu yenilik ipoteka bazarında şəffaflığı artıracaq, həm də ipoteka saxlayanların hüquqlarının qorunmasına əlavə təminat yaradacaq.

Üçüncüsü, dövlət rüsumunun ödənilməsi qaydasının nəzərdə tutulmasıdır. Layihədə ipoteka üzrə əlavə qeydiyyat hallarında rüsumların hansı subyekt tərəfindən ödənilməsi aydın şəkildə göstərilir. Əgər ipoteka üstünlüyü bir kreditordan digərinə keçirsə, dövlət rüsumunu artıq həmin hüququ əldə edən ipoteka saxlayan ödəyəcəkdir.

Hörmətli həmkarlar, bu dəyişikliklər ipoteka münasi-

bətlərində hüquqi müəyyənliyi artıracaq, bankların və kreditorların maraqlarını qoruyacaq, vətəndaşların isə ipoteka əməliyyatlarında daha şəffaf və etibarlı mexanizmlərdən faydalanmasına imkan verəcəkdir.

Sizi qanun layihəsini birinci oxunuşda dəstəkləməyə dəvət edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Azər müəllim. Ətraflı məlumat verdiniz və görünür, heç kimin sualı yoxdur, müzakirəyə yazılan da yoxdur. Ona görə mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 15.58 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik. Bu, Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Əminə xanım Ağazadəyə söz verirəm. Əminə xanım, buyurun.

**Əminə Ağazadə,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun. Hörmətli sədr, hörmətli millət vəkilləri. Təqdim olunan qanun layihəsi Azərbaycan Respublikasının Rəqabət Məcəlləsinin qüvvəyə minməsi ilə bağlı

hazırlanmışdır.

Bildiyimiz kimi, 2024-cü il iyulun 1-dən etibarən Rəqabət Məcəlləsi qüvvəyə minmiş və bununla da "Antiinhisar fəaliyyəti haqqında", "Haqsız rəqabət haqqında" və "Təbii inhisarlar haqqında" Azərbaycan Respublikasının qanunları öz qüvvəsini itirmişdir.

Yeni Rəqabət Məcəlləsi bazarda sağlam rəqabətin təmin olunması, qiymətlərin optimallaşdırılması və inhisara qarşı mübarizə istiqamətində əvvəlki qanunvericilikdən fərqli olaraq bir sıra mühüm yeniliklərin əsasını qoymuşdur.

Məcəllədə ilk dəfə olaraq "şaquli və üfüqi sazişlər", "hökmran mövqe", yüksək və aşağı inhisar qiymətləri, rəqabət komissiyası, rəqabət orqanı və digər anlayışlar hüquqi şəkildə müəyyən edilmişdir. Bununla yanaşı, sənəddə bazar subyektlərinin rəqabət sahəsində vəzifə və hüquqları, rəqabəti məhdudlaşdıran sazişlər, haqsız rəqabət halları, dövlət nəzarəti tədbirləri, eləcə də qanun pozuntularına görə məsuliyyət mexanizmləri də öz əksini tapmışdır. Bu səbəbdən təqdim edilən qanun layihəsi Azərbaycan Respublikasının Cinayət Məcəlləsində uyğun dəyişikliklərin edilməsini nəzərdə tutur. Xüsusi ilə insanlıq hərəkətləri və rəqabəti məhdudlaşdırma maddəsinin həm adı, həm də dispozisiyası yeni Rəqabət Məcəlləsinin müddəalarına uyğunlaşdırılmışdır.

Təklif edilən dəyişikliklərə əsasən Cinayət Məcəlləsinin 199-cu maddəsinin qeyd hissəsində "xeyli miqdar", "külli miqdar" və "xüsusilə külli miqdar" anlayışlarına da yeni təriflər verilmişdir.

Hörmətli həmkarlar, bu dəyişikliklər rəqabət mühitinin daha da şəffaf və ədalətli formalaşmasına, eləcə də iqtisadiyyat fəaliyyəti sahəsində inhisarçılıq meyillərinin qar-

şısının alınmasına xidmət edəcəkdir.

Həmkarlarımdan qanun layihəsini dəstəkləmələrini xahiş edirəm.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Əminə xanım.

Hörmətli həmkarlar, çıxışa heç kim yazılmayıb. Mən məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin. Qanun layihəsi birinci oxunuşda səsə qoyulur.

| **Səsvermənin nəticələri** | (saat 16.01 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim gündəliyimizdə 2 məsələ qalır. Hər iki məsələ də ikinci oxunuşda olan qanun layihələridir. Növbəti məsələ 12-ci məsələdir. Bu, "Tibbi sığorta haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bilirsiniz ki, layihəyə Səhiyyə komitəsində baxılmışdır. Mən ona görə hörmətli Əhliman müəllimdən xahiş edəcəyəm, məlumat versin. Əhliman müəllim, buyurun.

**Əhliman Əmiraslanov,** *Milli Məclisin Səhiyyə komitəsinin sədri.*

Çox hörmətli Sahibə xanım, hörmətli həmkarlar. Milli Məclisin 2025-ci il 30 sentyabr tarixli plenar iclasında "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci

oxunuşda müzakirə edilərək yekdilliklə qəbul edilmişdir.

Qanunun əsas məqsədi cəzaçəkmə müəssisələrində cəza çəkən insanların icbari tibbi sığorta ilə əhatə olunmasıdır. Müzakirələr zamanı deputat həmkarlarımdan Zahid Oruc, Siyavuş Novruzov, Razi Nurullayev, Pərvanə Vəliyeva layihə ilə bağlı fikirlərini söyləmiş və qanun layihəsini dəstəkləmişlər. Müzakirələrdə iştirak etmiş deputat həmkarlarıma təşəkkürümü bildirirəm.

Eyni zamanda, həmkarlarım ölkəmizdə səhiyyə və icbari tibbi sığorta sahəsində mövcud olan bəzi problemləri də səsləndirmişlər.

Səhiyyə Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin rəhbərləri ilə qaldırılan məsələlər müzakirə edilmiş, problemlərin həlli istiqamətində müvafiq tədbirlərin görülməsi nəzərdə tutulmuşdur.

"Tibbi sığorta haqqında" Qanunda təklif olunan dəyişikliklər son dərəcə vacib və humanist dəyişikliklərdir. Bu qanunun qəbul edilməsi cəzaçəkmə müəssisələrində cəza çəkən insanlara göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşmasına xidmət edəcəkdir.

Hörmətli həmkarlar, qanun layihəsini ikinci oxunuşda da dəstəkləməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Əhliman müəllim, çox sağ olun.

Hörmətli həmkarlar, bu, ikinci oxunuşdur. Bilirsiniz, qanun layihəsinə əsas kimi səs verməliyik. Mən indi qanun layihəsini əsas kimi səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 16.03 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə keçirik. Ancaq çıxış edən yoxdur. Bilirsiniz ki, ikinci oxunuşda qanun layihəsini maddələr üzrə səsə qoymalıyıq. Bu qanun layihəsində 2 maddə var. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 16.04 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, maddə qəbul edildi.

İndi isə mən 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 16.04 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

2-ci maddə də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 16.05 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim növbəti məsələmiz Vergi Məcəlləsində və "Gömrük tarifi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Məsələyə yenə də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Azər müəllim, mən Sizə söz verirəm. Buyurun.

**Azər Əmiraslanov.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Müzakirəyə təqdim etdiyimiz qanun layihəsində Vergi Məcəlləsində və "Gömrük tarifi haqqında" Qanunda dəyişikliklərin edilməsi təklif olunur. Layihə sənaye parkı rezidenti üçün vaxtı bitmiş vergi və gömrük güzəştlərinin müddətinin 2030-cu ilədək uzadılmasını nəzərdə tutur.

Birinci oxunuş zamanı layihənin Konstitusiyaya zidd olması, vergi, gömrük güzəştlərindən sahibkarların deyil, əsasən, dövlət sektorunun istifadə etməsi, mülkiyyət növləri arasında bərabərliyin gözlənilmədiyi barədə hörmətli həmkarlarımız tərəfindən bəzi opponent fikirlər səsləndirildi. Bununla bağlı vacib hesab etdiyimiz bəzi məqamları qeyd etmək istərdim.

Birincisi, qanun layihəsinin Azərbaycan Respublikası Konstitusiyasına zidd olması ilə bağlı fikri əsaslı hesab etmirik. Nəinki bu layihə, ali icra hakimiyyətindən Milli

Məclisə daxil olan bütün qanun layihələri istisnasız olaraq əsas qanunumuzun müddəaları və prinsipləri ilə qətiyyən ziddiyyət təşkil etmir. Həmin layihələr, o cümlədən müzakirə etdiyimiz sənəd qanunvericilik təşəbbüsü subyekti tərəfindən Konstitusiyanın müvafiq maddəsinə istinad edilməklə təqdim olunmuşdur.

İkincisi, dövlət tərəfindən güzəştlərin müəyyən edilməsi zamanı mülkiyyət növü üzrə heç bir ayrı-seçkilik aparılmır. Dövlət müəssisələrinə üstünlük verilməsi ilə bağlı səsləndirilən fikirlər də, təbii ki, reallığı əks etdirmir. Belə ki, 2024-cü ildə ölkədə tətbiq olunan vergi və gömrük güzəştlərinin ümumi məbləği 4 milyard 273 milyon manat təşkil etmişdir. Bu məbləğin 4 milyard 262 milyon manatı və ya 99,7 faizi sahibkarlıq fəaliyyəti ilə məşğul olan özəl sektorun payına düşür. Bu rəqəmlər bir daha təsdiq edir ki, vergi və gömrük güzəştlərinin əsas benefisiarı dövlət deyil, məhz özəl sektordur.

Üçüncüsü, güzəştlər mülkiyyət formasına görə deyil, iqtisadi, strateji zərurətə görə tətbiq olunur. Təşviq xarakterli iqtisadi siyasət vasitəsi ilə dövlətin strateji sahələrə dəstək göstərməsi Konstitusiyaya qətiyyən zidd deyil.

Təqdim edilən qanun layihəsinin özü də sosial-iqtisadi inkişafa dair milli prioritetlərə, iqtisadi strategiyanın sənayeləşmə, dayanıqlı artım, şaxələndirmə kimi hədəflərinə tam cavab verir. Yeri gəlmişkən, qeyd etmək istərdim ki, ölkə üzrə güzəşt və azadolmaların 95,4 faizi qeyri-neft sektoru ilə bağlı olan sahələrin payına düşür. Bu isə o deməkdir ki, vergi və gömrük siyasəti təkcə fiskal mahiyyət daşımır, həm də iqtisadi tənzimləmə funksiyasını yerinə yetirir.

Hörmətli həmkarlar, təqdim etdiyimiz qanun layihəsinin hüquqi, konstitusion və iqtisadi baxımdan əsaslı

olduğunu, ölkəmizin iqtisadi maraqlarına cavab verdiyini nəzərə alaraq, onun ikinci oxunuşda da qəbul edilməsini məqsədəuyğun hesab edirik.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim.

Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, ikinci oxunuşdur, əsas kimi səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 16.09 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən varmı? Görürəm ki, yoxdur. Səsverməyə keçirik. Maddələr üzrə səs verəcəyik. Qanun layihəsi 3 maddədən ibarətdir. Buyurun, 1-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 16.09 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

1-ci maddə qəbul edildi.

İndi isə 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 16.10 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

2-ci maddə də qəbul edildi.
Nəhayət, 3-cü maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 16.10 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddə də qəbul edildi.
İndi isə mən qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 16.10 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, mən bir məqama da toxunum. Hörmətli Səyyad müəllim, mən demişdim, şöbə müdiri Şakir Şabanov Sizə yaxınlaşdı. Başa düşdüyüm qədər hər şey aydınlaşdı. Söhbət yanvar ayında göndərilən cəmi bir məktubdan gedir. Ancaq bir az gec cavab verilib. Mən bilirəm ki, bu məsələ hələ icra olunmayıb. Mən onu öz şəxsi nəzarətimə götürərəm.

Bizim bir çox, istədiyimiz, məktubda yazdığımız məsələlər hələ icra olunmur, çünki dövlət planı var. Ancaq iş burasındadır ki, cəmi 1 məktubdan söhbət gedir. Ona da gec cavab almısınız.

O ki qaldı Sizin düymə basmaqla probleminiz varsa, Jalə xanım, mən Sizdən çox xahiş edirəm, yazılmaq istəyəndə kömək edin Səyyad müəllimə. Yaxşı? Səyyad müəllim, daha problem yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Oldu, çox sağ olun.

Hörmətli həmkarlar, iclasımız başa çatdı. Növbəti iclasımız ayın 17-də olacaq.

Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

## ***10 oktyabr 2025-ci il***

**Afət Həsənova.** Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının üç gün öncə Qəbələdə keçirilən 12-ci Zirvə Görüşü türk dünyasının gələcəyi üçün, həqiqətən, tarixi qərarlarla yadda qaldı. Qəbələ Bəyannaməsində yer alan bu qərarların reallaşması ortaq tarixə və kökə malik olan, vahid dil, din və mədəniyyətin birləşdirdiyi türk dövlətlərinin gələcəkdə vahid güc mərkəzinə çevrilməsi üçün möhkəm zəmin yaradacaqdır. Bu, həmçinin dost və qardaş dövlətlərin hazırda intibah dövrü yaşayan siyasi, iqtisadi, mədəni və digər sahələrdə münasibətlərində inteqrasiya meyillərinin daha da güclənməsinə, Türk Dövlətləri Təşkilatının əsrimizin yeni geosiyasi qütblərindən biri kimi formalaşmasına təkan verəcəkdir.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm nab İlham Əliyevin dediyi kimi: "Bu gün Türk Dövlətləri Təşkilatı, sadəcə, əməkdaşlıq platforması deyil, ciddi geosiyasi mərkəzlərdən biri kimi formalaşır. Təşkilatımızın beynəlxalq səviyyədə nüfuzunun artması məmnunluq doğurur".

Qürurla qeyd edirik ki, türk dövlətlərinin qarşılıqlı əlaqələrinin, birliyinin getdikcə möhkəmlənməsində, yeni əməkdaşlıq modellərinin irəli sürülməsində və ideyadan reallığa çevrilməsində Azərbaycanın müstəsna yeri və rolu vardır. Bu, Azərbaycanın müdrik dövlət başçısının siyasi uzaqgörənliyinin, strateji düşünmək bacarığının, diplomatik məharətinin və qətiyyətinin nəticəsidir.

Əlbəttə, dünyanın müxtəlif yerlərində, xüsusən ölkəmizə yaxın coğrafiyalarda münaqişələrin davam etdiyi, yeni gərginlik ocaqlarının yaranması ehtimalının mövcud olduğu şəraitdə sülh və təhlükəsizlik Azərbaycanın, eləcə də türk dünyasının gələcəyi üçün də prioritet təşkil edən məsələdir. Bu baxımdan Azərbaycanın ilk uğurlu addımı Vaşinqtonda Zirvə görüşündə Ermənistanla sülh sazişinin paraflanması və hazırda sülh gündəliyinin uğurla reallaşdırılması istiqamətində ardıcıl səylərin davam etdirilməsi sayıla bilər. İkinci mühüm addım isə Azərbaycan Prezidentinin türk dövlətləri arasında hərbi-texniki sahədə əməkdaşlığın önəmini xüsusi vurğulamaqla 2026-cı ildə Azərbaycanda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin birgə hərbi təlimlərinin keçirilməsini təklif etməsi oldu. Bu təklifin irəli sürülməsi türk dövlətlərinə qarşı yönəlmiş açıq, gizli təhdid və təhlükələrin qabaqlanması ilə yanaşı, Avrasiya məkanının açar ölkələri olan türk dövlətlərinin təsir altına alınması planlarının puç edilməsi məqsədi daşıyır. Digər tərəfdən, dost və qardaş dövlətlər arasında hərbi əməkdaşlığın səviyyəsinin yüksəldilməsi ilə vahid güc mərkəzinin yaranması zərurəti bu gün dünyada beynəlxalq hüquqdan çox güc amilinin həlledici rolunun getdikcə artması ilə bağlıdır.

Bu da bir həqiqətdir ki, Azərbaycan və digər türk dövlətlərinin vahid güc mərkəzi yaratmaq niyyətləri heç bir dövlətə və qütbə qarşı yönəlməmişdir və həmişə olduğu kimi, Avrasiya məkanında sülh, təhlükəsizlik və əmin-amanlığa hədəflənmişdir. Əminliklə demək olar ki, yarandığı ilk gündən etibarən Türk Dövlətləri Təşkilatı daim sülh, təhlükəsizlik, əməkdaşlıq, yaxşı qonşuluq münasibətlərinə önəm vermişdir və bu gün də həmin siyasət uğurla davam etdirilir.

Onu da qeyd edim ki, Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti prezidentlərinin imzaladığı, hər iki liderin uzaqgörənliyinin nəticəsi olan "Şuşa Bəyannaməsi", eləcə də qardaş Türkiyə ilə keçirilən 25-dən çox ikitərəfli və çoxmillətli hərbi təlimlər hərbi-texniki və təhlükəsizlik sahəsində əməkdaşlığın uğurlu nümunəsi kimi digər türk dövlətləri üçün də yaxşı örnək ola bilər.

Qəbələ Zirvəsinin strateji əhəmiyyətini türk dövlətləri arasında siyasi, iqtisadi, kibertəhlükəsizlik, rəqəmsal innovasiyalar, iri ticarət, logistika və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyinin vurğulanması da təsdiq edir.

**Azər Kərimli.** Düşənbədə keçirilən MDB Dövlət və Hökumət Başçılarının Zirvə toplantısı regionda formalaşan yeni diplomatik reallıqların fonunda xüsusi siyasi məna kəsb etdi. Təsadüfi deyil ki, bu tədbir çərçivəsində baş tutan Azərbaycan və Rusiya prezidentlərinin görüşü təkcə iki ölkə münasibətləri baxımından deyil, həm də bütövlükdə, postsovet məkanında qüvvələr nisbətinin yenidən formalaşması kontekstində diqqət çəkdi. Görüşün əsas simvolik məğzi ondan ibarət idi ki, bu dialoq Azərbaycanın mülki təyyarəsinin Rusiya hava məkanında vurulmasından sonra dövlət başçıları səviyyəsində ilk birbaşa təmas idi. Prezident Vladimir Putinin hadisə ilə bağlı bir daha başsağlığı verməsi, üzr istəməsini xatırlatması, kompensasiya ödəniləcəyini və məsul şəxslərin cəzalandırılacağını bəyan etməsi təkcə diplomatik jest deyil, həm də siyasi etiraf idi. Bu etiraf göstərdi ki, Moskva faktiki olaraq Bakının haqlı mövqeyini qəbul edir və məsuliyyətin danılmaz olduğunu anlayır.

Hadisə baş verdiyi ilk gündən Azərbaycan tərəfi məsələyə dövlət məsuliyyəti və hüquq çərçivəsində yanaşdı.

Bakı emosional bəyanatlardan, destruktiv ritorikadan uzaq duraraq məsələni beynəlxalq hüququn prinsipləri kontekstində qaldırdı və şəffaf araşdırma, məsuliyyətin müəyyənləşdirilməsi və kompensasiyanın təmin olunması tələbini irəli sürdü. Bu, həm Rusiya diplomatiyasına, həm də beynəlxalq ictimaiyyətə açıq mesaj idi – Azərbaycan ədaləti tələb edən, lakin münasibətlərin strateji dəyərini qoruyan tərəfdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə nümayiş etdirilən bu soyuqqanlı, amma prinsipial yanaşma Azərbaycanın xarici siyasətində sistemli, rasional düşüncənin üstünlüyünü bir daha nümayiş etdirdi.

Rusiyanın hadisədən bir neçə ay sonra məsuliyyəti faktiki olaraq tanıması Kreml üçün, sadəcə, reputasiya məsələsi deyil, geosiyasi zərurət idi. Moskva anlayır ki, Azərbaycanla münasibətləri qorumaq və inkişaf etdirmək üçün qarşılıqlı hörmət, hüquqi məsuliyyət və bərabərlik prinsipləri əsasında davranmaq labüddür. Prezident İlham Əliyevin bu prosesdə nümayiş etdirdiyi qətiyyət və ardıcıl siyasəti hadisənin siyasi trayektoriyasını müəyyənləşdirən əsas amil oldu. Azərbaycanın ədalət prinsipinə əsaslanan bu mövqeyi həm regionda, həm də daha geniş geosiyasi müstəvidə yeni diplomatik balansın formalaşmasına təsir göstərdi.

Əslində, Düşənbə görüşü göstərdi ki, müasir beynəlxalq münasibətlər sistemində ədalət, qətiyyət və strateji müstəqillik bəzən ən güclü hərbi resurslardan da daha təsirli siyasi alətə çevrilə bilir. Azərbaycan hadisəni hüquqi və siyasi etika çərçivəsində idarə etməklə həm dövlət nüfuzunu qorudu, həm də regionda güc və ədalət arasında tarazlığın mümkünlüyünü nümayiş etdirdi. Bu, təkcə konkret hadisəyə münasibət deyil, həm də Azərbaycanın regional liderliyinin və prinsipial diplomatiyasının təsdiqi idi.

Rusiya Prezidentinin Düşənbədə səsləndirdiyi fikirlər, sadəcə, bir hadisəyə verilmiş diplomatik reaksiya deyil, Azərbaycanın artan siyasi çəkisinin, prinsipial və ardıcıl siyasət xəttinin etirafıdır. Bu hadisə bir daha göstərdi ki, Azərbaycan təkcə hərbi və iqtisadi potensialı ilə deyil, həm də rasional və ədalətə əsaslanan dövlət idarəçiliyi ilə regionda dayanıqlı güc mərkəzinə çevrilib.

**Fatma Yıldırım.** Qəbələ şəhərində keçirilmiş Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü türk dünyasının birliyi və gələcəyi naminə mühüm bir mərhələ oldu. Bu Zirvə təkcə siyasi toplantı deyil, eyni zamanda, ortaq tarixə, mədəniyyətə və milli kimliyə söykənən güclü həmrəyliyin təzahürü idi. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin Zirvə görüşündəki çıxışı isə türk dünyasının gələcəyinə strateji baxışı ortaya qoymaqla yanaşı, ölkəmizin bu birlikdəki lider mövqeyini bir daha təsdiqlədi.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyev çıxışında türk dövlətləri arasında həmrəyliyin möhkəmləndirilməsinin, qarşılıqlı siyasi etimadın gücləndirilməsinin, iqtisadi, enerji və nəqliyyat sahələrində əməkdaşlığın genişləndirilməsinin vacibliyini xüsusi vurğuladı.

Azərbaycan hər zaman Türk Dövlətləri Təşkilatının fəal üzvü olub və bu birliyin daha da möhkəmlənməsi üçün ardıcıl və prinsipial siyasət yürüdür. Zirvə görüşündə cənab Prezident İlham Əliyevin verdiyi mühüm bəyanatlar türk dövlətlərinin inteqrasiya proseslərini sürətləndirəcək. Cənab Prezidentin çıxışında toxunduğu əsas məsələlərdən biri də türk dünyasının beynəlxalq aləmdə daha fəal, daha güclü və daha çevik siyasi birlik kimi çıxış etməsi idi. Bu istiqamətdə Azərbaycanın təşəbbüsləri və çağırışları digər üzv dövlətlər tərəfindən də yüksək qiymətləndirildi.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyev ötən il Şuşada qəbul olunmuş Qarabağ Bəyannaməsinə istinad etməklə, bu sənədin türk dövlətlərinin təhlükəsizlik və əməkdaşlıq baxımından ortaq maraqlarını əks etdirdiyini bir daha gündəmə gətirdi. Qarabağda əldə olunan qələbə və regionun tam suverenliyinin təmin olunması Azərbaycanın milli maraqları ilə yanaşı, türk dünyasının strateji mövqelərini də möhkəmləndirir. Təhlükəsizliyin təminində türk dövlətlərinin vahid mövqedən çıxış etməsi, ortaq müdafiə və informasiya siyasətlərinin gücləndirilməsi vacibdir. Cənab Prezident İlham Əliyevin bu yöndə çağırışları türk dünyasının qlobal miqyasda güc mərkəzinə çevrilməsi üçün ideoloji və strateji əsas yaradır.

Qəbələdə keçirilən bu Zirvə görüşü bir daha göstərdi ki, Türk Dövlətləri Təşkilatı artıq regional deyil, qlobal miqyasda söz sahibi olan mühüm güc mərkəzinə çevrilməkdədir. Azərbaycan bu prosesin önündə dayanır və möhtərəm Prezidentimiz cənab İlham Əliyevin strateji liderliyi ilə bu yol davam etdirilir.

**Göydəniz Qəhrəmanov.** Qəbələdə keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü türk dünyasının həm siyasi, həm də iqtisadi gücünün göstəricisidir.

Zirvədə Türk Dövlətləri Təşkilatının məqsədləri, artan gücü və gələcək perspektivləri, eləcə də ölkəmizin bu qurumdakı nüfuzu diqqət mərkəzindədir. Üzv ölkə başçılarının iştirakı ilə keçirilən bu görüş strateji baxımdan türk birliyinin möhkəmləndirilməsi istiqamətində mühüm addımdır.

Cənab Prezident İlham Əliyev görüşdə çıxış edərək qeyd etdi ki, “Türk Dövlətləri Təşkilatı bu gün, sadəcə, əməkdaşlıq platforması deyil, ciddi geosiyasi mərkəzə

çevrilməkdədir”. Bu bəyanat təşkilatın gələcək istiqamətinin və üzv dövlətlərin qarşısında duran strateji vəzifələrin aydın göstəricisidir.

Ölkəmiz bu prosesdə həm təşəbbüskar, həm də lider ölkə kimi önəmli rol oynayır. Azərbaycan bu illər ərzində Türk Dövlətləri Təşkilatının siyasi, iqtisadi və mədəni potensialının güclənməsinə xüsusi önəm verib. Dövlət başçımız çıxışında bildirdi ki, Azərbaycan TDT-yə üzv ölkələrlə çoxsaylı mühüm sərmayə layihələrini icra edib, ümumi sərmayə həcmi 20 milyard dolları ötüb. Bu da bir daha sübut edir ki, ölkəmiz yalnız siyasi deyil, həm də iqtisadi baxımdan türk dünyasının inkişafına xüsusi önəm verir.

Cənab Prezident nəqliyyat və logistika sahəsində əməkdaşlığın genişləndirilməsinin vacibliyini xüsusi ilə vurğulayaraq bildirdi ki, “Orta dəhlizlə yükdaşımalar təqribən 90 faiz artıb”. Bu rəqəm türk dövlətləri arasında ticarət əlaqələrini genişləndirir və tranzit imkanlarını artırır. Ölkəmiz isə bu istiqamətdə öndə gedən tranzit ölkə olaraq çıxış etdiyini nümayiş etdirir. Eyni zamanda, Prezident Əliyev Orta dəhlizin, Bakı–Tbilisi–Qars dəmir yolunun və Bakı Beynəlxalq Dəniz Ticarət Limanının gələcəkdə regionu birləşdirən strateji arteriyalar kimi əhəmiyyət daşıdığını qeyd etdi.

Ölkəmizin türk dünyasındakı mövqeyi bu gün həm siyasi nüfuz, həm iqtisadi güc, həm də diplomatik təsir baxımından açıq şəkildə hiss olunur. Qarabağ Zəfəri, bərpa və quruculuq prosesləri, regional sülhə yönəlik təşəbbüslər Azərbaycanın təkcə milli deyil, həm də ümumtürk maraqlarına xidmət edən dövlət olduğunu göstərir.

Nəticə etibarı ilə, Qəbələdə keçirilən Türk Dövlətləri Təşkilatının 12-ci Zirvə Görüşü həm siyasi, həm iqtisadi, həm də mədəni baxımdan inkişafın yeni mərhələsinin baş-

langıcı oldu. Bu görüş türk birliyinin reallığa çevrildiyini, qarşılıqlı etimadın, strateji həmrəyliyin artdığını və güclәndiyini nümayiş etdirdi. Azərbaycanın ev sahibliyi etdiyi bu görüş türk dünyasının birliyini daha da gücləndirdi, eyni zamanda, ölkəmizin regional liderlik mövqeyini bir daha təsdiqlədi.

Prezident İlham Əliyevin dediyi kimi: "Türk dünyası bir araya gəldikdə onun gücünə heç bir qüvvə qarşı dura bilməz". Bu, yalnız diplomatik bəyanat deyil, həm də gələcək strateji xəttin mahiyyətini ifadə edən tarixi mesajdır.

**Jalə Əliyeva.** Azərbaycan xalqının taleyində mühüm əhəmiyyət kəsb edən elə günlər var ki, həmin günlərdə onun gələcək həyatını müəyyən edən önəmli başlanğıcların əsası qoyulub. Belə mühüm günlərdən biri də oktyabrın 15-nə təsadüf edir.

15 oktyabr dövlət başçısı, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin xalqın yekdil qərarı ilə Prezident seçildiyi gündür. Prezident İlham Əliyev öz varlığı ilə, öz əməlləri ilə ötən 22 ildə əsrə bərabər möhtəşəm bir tarixə imza atıb. Bu möhtəşəm tarixin yazarı da, yaradıcısı da elə o özüdür!

Ötən 22 ilin zirvəsində, təbii ki, işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş şanlı Vətən müharibəsi dayanır. Məhz onun rəhbərliyi ilə qazanılmış möhtəşəm Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı. Azərbaycan qalib ölkəyə, xalqımız qalib xalqa çevrildi. Bu qələbə sayəsində həm regionda, həm də regionun ötəsində yeni reallıqlar yarandı.

Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının ötən gün Qəbələdə keçirilən 12-ci Zirvə Görüşü də ya-

ranan və yaşanan həmin reallıqların növbəti tarixi mərhələsi, türk dünyasının inteqrasiyasının növbəti təzahürüdür.

Bu gün Türk Dövlətləri Təşkilatı yalnız mədəni və iqtisadi əməkdaşlıq platforması deyil, dünya arenasında formalaşan real güc mərkəzidir.

Azərbaycan sözügedən mərkəzdə öz lider rolunu həm siyasi iradəsi, həm də praktiki təşəbbüsləri ilə sübut edib.

Prezident İlham Əliyevin Zirvə görüşündəki çıxışı isə bu təşkilatın gələcək strategiyasını, prioritetlərini və güc istiqamətlərini aydın şəkildə ortaya qoydu: sülh, təhlükəsizlik, enerji dayanıqlığı, iqtisadi inteqrasiya və mədəni həmrəylik. Həmin çıxış təkcə Azərbaycan üçün deyil, bütün türk dünyası üçün yeni mərhələnin ideoloji və strateji əsas sənədi kimi dəyərləndirilə bilər. Dövlət başçısının bəyan etdiyi fikirlər regionda sabitliyin və rifahın təmin olunmasına xidmət edəcək əhəmiyyətli istiqamətlərdir.

Prezident İlham Əliyevin Zirvə çıxışı türk dünyasının birliyinin, həmrəyliyinin və qlobal güc potensialının bariz ifadəsi, Türk Dövlətləri Təşkilatının inkişaf strategiyasını müəyyənləşdirən yol xəritəsidir.

Əminik ki, Qəbələdən səslənən bu strateji mesajlar türk xalqlarının sabahını aydınladacaq, perspektivlərin reallaşmasında yolgöstərən olacaqdır.

**Malik Həsənov.** Bu gün Dövlət xidmətləri haqqında qanun layihəsi birinci oxunuşda Milli Məclisin müzakirəsinə təqdim edilmişdir. Layihə 5 fəsil və 20 maddədən ibarətdir. Qanun layihəsi dövlət xidmətləri sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını müəyyən edir, həmçinin o, dövlət xidmətlərinin göstərilməsi sahəsində münasibətləri tənzimləyəcək.

Dövlət Xidmətlərinin Elektron Reyestri dövlət xidmətləri barədə məlumatları əks etdirən vahid informasiya sis-

temidir. Bununla yanaşı, layihədə xidmət istifadəçilərinin dairəsi, onların hüquq və vəzifələri də konkret olaraq müəyyən edilmişdir.

Dövlət xidmətlərinin göstərilməsində korrupsiya risklərinin azaldılması məqsədi ilə qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, dövlət xidmətinə müraciətlərin ardıcıllıqla həyata keçirilməsi üçün qanun layihəsinə növbəlilik prinsipi gətirilib.

Layihənin qəbul olunması ilə dövlət xidmətinin formalaşdırılmasına dair tələblər müəyyən olunacaqdır. Layihəyə əsasən dövlət xidməti Dövlət Xidmətlərinin Elektron Reyestrinə daxil edildikdən sonra həmin xidmətin göstərilməsinə yol veriləcək.

Təklif olunan layihədə dövlət xidmətinin göstərilməsinin nəticəsinin elektron sənəd, yaxud kağız daşıyıcıda inzibati akt, hüquq müəyyənedici, texniki sənədlər şəklində və ya informativ elektron xidmətlər üzrə məlumatın verilməsi ilə həyata keçirildiyi qeyd edilir.

Layihədə öz əksini tapan vacib bir məqam da ondan ibarətdir ki, dövlət xidmətinin keyfiyyətinə nəzarət mexanizmi müəyyən edilir. "ASAN xidmət indeksi" üzrə qiymətləndirilmə mexanizmi daha da təkmilləşdirilərək qiymətləndirilmə aparıldıqdan sonra dövlət xidmətinin keyfiyyətinə nəzarət üçün əsaslardan hesab ediləcək.

Təqdim olunan qanun layihəsi, hesab edirəm ki, səmərəli hazırlanmışdır və lehinə səs verəcəm.

**Rizvan Nəbiyev.** Ötən həftə iqtisadi təhlükəsizlik, həmçinin ənənəvi və hibrid təhlükələrlə mübarizə məsələlərinin müzakirə olunduğu Avropa Siyasi Birliyinin Kopenhagen sammitində Prezident İlham Əliyevin sülh səyləri yüksək səviyyədə təqdir olundu.

Bu həftə isə Türk Dövlətləri Təşkilatı Qəbələ Sam-

mitində – məhz Azərbaycan Prezidentinin sülh gündəliyinə istinadla – təhlükəsizlik və müdafiə sənayesi sahəsində birgə hədəflərə nail olmaq istiqamətində qətiyyətini ortaya qoydu. Bununla ortaq dəyərlər və oxşar strateji maraqları olan türk dövlətləri yeni regional güc mərkəzi kimi formalaşmaq yolunda növbəti mühüm addım atdılar.

Qəbələ Zirvə görüşünün təhlükəsizlik məsələlərinə həsr olunmasını şərtləndirən amillər həm regional və qlobal miqyasda mövcud çağırışlardan, həm də üzv dövlətlərin bu məsələlərdə əməkdaşlığa verdikləri strateji önəmdən qaynaqlanır. Azərbaycanın öz ərazi bütövlüyünü, suverenliyini bərpa etməklə regionda yaratdığı yeni siyasi reallıq və onun tarixi Vaşinqton razılaşmaları ilə təsdiqlənməsi türk dünyası üçün siyasi stimul yaradıb.

Birləşmiş Millətlər Təşkilatı müstəvisində yüksək qiymətləndirilən sülh yaratmağın Azərbaycan təcrübəsi türk dünyası üçün qürur mənbəyidir.

Xüsusən 2021-ci ildə Türkiyə ilə imzalanan "Şuşa Bəyannaməsi" regional sülh və təhlükəsizliyin təmin olunması istiqamətində möhkəm təməl formalaşdırıb. Məhz "Şuşa Bəyannaməsi"ndən qaynaqlanan təcrübə ikitərəfli formatdan indi çoxtərəfli formatda əməkdaşlığa keçid üçün uğurlu baza rolunda çıxış edə bilər.

Eyni zamanda, Zəngəzur dəhlizinin reallaşması türk dünyasına münasibətdə bir əsrlik ədalətsizliyə son qoyacaq və türk dövlətləri arasında quru yolla hərtərəfli əlaqəni bərpa edəcəkdir. Bu, iqtisadi və nəqliyyat təhlükəsizliyini gücləndirəcək, həmçinin türk dövlətlərinin Şərq–Qərb nəqliyyat dəhlizində çəkisini daha da artıracaq. Nəticə etibarı ilə Zəngəzur dəhlizi Şərq–Qərb, Orta dəhlizin qlobal miqyasda strateji üstünlüyünü möhkəmləndirəcək.

Dövlət başçıları TDT-nin beynəlxalq münasibətlər

sistemində mövqeyinin möhkəmləndirilməsi üçün 5 mühüm istiqamət üzrə 121 bənddən ibarət “Qəbələ Bəyannaməsi”ni imzaladılar. Xarici siyasət sahəsində də bir sıra hədəflər təsbit olundu. Belə ki, təşkilata BMT Baş Məclisi və İslam Əməkdaşlığı Təşkilatı çərçivəsində müşahidəçi statusunun verilməsi üçün diplomatik səylərin davam etdirilməsi zərurəti vurğulandı. Eyni zamanda, Afrika İttifaqı və Ərəb Dövlətləri Liqası ilə institusional əməkdaşlığın yaradılması qarşıya qoyuldu. “TDT+” formatının təsis olunması üçüncü dövlətlərin və beynəlxalq təsisatların təşkilatla əməkdaşlıq niyyətlərinin institutlaşdırılması məqsədinə xidmət edəcək.

Xüsusi ilə TDT-nin çoxşaxəli fəaliyyətinin reallaşdırılması üçün hüquqi bazanın təkmilləşdirilməsi çox vacibdir. Bu mənada türk dövlətlərinin strateji tərəfdaşlığı, əbədi qardaşlığı və dostluğu haqqında müqavilənin imzalanması üçün üzv dövlətlərə çağırış edildi. Konsulluq Əməkdaşlığı Platformasının təsis edilməsi Türk Dövlətləri Təşkilatının vətəndaşlar üçün əlçatanlığının təmin edilməsinə xidmət edəcək.

Prezident İlham Əliyevin irəli sürdüyü təşəbbüslər və qardaş türk dövlətlərinin verdiyi dəstək TDT-nin ciddi geosiyasi mərkəzə çevrilməsinə xidmət edən əhəmiyyətli strateji addımlar kimi dəyərləndirilir.

**Sahib Alıyev.** Bu günlərdə baş verən, yaxın və orta perspektivdə regiondakı proseslərin gedişinə önəmli təsir göstərəcək iki olay haqqında öz fikirlərimi bildirmək istəyirəm. Onlardan birincisi Qəbələdəki TDT Zirvəsi idi. Cənab İlham Əliyev Zirvədəki çıxışının lap əvvəlində Azərbaycanın qədim şəhəri Qəbələnin eramızdan əvvəl IV əsrdə əsası qoyulmuş, 12 əsrdən çox mövcudluğunu saxlamış Qafqaz Albaniyasının paytaxtı olmasını da, onun

geniş coğrafiyanı əhatə etməsini də elə-belə xatırlatmırdı. Azərbaycan əleyhinə təkəbbürlə danışanlar yəqin öz dövlətçilik təcrübələrini də göz önünə gətirib dərslərini aldılar.

Rusiyanın oradakı RLS-nin 2012-ci ilin dekabrında fəaliyyətini dayandırdıqdan sonra həm də ekoloji xarakterli təhdidlərin aradan qaldırıldığı Qəbələdəki Zirvə, fikrimcə, eyni zamanda, Qələbə Zirvəsi idi. Ona görə Qələbə Zirvəsi idi ki, cənab Prezident hələ 2009-cu ildə Naxçıvan Sammitindəki çıxışında Zəngəzur bölgəsinin türk dünyasını coğrafi baxımdan parçalamaq niyyəti ilə Ermənistana birləşdirilməsini bildirmiş və 10 il sonra Bakıdakı Zirvədə bunu bir daha təkrarlamışdı. İndi isə Zəngəzur dəhlizinin açılmasıyla bağlı artıq razılıq əldə edildiyini diqqətə çatdırdı ki, "Qəbələ Bəyannaməsi"ndə də bu dəhlizin türk dünyası üçün strateji əhəmiyyəti vurğulanır. Daha qələbə necə olur?

Azərbaycan və Rusiya prezidentlərinin dünən Düşənbədə bir araya gəlmələri də, fikrimcə, məhz Qəbələ Zirvəsini Qələbə Zirvəsinə çevirən siyasətin nəticəsidir.

**Səbinə Salmanova.** Oktyabrın 7-də dünya Azərbaycanın qədim Qəbələ şəhərindən türk dünyasının birliyinə, qardaşlığımıza və ortaq gələcəyimizə şahidlik etdi. Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü yalnız siyasi hadisə deyil, həm də türk dünyasının tarixində yeni bir səhifə, birliyin, həmrəyliyin və gücün rəmzi kimi yadda qalacaq.

Qəbələdə keçirilən bu mötəbər toplantı sübut etdi ki, türk dünyası artıq qlobal siyasətin mühüm oyunçusuna, sabitlik və inkişafın dayağına çevrilib. Qardaş ölkələrin liderləri bir masa ətrafında toplaşaraq təkcə bu günün deyil, həm də gələcəyin yol xəritəsini müəyyən etdilər.

Qəbələdən bütün dünyaya bəyan edildi ki, biz eyni kökü, eyni ruhu və eyni dəyərləri olan böyük bir ailəyik!

Möhtərəm Prezident İlham Əliyevin çıxışının hər bir cümləsində uzaqgörənlik, hər bir təklifində müdriklik, hər bir fikrində isə türk birliyinə dərin inam duyulurdu. Cənab Prezident İlham Əliyev Zirvə görüşündə bir sıra vacib məsələlərə toxunaraq TDT-nin gələcək fəaliyyət istiqamətləri üçün konkret və praqmatik təkliflər irəli sürdü. Dövlətimizin başçısı təklif etdi ki, 2026-cı ildə Azərbaycanda TDT-yə üzv ölkələrin birgə hərbi təlimləri keçirilsin. Bu təşəbbüs yalnız müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığı daha da gücləndirməyimiz üçün deyil, həm də regional sabitliyin möhkəmləndirilməsi və ortaq maraqlarımızın qorunması baxımından böyük əhəmiyyət daşıyır.

Bu təşəbbüs, eyni zamanda, TDT-nin beynəlxalq arenada sabitlik və təhlükəsizliyin təminatçısı olan strateji güc mərkəzi kimi mövqeyini daha da möhkəmləndirəcək. Bu, bir daha onu göstərir ki, Azərbaycan yalnız sözlə deyil, konkret təşəbbüslərlə regionda sülhün, təhlükəsizliyin və inkişafın təminatçısıdır.

Qəbələdə keçirilən 12-ci Zirvə görüşü bir daha sübut etdi ki, TDT yalnız keçmişin dəyərlərinə söykənmir, həm də gələcəyin siyasi, iqtisadi və strateji reallıqlarına cavab verən modern və güclü bir platformadır. Bu toplantı türk xalqlarının ortaq məqsədlər uğrunda birləşmək iradəsini, qarşılıqlı hörmət və etimad prinsiplərinə əsaslanan münasibətlərin möhkəmliyini, həmçinin türk birliyinin qürurverici parlaq gələcəyini dünyaya bir daha nümayiş etdirdi.

Əminəm ki, Qəbələdən başlayan bu tarixi yol türk dünyasını daha da birləşdirəcək və bütün dünyaya türkün gücünü göstərəcək!

Yaşasın Azərbaycan, onun müdrik lideri və türk dünyasının birliyi!

**Şahin İsmayılov.** Dövlət xidmətləri haqqında Azərbaycan Respublikası qanununun layihəsi Milli Məclisin müzakirəsinə təqdim olunan növbəti önəmli sənəddir. Qanun mütərəqqidir və təsir dairəsi olduqca genişdir. Sadə dildə desək, qanun Azərbaycan vətəndaşına göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması istiqamətində atılan növbəti addımdır. Layihədə bir çox vacib məqamlar öz əksini tapıb.

Hazırkı qanuna "dövlət xidməti", "dövlət xidmətinin göstərilmə yeri", "vahid xidmət mərkəzi", "dövlət xidmətinin dizaynı" ilə bağlı yeni anlayışlar daxil edilmiş, eyni zamanda, xidmət istifadəçilərinin dairəsi, onların hüquq və vəzifələri konkret olaraq müəyyən edilmişdir. Dövlət xidmətinin keyfiyyətinə nəzarət mexanizminin müəyyən edilməsi də həmçinin əsas üstünlüklərdəndir. Bu və digər vacib nüanslar bu istiqamətdə qanunvericiliyin təkmilləşdirilməsində mühüm rol oynayır.

Dövlət xidmətlərinin göstərilməsi, xidmətlərin keyfiyyətliliyi, rahatlığı, əlçatanlığı, şəffaflıq və peşəkarlıqdan söz düşübsə, biz mütləq "ASAN xidmət" modelindən danışmalıyıq. Dəfələrcə şahidi olmuşuq ki, Azərbaycanın "ASAN xidmət" modeli dünya üçün nümunədir. Xüsusən də xarici səfərlərdə, beynəlxalq tədbirlərdə olarkən bunun parlamentarilər, digər dövlət nümayəndələri tərəfindən təqdir edildiyini dəfələrlə görmüşük.

Məhz Azərbaycanın "ASAN xidmət" modeli əsasında bir sıra xarici ölkələrdə dövlət xidmətlərinin göstərilməsi mexanizmi təsis edilib. Azərbaycan dövlətinin öz vətəndaşına təklif etdiyi xidmətlərin digər ölkələr tərəfindən öyrənilməsi ölkəmizin əldə etdiyi böyük uğurlardan

biridir.

Vətəndaşların dövlət tərəfindən təklif edilən əmək, məşğulluq və sosial müdafiə xidmətlərinə rahat çıxışını təmin etmək üçün yaradılan DOST mərkəzləri də dövlət xidmətlərinin göstərilməsi istiqamətində görülən vacib işlərdən biridir.

Azərbaycanda elektron xidmətlərin göstərilməsi sahəsində ciddi uğurlar əldə edilib. Bu, həm dövlət qurumları, həm də özəl qurumlar tərəfindən göstərilən xidmətləri əhatə edib. Son dövrlərdə dövlət qurumlarının göstərdiyi xidmətləri təqdim edən uğurlu layihələrə Azərbaycanın rəqəmsal hökumət platforması olan "my.gov"u, rəqəmsal həllər platforması olan "SİMA"nı, "E-polis" mobil tətbiqini, "Mobil notariat" tətbiqini və sairi misal göstərə bilərik. Özəl sektorda isə banklar tərəfindən təqdim olunan "internet bankçılığı"nı uğurlu nəticə kimi qeyd edə bilərik. Bütün bunlar dövlətin öz vətəndaşlarının rahatlığı üçün gördüyü işlərin bir hissəsidir.

Hazırkı layihə bu işlərin davamı olaraq daha uğurlu nəticələrə gətirib çıxaracaq. Sözügedən qanunun tətbiqi xidmət istifadəçilərinə – vətəndaşlara, dövlət qurumlarına, özəl sektora və digər subyektlərə daha keyfiyyətli xidmətin təqdim edilməsinə gətirib çıxaracaq. Deyə bilərik ki, bu qanun layihəsinə qalib dövlətin qələbədən sonra yeni reallıqların fonunda qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində təqdim edilən ən vacib sənədlərdən biri kimi də baxmaq olar.

**Vüqar Rəhimzadə.** 1991-ci il oktyabrın 18-də qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, 1991–1993-cü illərdəki hakimiyyətin yarıtmaz fəaliyyəti cəmiyyət həyatının bütün

sahələrində kəskin böhrana, ölkədə anarxiyanın yaranmasına gətirib çıxarmış, dövlət idarəçiliyi mexanizmləri formalaşdırılmamış, qanunçuluğun, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun təmin edilməsi mümkün olmamışdır. Yalnız 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alındı, ictimai-siyasi sabitlik təmin edildi və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yarandı.

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası 1995-ci il 12 noyabr tarixində ümumxalq səsverməsi ilə qəbul olunmuş, bununla da ölkəmizdə demokratik, hüquqi dövlət quruculuğu prosesinin möhkəm təməli qoyulmuşdur. Müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının qəbulu dövlətçilik tarixində mühüm hadisə olmuş, ölkəmizdə müasir dövlət və vətəndaş cəmiyyəti quruculuğu üçün böyük yol açmış, insan hüquq və azadlıqlarının təmin olunmasına zəmin yaratmaqla ölkə həyatının bütün sahələrinin inkişafına təkan vermişdir. Bu ali sənəd, sözün əsl mənasında, ölkənin əsas qanununa çevrilərək dövlət və cəmiyyət həyatının bütün sahələrini əhatə edən genişmiqyaslı qanunvericilik və institusional islahatların hərəkətverici qüvvəsi kimi çıxış etmişdir. Bu Konstitusiya ölkəmizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə qarşılıqlı əməkdaşlıq şəraitində münasibətlərin təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır.

Ulu Öndərin rəhbərliyi və gərgin əməyi sayəsində hazırlanmış Konstitusiya çoxəsrlik dövlətçilik ənənələrimizə və beynəlxalq təcrübəyə əsaslanmaqla yanaşı, milli və ümumbəşəri dəyərləri də özündə əks etdirərək ölkəmizdə demokratik, hüquqi dövlət quruculuğuna, ictimai-siyasi, iqtisadi və mədəni həyatın inkişafına güclü təkan vermişdir.

Azərbaycan Respublikasının Konstitusiyası dinamik, inkişafda olan cəmiyyətin və dövlətin ehtiyaclarına cavab verən ali sənəd kimi bir neçə dəfə təkmilləşdirilmişdir. 2002-ci, 2009-cu və 2016-cı illərdə keçirilmiş referendumlar nəticəsində Konstitusiyanın bir sıra maddələrində mühüm əlavə və dəyişikliklər edilmişdir.

Azərbaycan Respublikasının Konstitusiyası hüquqi əsasları müəyyən etməklə, eyni zamanda, milli birliyin, dövlət suverenliyinin və ərazi bütövlüyünün hüquqi təminatçısı kimi çıxış edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl və uğurlu siyasət sayəsində dövlətçilik ənənələrimiz daha da möhkəmlənmişdir.

Konstitusiyanın preambulasında Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün qorunması başlıca məqsəd və niyyətlərdən biri kimi bəyan edilmişdir. Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdir. 44 günlük Vətən müharibəsində tarixi Zəfərimiz, bir sutkadan az davam edən antiterror tədbirləri nəticəsində işğala son qoyulmuş, ərazi bütövlüyümüz və suverenliyimiz tam təmin edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi bütün ərazilərimizdə bərqərar olmuşdur.

Prezident İlham Əliyevin Sərəncamı ilə Konstitusi-

yamızın bəyan etdiyi niyyətlərdən biri kimi ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunması, bu il Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümü nəzərə alınaraq, 2025-ci il ölkəmizdə “Konstitusiya və Suverenlik İli” elan edilib. Azərbaycanda hüququn aliliyinin qarantı olan Konstitusiya dünyada ən nümunəvi ali qanunlardan biridir. Konstitusiyamızın qəbul edilməsinin 30-cu ilində suveren və müstəqil Azərbaycanın bütün ərazisində ali qanunun – Konstitusiyanın hüquqi qüvvəsinin tam təmin edilməsinin qürurunu yaşayırıq.

“Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995–2025)” yubiley medalının təsis edilməsi müstəqil və suveren Azərbaycanın Konstitusiyasının 30-cu ildönümünə böyük töhfə olacaq. “Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995–2025)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini dəstəkləyirəm.

## MÜNDƏRİCAT

10 oktyabr 2025-ci il............................................................ 3
Edilməmiş çıxışların mətnləri............................................ 125

Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI
# VƏ
# STENOQRAMLARI

Beşinci sessiya
Payız

## 43-cü cild

10 oktyabr 2025-ci il

Buraxılışına məsul
***Hafiz Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi 9,0. Sifariş 39. Tiraj 150.